# Teşnəlik camı

**Hacı Fərhəng Xudayi Ərdəbili**

بسم الله الرحمن الرحيم

**Kitabın adı:...........................Teşnəlik camı**
**Müəllif:..... Hacı Fərhəng Xudayi Ərdəbili**
**Nəşr edən:.....................................Şəhriyar**
**Çap tarixi:............................................2017**
**Çap növbəsi:....................................Birinci**
**Tiraj:...................................................3000**

Bismillahir-rəhmanir-rəhim

# Ya Məhdi (əc)

Ey dil, ərbabi-fəzilət gələr inşaəllah
Qəm yemə, nuri-hidayət gələr inşaəllah
O ələmdari-ədalət gələr inşaəllah
Əvvəlin qaibi-itrət gələr inşaəllah
Axərin mahi-imamət gələr inşaəllah

Çapa qanlar nə qədər həqqi çapır qoy çapsın
Mərkəbi-zülmü minib harda çapır qoy çapsın
Bu soyuq, köhnə tənurə nə yapır qoy yapsın
Şahi-iqlimi-qəzavət gələr inşaəllah
Əlsizə dəsti-himayət gələr inşaəllah

Xuni-məzlumi yerə qoy o yaxanlar yaxsın
Sitəm üzüyün barmağa taxanlar taxsın
Bitəfavut oturub zülmə baxanlar baxsın
Qaziyi-mülki-şəriət gələr inşaəllah
Verə müstəkbirə zillət gələr inşaəllah

Günlərin bir günü ol müntəqimi-xuni-Hüseyn
Zülfəqari-Əli bir əldə o məftuni-Hüseyn
Bir əlində ələmi-sorxi-hümayuni-Hüseyn
Verib öz cəddi bəşarət gələr inşaəllah
Pesəri-şahi-vilayət gələr inşaəllah

İntizar ahı yanan sinələrə qoy dolsun
Sinəçak aşiqə çox tənə vurallar, olsun
Gözü yolda nə qədər gül solacaq qoy solsun

Verə gülzarə təravət gələr inşaəllah
Hələ qeybətdi məşiyyət gələr inşaəllah

Əhli-zülmilə küsüb qəlbi barışdırmayacaq
Kim vurub Fatimiyə sili danışdırmayacaq
Nari-hicrə dili-üşşaqı alışdırmayacaq
Budu təfsiri həqiqət gələr inşaəllah
Çəkilər pərdeyi-zülmət gələr inşaəllah

Xətti-bütlan çəkəcək zülmün əndişəsinə
O ki, zülmilə çalır daşı ürək şişəsinə
Vurmağa tişə o xain bəşərin rişəsinə
Sahibi-tiği-ədalət gələr inşaəllah
O əbər-qüdrəti-xilqət gələr inşaəllah

Gələcək ayineyi-dilləri saf eyləyəcək
Tiri-eşqi dili-üşşaqı şikaf eyləyəcək
Kəbə misli hamı dövründə təvaf eyləyəcək
Qoymaz aşiqləri həsrət gələr inşaəllah
Bəhri-məvvaci-məhəbbət gələr inşaəllah

Yari-mövlasan əgər sirrini əğyarə demə
Sən gülü-bağı-vilasən sözünü xarə demə
Dərdini saxla yanan qəlbidə əyyarə demə
Çəkmə biganəyə minnət gələr inşaəllah
Daiyədari-təbabət gələr inşaəllah

Göz yaşın eylə üzünə cari denən ya Məhdi
Sönə tainki ürək nari denən ya Məhdi
Boşla əğyarı, çağır yarı, denən ya Məhdi
Elə bu məclisə dəvət gələr inşaəllah
Verməyə eşqinə qiymət gələr inşaəllah

Dərü-divar arasında onu Zəhra çağırıb
Qolsuz atdan yıxılan vəxtidə Səqqa çağırıb
Vəxti qarətdə onu Zeynəbi-Kübra çağırıb
Bu fəraqə elə taqət gələr inşaəllah
Oxuya rövzeyi-qarət gələr inşaəllah

And ola cəddi Rəsulun qəlbi-bikinəsinə
Nənəsi Fatimənin qanə batan sinəsinə
Mürtəza şahi-vilanın əlinin pinəsinə
Edər Allahım inayət gələr inşaəllah
Qutarar mövsümü-qeybət gələr inşaəllah

Qəsəm olsun ürəyi qanə dönən əhbabə
Qəsəm ol Kufədəki qanə batan mehrabə
Qəsəm olsun başı daldan kəsilən ərbabə
Varisi-xuni-şəhadət gələr inşaəllah
Fəxri-kullü bəşəriyyət gələr inşaəllah

And ola qəmli Rübabın gözünün qan yaşına
And ola əmməsinin qanə boyanmış başına
Zeynəbin nizə başında dolan qardaşına
Rəhbəri adili nehzət gələr inşaəllah
Verə bu nehzətə izzət gələr inşaəllah

And ola təşti-təla içrə dağılımış dodağa
And ola guşeyi-viranədə yorğun qonağa
Göyərən xırda biləngə, qabar olmuş ayağa
Səməri-ahi-Rüqəyyə gələr inşaəllah
Yarü-xunxahi-Rüqəyyə gələr inşaəllah

Viranədə qapıya hər gün çıxardı o bala
Səbr evin ahi-fəraq ilə yıxardı o bala
Yollara əlləri qoynunda baxardı o bala
Hey deyərdi babam axır gələr inşaəllah
Qocalan əmməmə xatir gələr inşaəllah

Şamın eylərdi təmaşa, gəhi çavuşlarına
Gəh baxardı o yerin göydən quşlarına
Boynu çiynində baxan vəxtə tay-tuşlarına
Söyləyərdi qara günlər gedər inşaəllah
Babam Əkbərlə səfərdən gələr inşaəllah

Ayrılan vəxtə dedi döz qəmə, aləmə qızım
Çatacaqsan dedi səbr etsən əgər kamə qızım
Qol verdi dedi bir gün gələrəm Şamə qızım
Vardı yarımla qərarım gələr inşaəllah
Sözdə sadiqdi yarım gələr inşaəllah

Ellərim Şamə gəlincə sağalar yarələrim
Qollarımdan çəkilər qəmçi yazan qarələrim
Əkbərim bilsə gedib qarətə güşvarələrim
Yolu bazarə gələndə salar inşaəllah
Mənə güşvarə dübarə alar inşaəllah

# Salavat

İstəsən Məhdini yad eyləyəsən
Həzrətin qəlbini şad eyləyəsən
Bu gecə əxzi-murad eyləyəsən
Ya ki, Həqdən alasan ali bərat
Fatimə ruhuna göndər salavat

İstəsən qəlbini saf eyləyəsən
Xəncəri-kibri qəlaf eyləyəsən
Kəbə dövründə təvaf eyləyəsən
Tapasan qüssədən aləmdə nicat
Zeynəbin ruhuna göndər salavat

İstəsən şadlıq edib kam alasan
Həzrəti Məhdidən ənam alasan
Öz əlindən ağamın cam alasan
Tapasan Xızr kimin abi-həyat
Nərgizin ruhuna göndər salavat

İnstəsən cameyi-izzət geyəsən
Zillətin mərkəbini peyləyəsən
Şühəda qəbrini şot eyləyəsən
Mütəali ola səndə dərəcat
Şühəda ruhuna göndər salavat

İstəsən ərzi-niyaz eyləyəsən
Bu gecə əxzi-cəvaz eyləyəsən
Səfəri Şam, Hicaz eyləyəsən
Olasan zairi-dəşti-Ərəfat
Müctəba ruhuna göndər salavat

İstəsən kəsbi-fəzilət edəsən
Məclisi qərqi-təravət edəsən
Ağanı məclisə dəvət edəsən
Səsini sən də uca səslərə qat
Ruhu sərləşkərə göndər salavat

# Peyğəmbərin (s) vəfatı və İmam Hüseynin (ə) şəhadətinə işarə

Soldu qəmdən Səfər ayında məhəbbət çəməni
Rehlətin caməsini geydi Rəsuli-mədəni

Bəstərə düşdü qərəz ayineyi-ərşnəma
Geyinbdir qara başdan-ayağa beyti-Xuda
Məşər, Mərvə, Səfadən ucalır ərşə nəva
Çiyninə cəddi Xəlilullah alıb qarə ələm
Nuh oxuyur nohə uca sotilə ağlır zəmzəm

Alıb ətrafın əhibba hamısı dildə mühən
Baba vay səsləyib ağlardı Hüseynilə Həsən
Ərşə qozanmış idı ahü-nəva Zeynəbdən
Hərə bir noyilə ağlardı, ürək dağlardı
Ağlayan vəxtə Hüseyn orda hamı ağlardı

Qoymayın ağlaya səslərdi Peyəmbər, balamı
Salacaq çöllərdə təqdir o mükəddər balamı
Edəcək əhli-sitəm gül kimi pər-pər balamı
Balamın şişeyi-ömrün daşa düşmən çalacaq
Yarü-ənsari ölüb ərsədə yalquz qalacaq

Kufə əhli balamın üstünə ləşkər çəkəcək
Qəlbinə daği-Əli Əkbər və Əsğər çəkəcək
Əlqəmə sarı baxıb ah, o dilavər çəkəcək
Öləcək bir uca boy qardaşı qəddin əyəcək
Qəflətən alnına yorğun balamın daş dəyəcək

Ağlaşırdı hərə bir yanda qərəz Ali-Rəsul
Almış idi dizin ağuşuna Zəhrayi-məlul
Sinəsin möhnəti-hicranilə dağlardı Bətul
Qızının Xətmi-Rüsul ağladı baxdı üzünə
Həzrətin göz yaşı mərcan kimi axdı üzünə

Çəkdi bir ahi-cigərsuz dedi can Zəhra
Ağlayıb etmə yanan qəlbimi sən qan Zəhra
Gözünün yaşına canım ola qurban Zəhra
Sən mənim cismidə ay şəms həya canımsan
Çox darıxma neçə gündən sonra mehmanımsan

Qardaşın yoxdu qızım, qəm yemə çox yarın var
Mürtəza misli sənin yari-vəfadarın var
Tökmə göz yaşını, Zeynəb kimi qəmxarın var
Dözmərəm başımın üstündə fəğanın ucala
Əşkini gözdə Hüseyn məqtəlinə saxla bala

Qoymuş idi əlini sineyi-Tahayə Hüseyn
Çeşmi-həsrətlə baxırdı rüxi-babayə Hüseyn
Dedi Zəhra: əməl eylə bu təmənnayə Hüseyn
Yandırıb qəm görürəm dildə əza məşəlini
Babanın sinəsinin üstünə qoyma əlini

Can verən vəxtə, ölən qərqi-qəmü-möhnət olar
Sinəsi olsa açıq can verinin rahət olar
Sinə səngin ola gər can verənə zəhmət olar
Şahidül-eynidi bu səhnəyə nalan Zeynəb
Saxlamışdı bu sözü yadda pərişan Zeynəb

Keçdi illər yetişib vaqieyi-Aşura
Qərq olub başdan axan qanlara səhrayi-bəla
Can verir teşnə Hüseyn başda yara, sinə yara
Gördü Zəhranın evin Şimri bədəndiş yıxıb
Yarəli sinəsinə çəkmə ayağında çıxıb

Səslədi ay qəm əlindən ürəyi yarə ana
Zeynəbin bəxti kimin bəxti, günü qarə ana
Bu ağır dərdə özün gəl elə sən çarə ana
Can verir isti qum üstündə Hüseyn fikrinə qal
Sinəsindən balanın gəl ana Şimri yerə sal

Ey sepehri-əzəmət əxtəri-banuyi-əzəl
Babanın canı alan vəxtidə ol peyki əcəl
Olmadın razı Hüseyn, sinəsi üstə qoya əl
Necə dözdün balan əşrar yıxan vəxtə xanım
Yaralı sinəsinə Şimr çıxan vəxtə xanım

Nə Xudadən, nə də Tahadən utandı bu dəni
Gətdi cənnətdən o səhrayi-poraşubə səni
Soydular kufəlilər sən toxuyan pirəhəni
Gün qabağında yara peykəri üryan qaldı
At ayağında pərakəndə o reyhan qaldı

## Mövla Əlinin (ə) mədhi

Ey hüda məşəlinin nuru Əli
Xilqətin mərdi-sələhşuru Əli

Ey ədəb keşvərinin sültanı
Xilqəti maxəlqin bürhanı
Xəlqə ay ərsələrin piruzi
Verir Allah sənə xatir ruzi

Ünsüri ərbəə, ay baəzəmət
Verməsən izn eləməzlər hərəkət
Nəzərin olmasa gər, gün çıxmaz
Köynəyin göydə buludlar sızmaz

Sənsiz oxşar gecəyə gündüzlər
Çaxnaşar bir-birinə ulduzlar
Ey olan qaşları mehrabi-namaz
Sənsiz ey padişəhi-bəndə nəvaz

Kullü əflak düşəllər işdən
Kəhkəşanlar dayanar gərdişdən
And ola öz canına fatehsən
Həm yerə, həm göyə fərmandehsən

Gərçi bir iddeyi-nadanü-avam
Oldu əndişeyi-batilləri xam
Qəlbidən cəhl tozun silmədilər
Qədrini qiymətini bilmədilər

And ola zati-Həqqi yektayə
Qapısı odda yanan Zəhrayə
And ola qana batan mehrabə
Başı daldan kəsilən ərbabə

And ola Əsğərin ağlar gözünə
Əkbərin qana boyanmış üzünə
Sən əzəldən Əli əlasan
Ta əbəd maxələqə mövlasan

Ey olan səbridə çün oqyanus
Mələkut əhlinə daim mənus
Ey çətin cəbhələrin şiri Əli
Xilqətin şiri cəhangiri Əli

Cana aldın bu cahan dərdu-qəmin
Dini-İslamın ucaltdın ələmin
Zərbi-şəstinlə nə lazım deməyə
Əhli-iman yetişdi əməyə

Hamı mədyundu sənin himmətinə
Cəhdinə, kuşeşinə, qüdrətinə
Ərsəgəhlərdə gələn vəxtə adın
Titrəyirdi canı əhli-fəsadın

Odur ki, bəzi azanlarda hələ
Qoymayıllar gözəl adın deyilə
And ola nami-Rəsulullaha
Cahü-iclalı büłənd Allaha

Səni kim rədd eləsə qafildi
Hər ibadət eləsə batildi
Hər ürək dolmasa mehrinlə əgər
Ləbbeləb olmasa mehrinlə əgər

Daşmasa eşqin əgər hər başdan
Çəkməsə eşqilə sağər başdan
İki dünya boyu zillət çəkəcək
Cənnətə getməyə həsrət çəkəcək

Ey məqu sirrilərin agahı
Yer-göyün sahibü-şahənşahı
And ola zülmü yıxan ahlara
Dərdinə tab eləyən çahlara

And ola boyanmış başına
Qəmu-möhnətdən axan göz yaşına
Oğlunun ox dağıdan sinəsinə
Bel vuran əllərinin pinəsinə

Fəxr edir şieyi-azadəməniş
Milləti fazilü-pakizərəviş
Sən kimi rütbəsi baş mövlayə
Vermərik bir tükünü dünyayə

Sən əzəldən Əliyyi-əlasan
Ta əbəd maxələqə mövlasan
Görə bilməz daxi bu aləmi-pir
Sən kimi mərdi-sələhşurü-dəlir

Zərbi şəstin sənin ey nəfsi səlim
Etdi Mərhəb kimi dejximi du nim
Qoydun hər cəngə səlabətlə qədəm
Çəkdin hər nəqşinə bir nəqşi ədəm

Beyrəqi-küfrü bənadən yıxdın
Cəbhədən qalib-o-fateh çıxdın
Şirtək ərsədə qorreş elədin
Fatih oldun hara yürüş elədin

Bu şücaətlə əya miri-ənam
Hər yeri fəth elədin illa Şam
Hasili olmadı ol keşməkeşin
Sonra bəlləndi dəlili bu işin

Şamə tərrahi məqbul elədin
Oranı Zeynəbə mokul elədin
Səndəki qüdərti əlfazü-bəyan
Dili-porcürət, nəbzü-şərəyan

Qüvveyi-səfşikəni-qəhriyyə
Çatdı Zeynəb qızına irsiyyə
Dərdü-alamə dəvam etdi xanım
Düşmənə gündüzü şam etdi xanım

Getdi Şamə qiyam etdi xanım
Cəngi-Süffeyni təmam etdi xanım
Mürtəzanın o şərafətli qızı
Qolları bağlı şəhamətli qızı

Nə sipah, nə qəvi ləşkər ilən
Nə də sərhəng, nə də əfsər ilən
Nə cavan Qasim, nə də Cəfər ilən
Nə Əbəlfəz, nə də Əkbər ilən

Nə zər, nə nizə, nə xəncər ilən
Şamı fəth etdi qara məcər ilən
Mütəvəssil olub öz göz yaşına
Şamın ixtar elədi obaşına

Etina eyləmədi pərxaşına
Təxtini çəkdi çevirdi başına
Qəlbi-Şamatə ələm vurdu xanım
Düşmənin vəqrini sındırdı xanım

Ərşiyan mətləbi rövşən dedilər
Zeynəbin vəqrinə əhsən dedilər
Heyf ola toxtamadı dil yarası
Bəstərə düşdü sesalə balası

Şam içində o zəkiyyə ölümü
Zeynəbi pozdu Rüqəyyə ölümü
Qəm oxu dəydi dübarə hədəfə
Baxdı əfğanilə səmti-Nəcəfə

Dedi ey atifə ərkanı baba
Şad edən qəmli yətimanı baba
Ey yaralı ürəyin dərmanı
Ey gecə dəfn eləyən Zəhranı

Yumdu ziba gözün ahuyi-hərəm
Öldü qürbətdə mənim xırda anam
Künci-viranədə ay məhrəmi-raz
Gülü sesalə anamın qəbrini qaz

## Allahı göstərən güzgüsən Əli (ə)

And ola Müshəfə, "Nun"a "Qələm"ə
Kərbəladə qanə batan ələmə
Ələmin sahibi sahib-kərəmə
Sən şərəfi-əhli-səxasən Əli
Hamı ağalardan ağasan Əli

And ola göylərə dağa-daşlara
Aşiqlər gözündən axan yaşlara
Nizələr başında gəzən başlara
Sən münciyi-dini-Xudasan Əli
Hamı ağalardan ağasan Əli

Olsun qəsəm parçalanan boğaza
Oxlar altında qılınan namaza
Qələm, qələm olsa gərəkdir yaza
Məzlumi-dəhri-porcəfasan Əli
Hamı ağalardan ağasan Əli

And ola teşnələb ölən qonağa
Tikan batıb qabar olan ayağa
Teşt içində parçalanan dodağa
Sərçeşmeyi-eynül-bəqasən Əli
Hamı ağalardan ağasan Əli

Olsun qəsəm hörülmüyən saçlara
Topraqları balış edən başlara
Toz bürüyən kipriklərə, qaşlara
Dərd əhlinə dərd aşinası Əli
Hamı ağalardan ağasan Əli

And ola ay kimi batan qızlara
Can şövqünü başdan atan qızlara
Xərabələrdə ac yatan qızlara
Azadə xəlqə müqtədasan Əli
Hamı ağalardan ağasan Əli

Olsun qəsəm qəm çöhrəsin pozana
Əkbər adın topraqlara yazana
Zeynəb xərabədə qəbrin qazana
Həm ibtida, həm intəhasən Əli
Hamı ağalardan ağasan Əli

Olsun qəsəm qara yazı gəlinə
Həna kimi qan yaxılan əlinə
Gül yerinə kül əyləşən telinə
Dəryayi-rəhmət-o-ətasən Əli
Hamı ağalardan ağasan Əli

Olsun qəsəm şikəstə ayinəyə
Zəhmətkeş əllərindəki pinəyə
Qapı dalında odlanan sinəyə
Ayineyi-Xudanəmasan Əli
Hamı ağalardan ağasan Əli

And ola qəmçi sındıran xollara
Zeynəb gedən alçaq-uca yollara
Əlqəm üstə qələm olan qollara
Şərhi-nüzuli "Həl əta"san Əli
Hamı ağalardan ağasan Əli

Olsun qəsəm eşq əhlinin rəşkinə
Səkinənin gözdən axan əşkinə
Əbəlfəzin paralanan məşkinə
Mətləi-nuri-Kərbəlasan Əli
Hamı ağalardan ağasan Əli

And ola Zəhra toxuyan köynəyə
Rüqəyyə bağrına alan bələyə
Qəmçi dəyib yol-yol olan biləyə
Ziyayi-çəşmi-ənbiyasən Əli
Hamı ağalardan ağasan Əli

Olsun qəsəm oxlar sökən ürəyə
Qətligəhdə qanə batan ləçəyə
Xeymə yananda od tutan ətəyə
Dərd əlindən sinə yarasan Əli
Hamı ağalardan ağasan Əli

## Mövla Əlinin (ə) mədhi və Kufə əhvalatına işarə

Sidqilə ya Əli desə hər kim bərəndədi
Allah yanında sadiq, şayistə bəndədi
Həqq məhzərində xəsmi-Əli sərəfkəndədi
Dünya nə qədər vardı Əli vardı zindədi
Hər yanda bəzmi-eşq bərpa olsa adı var
Eşq əhlinə gözəl adının ayrı dadı var

Qurban olum o şahə adı cavidan qalıb
Tarixdə müqəddəs adı qəhrəman qalıb
Dünya qocaldıqca o mövla cavan qalıb
Mədhində cümlə əhli-qələm natəvan qalıb
Eşqində kəsbi-feyzə hamı paybənd olub
Hər kəs öz əqlinin qədəri bəhrəmənd olub

Təsxir edib ürəkləri həzrət ələm vurub
Bir ömr o miri-eşqdən üşşaq dəm vurub
Hər kim bir ömr dəm vurub əlbəttə kəm vurub

Vəsfi-Əlidə əlli il Ənvər qələm vurub
Mövla adilə çatdırıb ovca kəmalını
Fəxrilə boynuna salıb izzət medalını

Bazuyi-porqüvayi-zəifandır Əli
Təndisi-ədl, mənayi-Qurandır Əli
İslam əlində xəncəri-bürrandır Əli
Mafoqi dərkü-fəhmi hər insandır Əli
Yoxdur təvan bəşərdəki əqlü-şüuridə
Tərif edəndə həqqi-Əlini əda edə

Xeybər şahının tərifini kamil Xuda deyib
Həqqi-Əlidə mətləbi xəlqə rəsa deyib
Şənində "qul kəfa", gahi "innəma" deyib
Bir kəlmədə sözü qurtarıb "Həl əta" deyib
Əfsus ola bəşər Əli kimdir bilənmədi
Yəni cəhalət qübarın ürəkdən silənmədi

Məzlum oldu yerdə şəhi-ərşi-aşiyan
Bir şəmməsin bu cümlədə mən eylərəm bəyan
Həzrət həqiqət yolunda şəhid olan zaman
Nəşr oldu ki, o şah namaz üstə verdi can
Çoxlar eşitcəyin bu sözü etdi etiraz
Bu söz nədir Əli də qılardı məgər namaz?

Qurban olum o məzlum olan canına Əli
Qurban olum o qəlbi-pərişanına Əli
Qurban olum o sinəyi-suzanına Əli
Qurban olum başından axan qanına Əli
Səntək gül ümüdü sitəmlən solan hanı
Səntək bu dəhri-fanidə məzlum olan hanı

Şərh eləyim nə noyi qəmi-bikəranını
Tar etdilər gözündə işıqlı zamanını
Yandırdılar mələklər öpən asitanını
Öldürdülər firişteyi-xüld aşiyanını
Namusu heç kimin belə əllərdə ölməyib
Həmsər yanında özgə əlində döyülməyib

Beş il hökumət eylədi viranə Kufədə
Bir dəfə camə geymədi şahanə Kufədə
Gəlmişidi dərd əlindən o şəh canə Kufədə
Şahın o şəhri-Kufədə beş il hökuməti
Təfhim etdi aləmə eyni ədaləti

Bir gün həman o Kufədə çıxmışdı minbərə
Qərq idi bəhri-xütbəsinə xəlq yeksərə
Nagəh yetişdi qasid o əsnadə məhzərə
Bir namə verdi minbərin üstə o sərvərə
Mətnin o namənin oxudu həzrət, ağladı
Bir ah çəkdi sinəyi-afaqı dağladı

Heyrətdə qaldı məclisin əhli edib sual
Ki, ey bəndeyi-mütiyi-Xudavəndi layəzal
Tutdu nə var məgər ürəkdən qüssə-məlal
Həzrət silibdi göz yaşını eylədi məqal
Söz burda mədəni-şərəfü-fəzilətdən gəlib
Bu qəmli namə oğlum Əbəlfəzdən gəlib

Yazmış ki, Kufə şəhrinə reyhan gətirmişəm
Gülsün üzün sənə gülü xəndan gətirmişəm
Qəm çəkmə cisminə babacan, can gətirmişəm
İstəkli Zeynəbin sənə mehman gətirmişəm

Çox izzətilə məhmilə mindirmişəm özüm
Zanu rikab edib yerə endirmişəm özüm

Yollarda mehriban bacımın yarı olmuşam
Dindirmişəm gəlib dilə dildarı olmuşam
Şəxsən özüm gələndə celudarı olmuşam
Qəmli olan zamanda da qəmxarı olmuşam
Qardaş çağırdıqca məni çox ucalmışam
Hər söz başında can demişəm könlün almışam

Azdır nə qədər xidmət edəm ali-ismətə
Qurdum kənari-Kufədə xeymə bu niyyətə
Məşğul ola vəfalı bacım istirahətə
Amadəyəm hər əmrin ola gər itaətə
Versən icazə şəhrə gələk gün batan zaman
Ya ki, təmami-mərdumi-Kufə yatan zaman

Qəsdim budur edək sipər burda gündüzü
Qeyrətli oğlunun sənə rövşəndi bu sözü
Şəhrə gələndə istəmirəm Fatimə qızı
Hətta kəcavəsin görə naməhrimin gözü
Qeyrətli canına ağacan canımız fəda
Bəs harda qalmışdın aya mədəni-vəfa

Çöllərdə qəlbi-Fatimə şölə çəkən zaman
Qolları bağlı Küfəyə Zeynəb gələn zaman
Qollarına cəfa ilə qəmçi dəyən zaman
Qəmçi dəyəndə dadə səni səsləyən zaman
Bir gün o kəs ki, məqdəminə gül səpirdilər
Amma o gün hamı başına kül səpirdilər

Daxil olanda Küfəyə möhnət çəkən xanım
Zülm ilə yeddi qardaşı əldə ölən xanım
Beş il o şəhr içində xanımlıq edən xanım
Biganələr rəsa qəddini görməyən xanım
Səsləndi ay bu Kufənin əlvan geyənləri
Beş il evimdə süfrəmin ehsan yeyənləri

Zeynəb tıfaqı bərhəm olub gülməyin mənə
Qəlbi məlalü-dərdə dolub gülməyin mənə
Gülzarı Kərbəlada solub gülməyin mənə
Mən yaslıyam Hüseynim ölüb gülməyin mənə
Daş qürfələrdən ay daş atan vurmayın mənə
Qəlbim yaradı zəxmi-zəban vurmayın mənə

Beş il bu şəhridə sizilən bahəm olmuşam
Çoxlarızın qəmində şəriki-qəm olmuşam
Çox yarəlı ürəklərə mən mərhəm olmuşam
Bu əl çalanların çoxuna həmdəm olmuşam
Daş ilə yarəli başı vurmazlar həya edin
Bacı yanında qardaşı vurmazlar həya edin

# Qitə

Mən Zeynəbəm, anadan olandan bəlalıyam
Neytək bəla, dərdin əlindən nəvalıyam
Eşq əhlinə bu baş yarası neyləyir məgər
Zəxmi-zəban dəyibdi ürəkdən yaralıyam

# Hicabı qorumaq

Fatimə şəxsiyyəti-valadı
Fatimə cani zəvil-qürbadı

Fatimə bəndi-dili-Tahadı
Fatimə mahi-cahanaradı
Fatimə xilqəti istisnadı
Zinəti-aləmü-mafihadı
Gün düşər Fatiməsiz ərzişdən
Kəhkəşanlar dayanar gərdişdən

Bəzmi-eşqin səbəbi rövnəqidi
Qərqi-tufan olanın zurəqidi
Mehr əndamının istəbrəqidi
Nuri-ənvari-həqqin müştəqidi
Uca beyrəq xanımın beyrəqidi
Məhşərin şafiyi-mütləqidi
Orda rəhmət çırağın yandıracaq
Bütün aşiqləri bağışlandıracaq

Fatimə ayəti "ərrəhman"dı
Fatimə nəyyireyi-rəxşandı
Həm yerə, həm göyə nurəfşandı
Adı aləm boyu cavidandı
Sözləri həmrədeyi-Qurandı
Xanım ülquyi-hamı nisvandı
Hər kim olsa xanıma aşiqi-nab
Dolanar camiədə başda hicab

Fatimə məktəbi müstəhsəndi
Xəlqə rahü-rəveşi rövşəndi
Bihicab ilə xanım düşməndi
Bihicab üsveyi-əhriməndi
Hamısı zümreyi-batildəndi
Xülqi-batilləri müstəhcəndi
Doğrudan cahil, biçarədilər

Peyrovi-Hindi-cigərxarədilər

Bihicablıq sənədi batilədi
Bihicab ayineyi-məzbələdi
Məzbələ səbzəsitək safələdi
Nisbəti Xuliyə, həm Nofələdi
Əhsən, bəh-bəh deyəni Hərmələdi
Bihicablar hamısı cahilədi
Gözlə insan demə, heyvandı olar
Dəstpərvərdeyi-şeytandı olar

Fatimə şiəsi biar olmaz
Dəsti-biganədə əbzar olmaz
Hizomi-müştəili-nar olmaz
Qəlbi napak, ləcənzar olmaz
Pəst, velgərd, bezehkar olmaz
Düz gəzər hərzə, murdar olmaz
Pak əgər etməsə əndişəsini
Ağam Abbas qazar rişəsini

Çıxmaz insan hərəmi-təqvadən
Şərm edər Fatimeyi-Zəhradən
Örtüb özünü Fatimə nabinadən
Dərs alaq bəndi-dili-Tahadən
Həmsəri-nabiğeyi-mövladən
Qafi-iffətdə olan ünqadən
Əhli-dil and ola Aşurayə
Bir tükün verməz onun dünyayə

Fatimə yəni fədakari-Əli
Yəni pərvaneyi-pərgari-Əli
Məhrəmi-sadiqi-əsrari-Əli
Gördü başdan dağılıb yari-Əli
Cümlə yaran olub əğyari-Əli
Yektənə oldu həvadari-Əli
Pozdu əhli-sitəmin hövzəsini
Düşmənin vurdu yerə puzəsini

Gördü ta qövmü-ləinü-xunxar
Pənceyi-müstəbidi-istikbar
Zuri-sərnizə ilə firqeyi-nar
Beyət istillə Əlidən alalar
Olalar kürsiyi-İslama səvar
Edələr məktəbi-hürriyyəti xar
Bəhri-himmətdə düşüb üzdü xanım
Düşmənin nəqşələrin pozdu xanım

Şəmsi-qeyrət qızı baqaməti-xəm
Məscidə ta yetişib qoydu qədəm
Nəqşeyi-şumə çəkib nəqşi-ədəm
Dedi olsun xudi-Tahayə qəsəm
Münkiri-Heydərə min yol da öləm
Əymərəm baş, bəli, qurban demərəm
Həmsəri-Heydər, bivahiməyəm
Şəninə surə gələn Fatiməyəm

Ey cəmaət gülü-Bəthayəm mən
Şokəti-ərşi müəllayəm mən
Sinəpərvərdeyi-Tahayəm mən
Qəmi-Tahadə müəzzayəm mən
Şərm edin Ümmü-Əbihayəm mən

Mustəfanın qızı Zəhrayəm mən
Atamın saxlamadız hörmətini
Yaxşı cübran elədiz zəhmətini

Səs düşüb göylərə Zəhra danışır
Madəri-Zeynəbi-Kübra danışır
Məfxəri-Məryəm və Sara danışır
Bəski baməntiq və ziba danışır
Elə bil həzrəti mövla danışır
Ya çıxıb minbərə Taha danışır
Qorreş eylər yaralı şir kimi
Sözü çox qəlbi yarır tir kimi

Dedi bu can kəlamımdı mənim
Kullü dünyayə pəyamımdı mənim
Əgər ölsəm də məramımdı mənim
Mürtəza ruhi-qiyamımdı mənim
Şəhdü-şirini kamımdı mənim
İftixarımdı, imamımdı mənim
Lazım olsa ağama can verrəm
Dörd balamı ona qurban verrəm

Heydərin tək nə fəqət həmsəriyəm
Mən onun həmdəmiyəm, yavəriyəm
Belə bir gündə həmsəngəriyəm
Dağılıb ləşgəri gər ləşgəriyəm
And ola Zeynəbə xaki-dəriyəm
Min yol ölsəm də yenə heydəriyəm
Mürtəza nuru-siracımdı mənim
Yolunun torpağı tacımdı mənim

Mürtəza şahi-vilayətdi mənə
Dəhridə mayeyi-izzətdi mənə
Sayəsi sayeyi-rəhmətdi mənə
Adının zikri ibadətdi mənə
Ölsəm eşqində səadətdi mənə
Bu kəlamı atam öyrətdi mənə
Ərşü-fərşə dedi sərvərdi Əli
Xəlqə məndən sonra rəhbərdi Əli

Ey şüuru, nəzəri kutəhlər
Məğzi lağər bədəni fərbəhlər
Ey cəmalı şəbəhə əşbəhlər
Xabi-qəflətdə yatan gümrəhlər
Qapıma şölə vuran əbləhlər
Həqqi-mövlanı danan rubəhlər
Mürtəza zati-Həqqə məzhərdi
Dansa kim həqqin onun kafərdi

Nədən ay tirə zəmirani-həqir
Hübbü dünya hamızı etdi əsir
Çıxdı yaddan niyə bəs yövmi-Qədir
Hardadı ordaki, hüzzari-kəsir
Qeyri-Heydər o cəvanmərdi-dəlir
Kimdi layiq ola bu xəlqə əmir
Mürtəza naibi-Peğəmbərdi
Dansa kim həqqin onun kafərdi

Ey cəmaət şəhi-məhşərdi Əli
Hələ qalsın ki, dilavərdi Əli
Yox sözüm cəngidə neylərdi Əli
Dedi Taha mənə məfxərdi Əli
Hamıdan fəzlidə bərtərdi Əli

Xəlqə məndən sora rəhbərdi Əli
Bəs Əli naibi-Peyğəmbərdi
Dansa kim həqqin onun, kafərdi

Bağlayıbsız nədir illət qolunu
Məsdəri ədlü-şücaət qolunu
Bağlayanmazdı cəmaət qolunu
Zor, təzvir və siyasət qolunu
Bağlayıb qeydi-məşiyyət qolunu
Açmasaz gər şəhi-rəhmət qolunu
Məcərimi açıb əfəğan edərəm
Aləmi başıza viran edərəm

Can közün kamil alışdırdı xanım
Xəlqə cürət meyin içdirdi xanım
Sakit əhbabı danışdırdı xanım
Münfəil xəlqi çalışdırdı xanım
Məclisi qatdı qarışdırdı xanım
Heydərin qolların açdırdı xanım
Düşməni saldı şərəfdən Zəhra
Ruhi-Taha dedi əhsən Zəhra

Oturanlar hamı durdu ayağa
Var yeri göz yaşı rüxsarə yağa
Baxdı mövla sola, gəh baxdı sağa
Ağaladı başını saldı aşağa
Dözmədi Fatimə gəldi qabağa
Ağlaya-ağlaya səsləndi, ağa!
Töksən ölləm üzünə göz yaşını
Səni Zeynəb, Əli, qalxız başını

Səbrinə səbrü-qərarım qurban
Qəlbi-porsuz və şərarım qurban
Dərdinə el və təbarım qurban
Şəninə şənü-vüqarım qurban
Gözü yaşlı balalarım qurban
İzn versən yaralı yoldaşına
Balalarımla dolannam başına

Sonra üz tutdu o simayi-həya
Qəbri-Peyğəmbərə ba ahü-nəva
Dedi səndən sonra qəmgin Zəhra
Nə yaman günlərə gör qaldı baba
Gözü yaşlı balanı eylə dua
Sən duadə ölüm istə qızına
Bəzmi-vəslin mənə tez qismət ola
Fatimə bəlkə ölə rahət ola

Çeşmi-biganə uzaq gördü səni
Evimə həmlə gətirdi ələni
Saldı dəryayi qəmü-dərdə məni
Qoydu əşrari-cəfakarü-dəni
Ayaq altında Hüseyni, Həsəni
Sən sifariş eləyən Fatiməni
Taziyanylə gələn vurdu baba
Sən öpən əlləri sındırdı baba

## Həzrət Zəhranın (s.ə) razü-niyazı

Sailə var ətası Fatimənin
Başdı şahdan gedası Fatimənin

Ucadı rütbədə mələklərdən
Aşiqi-biriyası Fatimənin

Naz edər sakinini-lahutə
Xadimi-parsası Fatimənin

Eləməz gün vücudunu izhar
Zahir olsa cəlası Fatimənin

Neçə ay-gün yatıb cəbinində
Bibədəldir ziyası Fatimənin

Görsənər gün tülu edən yerdən
Şəmmeyi əz nəması Fatimənin

Vardı şənində mətni-Quranda
Kovsəri, Həl ətası Fatimənin

Düzdü yerdə məzarı gizlindi
Yoxdu qəbrü-binası Fatimənin

Müntəha vardı ərşi-əladə
Bargahi-təlası Fatimənin

Uca göylərdə çoxdu yerlərdən
Aşiqü-mübtəlası Fatimənin

Çərxi-çarumi həyati-xəlvətidi
Ucadı etilası Fatimənin

Cəbərut aşiyani-Fizzəsidi
Üstədir çox sərası Fatimənin

Vardı lahutun intihasında
Görməli sərsərası Fatimənin

Sidrətül-müntəhayi-əladə
Vardı darüşşəfası Fatimənin

Adına göylərin vurub sənədin
Xaliqi-masəvası Fatimənin

Buludlar tüstü, ah sinəsində
Qar-yağış bükası Fatimənin

Buludlar nərə çəkir, yəni
Ucalır ahü-vası Fatimənin

Çox lətafətli bir sərin yel əsər
Tərpənəndə əbası Fatimənin

Ətri-cənnət dolar bu dünyaya
Sərilәndə libası Fatimənin

Ərşidən başlara təla tökülər
Silkələnsə rədası Fatimənin

İbtidası şüruyi-xilqətdi
Yox vəli intəhası Fatimənin

Ta ki, meracdan qayıtdı Nəbi
Xatəmül-ənbiyası Fatimənin

Can kimi basdı bağrına qızını
Pedəri-basəfası Fatimənin

Qəddin əydi rüku edənlərtək
Əlin öpdü, babası Fatimənin

Üzə gözdən sereşki tökdü Bətul
Qəmli oldu nəması Fatimənin

Həzrətə bir nəfər ev əhlindən
Dedi ay rəhnüması Fatimənin

Tez darıxdın qızın Bətulə görə
Nədən ay dilrübası Fatimənin

Dedi qalsın darıxmağın bəhsi
Ayrıdır macərası Fatimənin

Bilmir söz ki, vardı göylərdə
Nə qədər aşinası Fatimənin

Fəxr edərdi Bətuli-əzrayə
Rəhbəri, pişvası Fatimənin

Ta yetişdim göyə hamı dedilər
Ərşə gəldi atası Fatimənin

Kim xəbər aldı bu qonaq kimdi
Dedilər Mustafası Fatimənin

Hamı Zəhra ilən tanırdı məni
Mənə gəlsin qadası Fatimənin

Qabi-qövseyndə yazılmışdı
Nami-ziba ədası Fatimənin

Deyirdilər yer-göyü bu nəzmilən
Saxlayıbdır duası Fatimənin

Şer mədhin oxurdu Cəbrail
Madihi-xoşnəvası Fatimənin

Cəbrəilim deyəndə ya Zəhra
Eşq edirdi Xudası Fatimənin

Dolmuş idi səmayə sərtasər
Əhsəni, mərhəbası Fatimənin

Heyf ola bir belə cəlal ilə
Yandı babi-rəcası Fatimənin

Tahadan sonra dolandı zindanə
Aləmi-qəmfəzası Fatimənin

Bilmədi var, niyə mədinəlilər
Rütbeyi-kibriyası Fatimənin

Təng bir kuçədə kəbud oldu
Surəti-kəhrəbası Fatimənin

Kaş əqəllən yanında olmayaydı
Həsəni-məhləqası Fatimənin

Anaya sili dəydi həsrət ilən
Qaldı baxdı balası Fatimənin

Fəqət Allah bilir ki, qaldı o gün
Nə halə Müctəbası Fatimənin

Yox sözüm əlqərəz olan oldu
Bərhəm oldu əsası Fatimənin

Şəm tək yandı cismi, artıldı
Günbəgün ibtilası Fatimənin

Qəddi rəngin kəman kimi qəmdən
Oldu qəddi-rəsası Fatimənin

Nə var idi qəzayə meyli, nə də
Yeməyə iştihası Fatimənin

Qüssə olmuşdu birdən xuncigər
Abü-nanü-qəzası Fatimənin

Bir gün otduq yeri evində qərəz
Xətmə çatdı sənası Fatimənin

Olmadı səcdədən duran vəxtə
Day qiyamə qüvası Fatimənin

Ucalandı yanıqlı həncərədən
Bangi ya Rəbbənası Fatimənin

Dedi ya Rəbb cəlali dərgəhinə
Vardı həmdü-sipası Fatimənin

Min yol ölsəm də giley eyləmərəm
Vardı Səndən rızası Fatimənin

Bu imiş alnın olan yazısı
Saysız olsun bəlası Fatimənin

Nə qədər başıma tökülsə bəla
Ola haşa çerası Fatimənin

Sənə xatir sınıbdı qol-qanadım
Ucalıbdır nəvası Fatimənin

Bir yol etməz gilayə eşqində
Sınsa min yol bəhası Fatimənin

Bu məhal əmridir hüzurunda
Ola bir iddiası Fatimənin

Qapının şöləsindən olmadı heç
Bu dəlilə ibası Fatimənin

İstədim ta sənə bu nəhvilə
Sabit olsun vəfası Fatimənin

Od içində yanıb kül olmaqda
Heç yox idi hərası Fatimənin

Möhsinim oldu kuyi-eşqində
Əvvəlin canfədası Fatimənin

Fidyəmin azdı ərzişi bilirəm
Bu deyil irtizası Fatimənin

Sənə təqdim edə fədalarını
Vardı ayrı minası Fatimənin

Cəlb edə qəlbinin rizayətini
Hələ var Kərbəlası Fatimənin

Salacaq təntənə səmavatə
Qisseyi-Neynəvası Fatimənin

Açacaq orda qanlı bir nehzət
Pesəri-sərşünası Fatimənin

Balamın topraqa axan qanı
Olar orda hənası Fatimənin

Qapına olmuşam pənahəndə
Səndədi tək dəvası Fatimənin

Nə bacım var, nə qardaşım ya Rəbb
Nə də vardı anası Fatimənin

Dərgəhindən sonra Xudavənda
Vardı aya harası Fatimənin

Hələ heç qırxı çıxmayıb atamın
Başda vardı qarası Fatimənin

Ruhunu nazənin balalrımın
İncidir oxşaması Fatimənin

Gətirib təngə bəzi qonşuları
Naleyi-cangüzası Fatimənin

Dərdimi dildə sən fəqət bilirsən
Bilmir əqrəbası Fatimənin

Bilmir bağrıqan əmoğlumda
Sinədə var yarası Fatimənin

Deməyə dərdini əmoğlusuna
Mane oldu həyası Fatimənin

Bədənim bir sümükdür, bir də dəri
Əriyib möhtəvası Fatimənin

Eyləyir peykərimdə ağırlıq
Vəslənənmiş qəbası Fatimənin

Əriyən cismimə baxan vəxtə
Şərm edir Mürtəzası Fatimənin

Sən rıza olma çox idamə tapa
Bundan artıq bəqası Fatimənin

Həyatdan mən yorulmuşam Allah
Bəsdi day inzivası Fatimənin

Sənə heç olmamışdı indiyədək
Bir belə ilticası Fatimənin

Bar İlaha! sözümü salma yerə
Sənə var iltiması Fatimənin

Al qalan ömrümü qutar canımı
Qoy qurulsun əzası Fatimənin

## Salam olsun sənə ey Fatmə (s.ə)

Fatimə yəni şərəf ayinəsi
Yəni Əlinin dili-bikinəsi
Gənci-həyadır yaralı sinəsi
Heç göyün olmaz belə gəncinəsi
Göy hara, Siddiqeyi-Kübra hara
Hansı göyün var sinəsində yara

Kullü səma mənzilinin küncüdü
Dinə dayaq sinəsinin rəncidi
Qəlbi məqu sirrilərin gəncidi
Xilqətin ülquyi-Xuda səncidi
Düşmənlik kim etsə o, zicah ilən
Cəngə müsəlləm çıxıb Allah ilən

Mədəni-ehsan və əta Fatimə
Qəmdən edər ruhu rəha Fatimə
Qorxma verir dərdə dəva Fatimə
Kim desə gər sidqilə ya Fatimə
Kimdi dəva dərdə, denən Fatimə
Vazehü-bipərdə denən Fatimə

Fatimə yəni şəcəri-təyyibə
Müsmir olubdur əsəri məktəbə
Verdi şəhamət rəməqin Zeynəbə
Zeynəbi oldu xanıma naibə
Xar elədi peyrovi-şeytanları
Aldı o nahəqq tökülən qanları

Fatimə gülvajeyi-zibayi-eşq
Cöhəreyi-məsti-səhbayi-eşq
Münciyi-müstəğrəqi-dəryayi-eşq
Mənşəyi-peydayişi-mənayi-eşq
Eşq özü aşiqdi nəbi mənsəbə
Həm özünə, həm balası Zeynəbə

Eşq yəmi-Fatiməsiz birkədi
Bir balaca birkeyi-barikədi
Birkeyi-barikeyi-mətrukədi
Birkə də yox səhv elədim ləkkədi
Bədi-Xudavənd, qüud-qiyam
Eşq fəqət Fatimədi vəssəlam

Fatimə məhbubeyi-dərgahdır
Bir gözü gün, bir gözü də mahdır
Rütbədə həmvəzni Yədullahdır
Fatimənin aşiqi Allahdır
Həzrəti Həqdir xanımın həmdəmi
Tək ona xatir yaradıb aləmi

Xəlq eləyən vəxtə Xuda aləmi
Yerlə göyü Adəm ilə Xatəmi
Şəklə salan vəxtə gili-Adəmi

Adəmə ehda eləyəndə dəmi
Həzrəti Xaliq dedi ya Fatimə
Kullü xəlayiq dedi ya Fatimə

And ola Allah bəyənən adına
Kim yaza adın dili-naşadına
Dərdə düşən vəxtə çatar dadına
And ola Süğrasına, Səccadına
Rişeyi-əmrazı qazar Fatimə
Nüsxeyi-məccanı yazar Fatimə

Kullü giriftari-həzizə denən
Bu sözü dil dağlı mərizə denən
Əşgilə yaz üzdə ərizə denən
Kim tələsir tez çata feyzə denən
Səslənə mövla kimi ya Fatimə
Həzrəti Taha kimi ya Fatimə

And ola ol sineyi-məcruhuna
Sinədəki qüssə və ənduhuna
And ola oğlu Həsənin ruhuna
Oğlu Hüseynin səri-məzbuhuna
Dərdə nə tənha adı dərman verər
Məsləhət olsa ölüyə can verər

Dərgəhi əhli-ədəbə qiblədi
Ömrü güdə, dərdi şəbi-çillədi
Fatimə hübbü bir qüllədi
Ərşə üruc eyləməyə pillədi
Eşqinə kim qəlbini amac edər
Göylərə Taha kimi merac edər

Həşrin odur şafeyi-mütləqi
Atəşə hail olacaq beyrəqi
Yanmıyacaq Fatimənin aşiqi
Mən kimi hətta səgi-nalayiqi
Mehman edib kim onu göz yaşına
Cəm olacaq Fatimənin başına

Saxla bu göz yaşlarının ərzişin
Əşk ürəyin söndürəcək suzişin
İstəsə aşiqlərin amurzeşin
Allah onun rədd eləməz xahişin
Hansı qüruhun bu məzayası var
Şiələrin həzrəti Zəhrası var

Hansı diyarın belə sültanı var
Hansı beheştin belə reyhanı var
Mehrü-kərəmdən dolu damanı var
Hər nə çətin dərd ola dərmanı var
Hansı qüruhun bu məzəyası var
Şiələrin həzrəti Zəhrası var

Qızlar öpər rəsmidi baba əlin
Öpdü Bətulun vəli Taha əlin
Həzrət alardı ələ Zəhra əlin
Üstə gətirməzdi o ziba əlin
İzzətə bax dəsti-mələk mənsəbi
Qəddin əyib busə edərdi Nəbi

Görcəyin ərbab ədəb hörmətin
Rükni-vücudun əyilən qamətin
Həddidən artıq kərəmin, rəfətin
Tər bürüyərdi xanımın surətin

Fori salardı aşağa başını
Cari edərdi üzə göz yaşını

Vermə deyərdi mənə xiclət baba
Var nə qədər səndə ütufət baba
Eyləyəsən çox mənə nisbət baba
Çünki anam yoxdu məhəbbət baba?
Mehrinə haşa ana mehri çata
Fatimiyə həm anasan, həm ata

Can ola qurban ləbi xəndanına
Çöhreyi-şadab və dirəxşanına
Lütfün olub bəski bu reyhanına
İndiyədək and ola öz canına
Nə gözüm ağladı nə də silmədim
Heç anasızlıq qəmini bilmədim

Verdi cavab olma pərişan qızım
Gözlərinin yaşına qurban qızım
Busə əlindən edəm hər an qızım
Vardı Xudadan mənə fərman qızım
Mücriyi-dəsturi-Həqqi davərəm
Əllərini öpməyə fəxr eylərəm

Çərxi-kəcin kaş dönəydi fələk
Var yeri gözyaşlı fəğan eyləyək
Qəmli ürək möhnətə yansın gərək
Var yeri yansın külə dönsün ürək
Sineyi-Tahayə yara vurdular
Heyf o əli vurdula sındırdılar

Bir kişi ki, cəngidə yeksər işi
Olmadı aramişü-asayeşi
Dinə rəməq verdi onun kuşeşi
Lərzə salardı fələkə qorreşi
Əhlü-əyalından utandırdılar
Fatiməsin qana boyandırdılar

Bir qapı ki, məsdəri-merac idi
Bir qapı ki, cənnətə minhac idi
Gerdi-məlaik başına tac idi
Ərşi-ilahi ona möhtac idi
Hörmətin əfsus talandırdılar
Atəşi-Nəmrud ilə yandırdılar

Açdı qəza görməli bir mənzərə
Oxşadı Heydər qapısı məhşərə
Yandı dili ərzü-səma Heydərə
Çatdı xəbər Ədnidə Peyğəmbərə
Ay əli əlsizlər əli hardasan
Təkdi adamsızdı Əli hardasan

Poşti-dəri etdi məkan Fatimə
Ruhi-Peyəmbər dedi can Fatimə
Olma özündən nigəran Fatimə
Təkdi Əli qorxma dayan Fatimə
Qanə boyansan da qızım eybi yox
Şölədə yansanda qızım eybi yox

Düşməni-dirineyi-məktəb gəlib
Eyləyə mövlanı müəzzəb gəlib
Nixvətilə qəlbi ləbaləb gəlib
Cəngə elə fərz elə Mərhəb gəlib

Dur qapıda şiri-dilavər kimi
Düşməni sındır xudi-Heydər kimi

Tab elə gər sınsa da pəhluların
Qoy ana vay səsləsin ahuların
Şölədə gər yansa pərəstuların
Qəmçiyə tuş olsa da bazuların
Dilbərimin təkliyini xoşlama
Bikəs Əlinin ətəyin boşlama

Düşdü qəmü-dərdə bəlalı başın
Çeşmə kimi axdı üzə göz yaşın
Qəm yemə yoxdu əgər qardaşın
Fəxr elə sən oldu Əli yoldaşın
Can elə qurban elə bir yoldaşa
Başda dəyər bir tükü min qardaşa

Qəlbi-pərişanına qurban bala
Sən nə çəkirsən bilirəm can bala
Ta qala payəndə bu Quran bala
Odlara pərvanə kimi yan bala
Fikrinə qəm çəkmə qalan var qızım
Qanını düşməndən alan var qızım

Yandı qapı oldu xülasə olan
Açdı qanad göylərə yerdən duman
Geydi qara köynəyini kəhkəşan
Qara ləçək saldı başa asiman
Bir uşağın gəldi səsi nagəhan
Səslədi ey vay anam öldü cəvan

Zeynəbinə eylə nəzər ay ana
Ver bu əzalı qızına hay ana
Qan bürüyüb sinəni ey vay ana
Çatdı bəlalar qızına pay ana
Nalə edir nuri-du-eynim ana
Dur özün öldürdü Hüseynim ana

Zeynəbinə baxdı həya mədəni
Döz dedi ay gülşənimin susəni
Mətləbə agah edirəm mən səni
Gər vurub öldürsə də düşmən məni
Qəlbizi tiri-qəm ilən yarmayın
Düşməni-namərdimə yalvarmayın

Eylə təhəmmül mühənə Zeynəbim
Yanma bu əndazə mənə Zeynəbim
And ola cani-Həsənə Zeynəbim
Var bu günün misli sənə Zeynəbim
Sil gözünün yaşını əyləş qızım
Şölədə pər vurmaqı öyrəş qızım

Qəmli qızım xəstə qızım, naz qızım
Möhnəti çox, sinni vəli az qızım
Lövhi-dilə bu sözümü yaz qızım
Dəhridə day xoş günün olmaz qızım
Dərdü-məlalın sana gəlməz qızım
Sən kimi heç kim cana gəlməz qızım

## Həzrət Zəhranı (s.ə) dəfn edən zaman Əlinin (ə) qüssəli halı

Zəhranı qoydu qəbr evinə bağrıqan Əli
Göz yaşını cəmalına etdi rəvan Əli

Tutdu üzün cənazəni həml eyləyənlərə
Məmnundur hamızdan adamsız qalan Əli

Allah dedim mənim günümə qoymasın sizi
Eylər dua yəqin hamızı bağrıqan Əli

Tutduz çətin zamanda əlindən bu bikəsin
Cübran edər bu zəhmətizi bigüman Əli

Var evlərizdə müntəziriz qalmayın, gedin
Qəbr üstə qəsdi var qala bixaniman Əli

Şərm etdim evdə çox ucadan ağlayanmadım
İstəyir edə bu yerdə ürəkdən fəğan Əli

Getdi qərəz o yeddi nəfər həmrəhi-siddiq
Qaldı Bəqi çölündə fəqət mehriban Əli

Baxdı məzari-Fatimiyə əsdi dizləri
Əyləşdi lacərəm yerə ol qəhrəman Əli

Sındı belim mənim, dedi sınsın belin fələk
Çatdın daxi məramə qocaldı cavan Əli

Səsləndi Fatimə mənə səs ver adamsızam
Yalqız qalıbdır əlsiz əlindən tutan Əli

Sənsiz necə gedim evimə gəlmir üzüm
Getdin sən, oldu dəhridə biaşiyan Əli

Zeynəb desə anam hanı? ölləm dözənmərəm
Hərçənd ölsə rahat olar xəstə can Əli

Zəhra iraq gözündən ayağa duranmıram
Aç gözlərin olub necə gör natəvan Əli

Bu nisgil öldürər məni çox tab edənmərəm
İndi də şərm edir sənə qılsın bəyan Əli

Qonfoz sitəmlə vurdu səni astanədə
Qaldı vəli baxa-baxa Xeybər yıxan Əli

Çox ağlayıb yoruldu yuxu tutdu gözlərin
Yumdu gözün o çox gecələr yatmayan Əli

Röyadə gördü Fatimə qoynunda əlləri
Səslir fəda olum sənə yatma oyan Əli

Dur get evə balalrım öldürdü özlərin
Qoyma yetim balalarımı nagəran Əli

Məcbur olubdu tərk eləsin yar qəbrini
Zəhrasız aşiyaniyə olsun rəvan Əli

Gəldi evə açıbdı qərəz babi-əqdəsi
Daxil olanda gördü gəlir Zeyəbin səsi

Səslir cavan ölən ana, gün görməyən ana
Tabutu qəbrə izzətilə getməyən ana

Matəmsəra edib evi hicranın ay ana
Dağlar ürəkləri qəmi suzanın ay ana

Yoxdur açıb yanan qapını yasına gələn
Yas saxlayıb sənə bu yətimanın ay ana

Olsun qəsəm Hüseyninə ölləm dözənmərəm
Birönəq olsa şami-qəribanın ay ana

Tez-tez Həsən baxır qapıya qəlbim odlanır
Şayəd deyir gələ bizə mehmanın ay ana

Heç gəlməsin mədinənilər ölməyib qızın
Ollam özüm əzalı nəvaxanın ay ana

Qardaşlarımla baş-başa verrəm mən ağlaram
Ta gərm ola bu bəzmi-pərişanın ay ana

Yoxsan bura gəlib görəsən neylir qızın
Odlayır cahanı Zeynəbi-nalanın ay ana

Yansın ürəkləri qapını yandıranların
Qalmış hələ yanan qapıda qanın ay ana

Çox möhnətin Hüseyninə xatir deyənmirəm
Vardır və gərnə dərdi-fəravanın ay ana

Daim gecə zamanı gələrdi həzin səsin
Odlardı aləmi qəmi-pünhanın ay ana

Dincəldi qoşunlar hamısı rahət oldular
İncitməz heç birin daxi əfğanın ay ana

## Zeynəbi-Kübranın (s.ə) həzrət Zəhra (s.ə) şəhadətində naləsi

Bəla giriftarı anam lay-lay
Mədinə biyarı anam lay-lay
Məzarə tabutu qəribanə
Gedən gecə yarı anam lay-lay
Ey ruhu-rəvanım
Qurban sənə canım

Solan rüxi-zərdi anam lay-lay
Görən əza gerdi anam lay-lay
Nəhan gedən gizlin olan qəbrə
Ürəkdə çox dərdi anam lay-lay
Ey ruhu-rəvanım
Qurban sənə canım

Bəla şəkibası anam lay-lay
Ürək təsəllası anam lay-lay
Mədinədə cahü-cəlal ilə
Qurulmuyan yası anam lay-lay
Ey ruhu-rəvanım
Qurban sənə canım

Mədinə tavusu anam lay-lay
Hüseyn nəvaqusu anam lay-lay
Sağalmayan qəbrə gedincə
Şikəstə pəhlusu anam lay-lay
Ey ruhu-rəvanım
Qurban sənə canım

Bəla çəkən başı anam lay-lay
Ənisi göz yaşı anam lay-lay
Baş açmayan ayrı bacılartək
Yasında qardaşı anam lay-lay
Ey ruhu-rəvanım
Qurban sənə canım

## Mövla Əlinin (ə) həzrət Zəhraya (s.ə) xitabı

Ay Əlinin bəndi-dili, aç gözünü, bir az danış Zəhra
Bikəs əmoğlunla, qəlbin əgər, küsüb barış Zəhra
Ey mənim arxam elim – şaxə şikəstə gülüm
Yaralısan Zəhra – vəfalısan Zəhra

Fəsli-xəzan güllərıtək, mən görürəm, solub üzün Zəhra
Yaralanmış sinədə, dərk edərəm, qalıb sözün Zəhra
Qəmində ağlayaram – sinəmi dağlayaram
Yaralısan Zəhra – vəfalısan Zəhra

Qəlbdəki gizlin sözünə, qan gözünə, balalarım qurban
Qəm tiri dəyən ürəyə, dildə olan, yaralarım qurban
Gözlərin aç gözəlim – sınıb qəmində belim
Yaralısan Zəhra – vəfalısan Zəhra

Aç mehriban gözünü, Zeynəbi-dilqəmini bir dindir
Dildən saldı özünü, göz yaşı qan, Hüseyni bir dindir
Qəmində yandı balam – yanıb talandı balam
Yaralısan Zəhra – vəfalısan Zəhra

Hər söz başı görürəm, dildə deyir Həsən anam lay-lay
Sili dəyib üzünə, dil-dodağı əsən anam lay-lay
Nədir bu sili sözü – cəmalı nili sözü
Yaralısan Zəhra – vəfalısan Zəhra

Gizlin qalan qəmini, bilsəm əgər, cahanı yandırram
Ürəyimdən ucalan, ahim ilə, səmanı yandırram
Sınırdı çərxi fələk – yanıb kül oldu ürək
Yaralısan Zəhra – vəfalısan Zəhra

## Həzrət Zeynəb (s.ə) ana ayrılığında

Dünyada xoş gün görməyən
Lay-lay anam lay-lay, lay-lay anam lay-lay
Qəbrə gecə gizlin gedən
Lay-lay anam lay-lay, lay-lay anam lay-lay

Yarə görən pəhlulara, nalan qızın qurban
nalan qızın qurban
Qəmçi dəyən bazulara, nalan qızın qurban
nalan qızın qurban
Qəmdən ağarmış mulara, nalan qızın qurban
nalan qızın qurban
Dərdin atamdan gizlədən, lay-lay anam lay-lay
lay-lay anam lay-lay

Qəmdən büküldü qamətin, qəbrə cavan getdin
qəbrə cavan getdin
Soldu, saraldı surətin, qəbrə cavan getdin
qəbrə cavan getdin
Qəlbində qaldı həsrətin, qəbrə cavan getdin
qəbrə cavangetdin
Heç olmadı dərdin bilən lay-lay anam lay-lay
lay-lay anam lay-lay

Dil dağlı bülbüllər kimi gülşəndən ayrıldın,
gülşəndən ayrıldın
Rəngi solan güllər kimi gülşəndən ayrıldın
gülşəndən ayrıldın
Yorğun qərqavullar kimi gülşəndən ayrıldın
gülşəndən ayrıldın
Dincəldi canın qüssədən lay-lay anam
lay-lay anam lay-lay

Ahuları qaldı mələr dağ fərağında
dağ fərağında
Gülsümün oldu dərbədər dağ fərağında
dağ fərağında
Oldu Hüseynin xuncigər dağ fəraqında
dağ fəraqında
Hər söz başı səslər Həsən lay-lay anam
lay-lay anam lay-lay

Qəlbi yaralı Zeynəbin ağlar gecə-gündüz
ağlar gecə-gündüz
Qəmli əzalı Zeynəbin ağlar gecə-gündüz
ağlar gecə-gündüz
Başı bəlalı Zeynəbin ağlar gecə-gündüz

ağlar gecə-gündüz
Göz yaşını olmaz silən lay-lay anam
lay-lay anam lay-lay

Mehman babam Peyğəmbərə dildə yara getdin
dildə yara getdin
Sən pişqahi davərə dildə yara getdin
dildə yara getdin
Qaldı qisasın məhşərə dildə yara getdin
dildə yara getdin
Orda olar dərdin ələn lay-lay anam
lay-lay anam lay-lay

## İmam Həsən Müctəbanın (ə) mədhi və həzrət Zəhra (s.ə) qəminə işarə

Ey xanım Fatimənin canı Həsən
Vey Əlinin rəginin qanı Həsən

Ey cavanani-beheştin ağası
Mərdumi-pak-sereştin ağası

Ənbiyanın gözünün nuru Həsən
Yəsribin hadiyi-rəncuri Həsən

Zül-cəlali Əhədin miratı
Asimani-şərəfin mişkatı

Ey olan günbəzi-taqi-mələkut
Qəbrinin dövrü rivaqi-mələkut

Ey olan mədfəni məhbət mələkə
Mərqədi sayə salan nöh fələkə

Sən kimi saibi-sahib kərəmə
Fəxr edər olsa xədivan xədəmə

Ey xədəngi-mühən amacı Həsən
Ey mələklər başının tacı Həsən

Helmdə misli-Əli dəryasan
Elmdə eyni baban Tahasan

Qafi-hikmətdə olan unqasan
Sən o ünqayi-fələk peymasan

Rəmzi-tofiqi-yədi-beyzasan
Möcüzəbəxşi-dəmi-İsasan

Canişini-Əliyi-əlasan
Ta əbəd maxələqə mövlasan

Heyrətə dəhri salan səbri Həsən
Gün qabağında qalan qəbri Həsən

Düzdü qəbrin hələ topraq daşdı
Qəbrinin daşı təladan başdı

Çoxdu aşiqlərinin dildə dağı
Düzdü yoxdu oranın çil-çirağı

Açsa kim çeşmi-bəsirət baxsa
Çeşmi-qəlb ilə bediqqət baxsa

Xudi-xorşidə ora məyməndi
Mədfənin göylərə nurəfkəndi

Mərqədi-pak və məlihin vardı
Ərşi-əlada zərihin vardı

Kim deyir azdı ziyarət edənin
Bəzmi-yasında şərakət edənin

Mələkut əhli əzadarındı
Göyün ulduzları zəvvarındı

Azdı kim dey qara köynək geyənin
Yarəli qəlbilə nohə deyənin

Geyməyə qarəni əfvaci mələk
Binəhayət mələk yarə ürək

Gecə gündüz qara köynək toxuyur
Sən üçün mərsiyə Cibril oxuyur

Sən çirağı-hərəmi-Tahasan
Gülü-yasi-çəməni-Bəthasan

Mərifət vajəsinə mənasan
Mənsəbü-mərtəbədə valasan

Elmdə Heydərə sən həmtasan
Mürtəza sölətinə darasan

Caneşini-Əliyi-əlasan
Ta əbəd maxələqə mövlasan

Ey olan əhli təvəlla şərəfi
Mehr gəncinəsi, təqva sədəfi

Sən ədalət bağının meyvəsisən
Sən səadət gözünün şivəsisən

Vardı hər müstəhəqə mərhəmətin
Ovcidə seyr eləyir mənzilətin

Xudi-Peyğəmbərə bənzər sifətin
Həzrəti Heydərə bənzər sifətin

Fəxr edər Fatimə şəxsiyyətinə
Rəşk edər Həmzə sənin heybətinə

Qeyrəti-Mürtəzəvi səndən ağa
Çatdı irsiyyə Əbəlfəz ağama

Cürət, and olsun o qanlı ləbinə
Səndən irsiyyə çatıb Zeynəbinə

Boşla bir iddə ki, nadandı hələ
Yox gümanım belə nadan düzələ

Belə deylər ki, o dilbəndi-Bətul
Qorxusundan elədi sülhü qəbul

Rahi-batildədi əndişələri
Görüm Allah qurusun rişələri

Var yeri şurilə ey əhli-şüur
Heyətihayi-sələhşurü-qəyur

Moştunu burda girehləndirəsən
Onların indi cavabın verəsən

Mürtəza oğluna sən də mən ilə
Ümqi-dildən uca bir əhsən ilə

Vur o məlunlara sən tudəhəni
Denən ay tirə zəmirani-dəni

Vurma töhmət xələfi-bütşikənə
Qorxu ünvanı yaraşmaz Həsənə

Şiri-bibakü-dilavərdi Həsən
Ərsəgəhlərdə qəzənfərdi Həsən

Əsədullahə bərabərdi Həsən
Nə bərabər, xudi-Heydərdi Həsən

Sülhü ruh oldu bəqa nehzətinə
Verdi can Kərbübəla nehzətinə

Ruhi-aləm sənə məcnundu Həsən
Kərbəla də sənə mədyundu Həsən

Qəsəm olsun Ələvi qeyrətinə
And ola gövhəri-şəxsiyyətinə

And ola Qasimi-gülpirhənə
At ayağında dağılımış bədənə

Qanlı meydana zirehsiz gedənə
Xeyməyə nəşi əbadə gələnə

Qara məcərli pərişan gəlinə
Qan həna misli yaxılmış əlinə

Qəsəm olsun o dili-agahına
Qolu təndən düşən Abdullahına

Teşnə nəhr üstə yatan qardaşına
Zeynəbin gözdən atan qardaşına

Atanın əllərinin pinəsinə
Ananın qana batan sinəsinə

Sən ilahı əmələ məbnasan
Məniyi-ayeyi-kərrəmnasan

Pesəri-şirdili-Zəhrasan
Mürtəza misli yəli-heycasan

Şəhi-bisər kimi bipərvasan
Mətləi-nəyyiri-Aşurasan

Canişini-Əliyi-əlasan
Ta əbəd maxələqə mövlasan

Olub aşiqlərə izzət gəmisi
Əkbərin şanlı şərəfli əmisi

Qasimin şir, cəvanmərd atası
Qaraköynək gəlinin qaynatası

Mələktun o bəhalı şəvəsi
Müstəfanın o həyalı nəvəsi

Həzrəti Fatimənin göz giləsi
Allahın Heydərə əla siləsi

Yəni qeyrətli, şərafətli Həsən
Mürtəza misli kəramətli Həsən

O ki, qəm gördü pərişan küçədə
Qüssəli, səhmli tufan küçədə

Eşidib tək o fəqət sili səsin
Gördü kim vurdu əzalı anasın

Heç kimə gördüyü dərdi demədi
Qüssədən yandı közərdi demədi

Qonşular etdi təmənna demədi
Bacısı Zeynəbə hətta demədi

Ağlayıb, dağladı sinə demədi
Tək özü yandı Hüseynə demədi

Şəbi-tar oldu Bətulun günüzü
Xanımın heç yeri görmürdü gözü

Qərəz ətrafinə gəzdirdi əlin
Tapıb ağuşuna çəkdi gözəlin

Dedi ey Fatimənin canı Həsən
Evimin ətirli reyhanı Həsən

Əşkini tökmə üzə can Həsənim
Çırpınan qəlbinə qurban Həsənim

Kaş görüm xar ola bu yol kəsəni
Anan ölsün bala qorxutdu səni

Mənzilə et məni həmrahi bala
Var adamsızların Allahı bala

Başa sayə salanım vardı Həsən
Qəm yemə qan alanım vardı Həsən

Tut əlimdən mənə ruhəfzasan
Yarəli qəlbimə sən çarasan

Sən ziyabəxşi-şəbi-əsrasan
Mahi-iqlimi-zəvil-qurbasan

Canişini-Əliyi-əlasan
Ta əbəd maxələqə mövlasan

Sidq ilə ağlasa hər kim Həsənə
Verər Allah ona ali həsənə

Qoyma göz yaşsız ola təziyəsi
İldə bir gün oxunar mərsiyəsi

Öz evi olmadı eymən ağama
Oldu öz məhrəmi düşmən ağama

Teşnə mövla necə meyl eylədi su
Saralıb rəngi alovlandı gəlu

Bürüdü qan Həsənin ləblərini
Açdı Zəhra anası məcərini

Görüm ey su səni kaş qan olasan
Axasan çöllərə veylan olasan

Görüm aləmdə pərişan olasan
Qəmli Zeynəb kimi nalan olasan

Sən də ey su nə şərarət var imış
Əhli-Beyt ilə xüsumət var imış

Dərdə saldın nücəba canlarını
Odladın Fatimə oğlanlarını

Birisi içdi su yandı ürəyi
Biri teşnə yaralandı ürəyi

Birinin oldu sərin su şərəri
Doğranıb təştə töküldü cigəri

Kərbəlanın biri oldu qonağı
Parçalandı ətəşindən dodağı

Var yeri indi Həsən də aça baş
Tökə göz yaşı deyə can qardaş

Qanı getmişdi saralmışdı Hüseyn
Çox yaman bir hala qalmışdı Hüseyn

Nəhri-Əlqəmdə qocalmışdı Hüseyn
Oxları sinəyə almışdı Hüseyn

# İmam Həsənin (ə) həzrət Zeynəbə (s.ə) xitabı

Əsəri-zəhri-cəfadan ürəyim yandı bacı
Cigərim təşt elə amadə ki, doğrandı bacı
Çağır imdadə Hüseyn qardaşımı
Dizinin üstünə alsın başımı

Mənə bu zülmü bacı əhli-cəhim eylədilər
Totiyə qətlimə ümmali-ləim eylədilər
Ahugöz Qasimi Yəsribdə yetim eylədilər
Olun amadə daxi mövsümü hicrandı bacı
Çağır imdadə Hüseyn qardaşımı
Dizinin üstünə alsın başımı

Et mühəyya özünü başa qara bağlamağa
Oxşama başlagilən sinələri dağlamağa
Çağır əhbabı qərib qardaşına ağlamağa
Həsənin bir neçə saət sənə mehmandı bacı
Çağır imdadə Hüseyn qardaşımı
Dizinin üstünə alsın başımı

Ali-Peyğəmbərin ol düşməni-dirinələri
Atamın xəsmi-cəfapişə və porkinələri
Dağladı Fatimə dağında yanan sinələri
Ney kimi indi anam Fatimə nalandı bacı
Çağır imdadə Hüseyn qardaşımı
Dizinin üstünə alsın başımı

Cudə etdi öz evimdə məni məsmum ölürəm
Əsəri-zəhr olubdur daxi məlum ölürəm
Şahid ol ay anamın naibi məzlum ölürəm
Şanə misli ürəyim sinədə şan-şandı bacı
Çağır imdadə Hüseyn qardaşımı
Dizinin üstünə alsın başımı

Qəmi cankahi cahandan Həsənin dincələcək
Zülm ilə ölməyimi şahi-vilayət biləcək
Deməyə oxşama Zəhra anam indi gələcək
Anamın mən bilərəm halı pərişandı bacı
Çağır imdadə Hüseyn qardaşımı
Dizinin üstünə alsın başımı

Başımın üstünə əhbabi-pərişanı çağır
Hamını ta hələ var qardaşının canı çağır
Çox sözüm var deməyə şahi-şəhidanı çağır
Gərdi-rahi-qədəmi dərdimə dərmandı bacı
Çağır imdadə Hüseyn qardaşımı
Dizinin üstünə alsın başımı

Dərdimi ya ki, mənim mədəni-ehsasə denən
Cigərim yaralənibdir şərəfün-nasə denən
Nə bəla gəldi mənim başıma Abbasə denən
Ala şəmşirin ələ ləhzeyi-böhrandı bacı

Çağır imdadə Hüseyn qardaşımı
Dizinin üstünə alsın başımı

## İmam Həsən Müctəbanın (ə) bacısı Zeynəb (s.ə) ilə dərdləşməsi

Gəl eylə mühəyya özünü yasimə Zeynəb
Öldü Həsənin ver xəbər Abbasimə Zeynəb

Zəhrilə qəribi-vətənin sinəsi yandı
Allah sözünün məxzəni, gəncinəsi yandı
Simayi-həqqin sinədə ayinəsi yandı
Gəl gör nə bəla gəldi mənim başıma Zeynəb
Eylə xəbər ovladi-Bəni Haşimə Zeynəb

Ay qaraləçək başa dübarə qara bağla
Zəhra əvəzindən başımın üstə sən ağla
Gəl qoş Həsənə oxşama aləmləri dağla
Bir beyti bu olsun ki, qəribi-vətən öldü
Dincəldi Əlitək qəm əlindən Həsən öldü

Düşmənlərin nəqşəsi fərcamə yetişdi
Neyrəng ilə ali-Əməvi kamə yetişdi
Kamə olar, amma Həsən aramə yetişdi
Ruhum quşu aramişə ölsəm çata şayəd
Yorğun bədənim qəbridə rahət yata şayəd

Talan elədi zağü-zəğən Fatimə bağın
Heydər evinin zülm ilə söndürdü çırağın
Qasim edə mükldü təhəmmül ata dağın
Mərhəm qoyasız yarəli ehsasıma Zeynəb
Hicrimdə təsəlli verəsiz Qasimə Zeynəb

Qanı dodağımdan səni Zəhra hələ silmə
Ləb qanı cinana salacaq vəlvələ silmə
Şayəd bu qanı silməyə Zəhra gələ silmə
Qəmli anamın başımın üstə yeri boşdu
Gəlsə balasın üz-gözü qanlı görə xoşdu

Ay Fatimənin naibi çox möhnətə yanma
Ay başı bəlalı əli qoynunda dolanma
Ay moclu dərya hələ səbr eylə calanma
Yarə-yarə üstən sinənə çox vuracaqlar
Tabutuma səbr eylə bu gün ox vuracaqlar

Başında anamdan da sənin çox mühənin var
Məndən də çətin dərdü-bəlayə düşənin var
Səbr eylə qabaqda bacı möhnətli günün var
Şivənlərini dildə əzizim hələ saxla
Dil dağlı Hüseynim yıxılan məqtələ saxla

## Həzrət Süğranın (s.ə) qüssəli əhvalı

Süğranı salıbsan nəzərindən nədən Əkbər
Cismim gecə-gündüz əriyir qüssədən Əkbər

Lütfün bu qaragün bacına çox kəm olubdu
Munis mənə səndən sonra qardaş qəm olubdu
Qəmlər bu yanıqlı ürəyə həmdəm olubdu
Dildarını dildən salar axər mühən Əkbər

Sənsiz mənə bu zindəginin var nə səfası
Hicrin məni bimar edib ey didə ziyası
Bimari-fəraqın nə təbibi nə davası
Təhlilə fəraqında gedib canü-tən Əkbər

Tək qoydu məni getdi hamı qovmü-qəbiləm
Qadir deyiləm durmağa bimarü-əliləm
Salma məni gözdən atamın oğlu dəxiləm
Zindandı kəənnəh mənə şəhrü-vətən Əkbər

Bazari-qəmin taciri-suzan dəmiyəm mən
Hərçənd özüm dərdü-bəlalar yəmiyəm mən
Gerdabü-müsibətdə şikəstə gəmiyəm mən
Yox sahilə bu qərqi-bəlanı çəkən Əkbər

Ahı bacının eylər əsər dağ-daşa qardaş
Bacı deyər öz dərdi-dilin qardaşa qardaş
Çək dəsti-məhəbbət bu bəlalı başa qardaş
Sizdən sora balininə yoxdu gələn Əkbər

Pabənd və kəmərbəsteyi-əhdi əzələm mən
Alami qəsidə, vəli ömrü qəzələm mən
Çoxdandı Əli çeşm berahi əcələm mən
Bari bacına lütf elə göndər kəfən Əkbər

Qəlbimdə o qədri yara vardı sana gəlməz
Saysız yaranın heç birisi dərmana gəlməz
Heç kimsə mənimtək atam oğlu cana gəlməz
Rahət olacaq ölsə bu yorğun bədən Əkbər

Dövrəmdə nə yoldaş, nə də ki xişü-kəsim var
Səntək ürəyim xoşdu fəqət dadrəsim var
Gəl bir dolanım başına ta ki, nəfəsim var
Gözlər yolun istəkli sinən hər ölən Əkbər

# Qitə

Əkbər canı xəyalını mən başdan atmaram
Sənsiz bu evdə bir gecə rahat yatmaram
Sən də məni gözdən atsan əgər eybi yox
Mən ki, səni ölüncə yadımdan çıxartmaram

# Həzrət Süğra (s.ə) qardaşı Əli Əkbərin (ə) yolunu gözləyir

Qəmi-fəraqə dözərəm Əkbər
Vətəndə ağlar gəzərəm Əkbər
Mədinədə gündə əsa əldə
Otağını gül bəzərəm Əkbər
Ey ruhu-rəvanım
Qurban sənə canım

Mərizü-qəmkeş bacınam qardaş
Əsiri-balış bacınam qardaş
Babam Hüseynə elə Süğranı
Özün sifariş bacınam qardaş
Ey ruhu-rəvanım
Qurban sənə canım

Səfa əsasın pozaram qardaş
Yanıqlı dildən qazaram qardaş
Sereşkimlə gecələr üzdə
Sənə ərizə yazaram qardaş
Ey ruhu-rəvanım
Qurban sənə canım

Qara ələmtək əsərəm qardaş
Yolunda qurban kəsərəm qardaş
Gözündən atsan məni bir ləhzə
Ölüncə səndən küsərəm qardaş
Ey ruhu-rəvanım
Qurban sənə canım

Gələndə sən pər açaram qardaş
Sevincəyimdən uçaram qardaş
Qabağına yolda yıxılsam da
Əsa əlimdə qaçaram qardaş
Ey ruhu-rəvanım
Qurban sənə canım

Nə olar buludlar yağalar qardaş
Kənizin atmaz ağalar qardaş
Mərizliyim həm də ürək dərdim
Səni görəndə sağalar qardaş
Ey ruhu-rəvanım
Qurban sənə canım

Qapıları bağlayaram qardaş
Boş evdə dil dağlayaram qardaş
Baxanda bağlanmış otaqlara
Nəva edib ağlayaram qardaş
Ey ruhu-rəvanım
Qurban sənə canım

# İmam Hüseynin (ə) Kərbəlaya daxil olması

Ta Xudavəndi-ğəfura dedi ləbbəyk Hüseyn
Rubəru sahəti-nura dedi ləbbəyk Hüseyn
Gəldi yer-göy hamı şura dedi ləbbəyk Hüseyn
Dil açıb göydə mələklər dedi ləbbəyk Hüseyn
Ümqi-dəryadə səməklər dedi ləbbəyk Hüseyn

Kərbəla topraqına ta ağa qoydu qədəmin
Qoydu icrayə vəfa teşnəsi əhdi-qədəmin
Vurdu ta bürcü səadətdə şərafət ələmin
Rütbəsi əfzəl Əbəlfəz dedi ləbbəyk Hüseyn
Hamıdan əvvəl Əbəlfəz dedi ləbbəyk Hüseyn

Kəfən əynində cavanlar dedi ləbbəyk Hüseyn
Şərəyanlardakı qanlar dedi ləbbəyk Hüseyn
Əz kəran ta be kəran dedi ləbbəyk Hüseyn
Can sözün başdan atanlar dedi ləbbəyk Hüseyn
Həqq deyib həqqə çatanlar dedi ləbbəyk Hüseyn

Kərbəla titrədi gəhvari-ləbənxar kimi
Həyəcan eylədi yarə yetişən yar kimi
Dilə gəldi o çölün daşları candar kimi
Ağlaya-ağlaya daşlar dedi ləbbəyk Hüseyn
Qəmli gözlərdəki yaşlar dedi ləbbəyk Hüseyn

Həzrətə əhli-səma yeksərə təbrik dedi
Allahın vijə salamın o şəhə peyk dedi
Cəbəril öpdü əlindən ləkə ləbbəyk dedi
Qüdsiyan eşqini görcək dedi ləbbəyk Hüseyn
Kəbə geydi qara köynək dedi ləbbəyk Hüseyn

Xeyri-məqdəm deməyə gəldi rusul ərvahı
Qəbri-şişquşə yerin Nuh elədi tərrahı
Oldu Davudi-xoşəlhan ağamın məddahı
Dolanıb başına Yəhya dedi ləbbəyk Hüseyn
Sinə çak eylədi İsa dedi ləbbəyk Hüseyn

Səcdeyi-şükr elədi Həqqə o yorğun şakir
Darıxdım dedi Allah bu məkandan xatir
Keçdi qəlbindən onun cümleyi-həl min nasir
Çəkdi şəmşir Əli Əkbər dedi ləbbəyk Hüseyn
Səs qoşub Əkbərə Əsğər dedi ləbbəyk Hüseyn

Dəvələr dövrəl追di Fatimə pərvərdəsini
Gördü Alullah, Hüseynin rüxü-pəjmurdəsini
Məhmilin açdı Əlinin qızı tez pərdəsini
Bildi kamil nədi mətləb dedi ləbbəyk Hüseyn
Şiri ğərran kimi Zeynəb dedi ləbbəyk Hüseyn

Etdi Abbasə işarə şühədanın ağası
Nəzərində dedi olsun yolun alçaq-ucası
Çox uzaq olmaya təllilə xiyamın arası
O sipəhdari-xücəstə dedi ləbbəyk Hüseyn
Əlini qoydu göz üstə dedi ləbbəyk Hüseyn

Endir ahistə Rüqəyyə balamın əmməsini
Qurmamış al nəzərə xeymələrin huməsini
Çox mücəlləl elə bərpa bacımın xeyməsini
Bari digər o dilavər dedi ləbbəyk Hüseyn
Açdı ünqa kimi şəhpər dedi ləbbəyk Hüseyn

Əli qoynunda bir az baxdı ağa sağ-soluna
Axdı göz yaşı baxan vəxtə Fəratın yoluna
Gəh Fərata sarı baxdı, gəh Əbəlfəz qoluna
Çıxdı əfğanilə təll üstə çağırdı bacısın
Rəmzü-ima ilə ahəstə çağırdı bacısın

Bu biyaban dedi bəhri-mühənü-qəmdi bacı
O ağaclıq ki, görürsən ora Əlqəmdi bacı
O gilaludə sərin su xudi-Zəmzəmdi bacı
O xəliləm ki, gözüm yaşı gülabımdı mənim
Oranın Hacəri qəmdidə Rübabımdı mənim

O ağaclıq ki, dedim bir adı nəxlistandı
Oranın qissəsi bir qüsseyi-bipayandı
Xeymədən nəhri Fərata kəsə yol ordandı
Nəhrə ordan dili-tufanda o gün yol düşəcək
O ağaclıqda bacı bir cüt uzun qol düşəcək

O hamar yer ki görürsən ora meydandı bacı
Neçə gündən sora fərşi orananın qandı bacı
Görəcəksən ki, o meydanda nə tufandı bacı
Orda Əkbər balamın topraqa qanı axacaq
Əl-əyaq çalmağına qəmli Hüseynin baxacaq

Saxla zehnində bu tufanlı çölün nəqşəsini
Səbt elə xatirə meydanın o yan guşəsini
Sındırar orda cəfa daşı ürək sinəsini
Orda düşmən mənə dil yarasını çox vuracaq
Hərmələ əllərim üstə balama ox vuracaq

Bir sözüm vardı Rübaba onu bildirmə hələ
Dalda yer ki, görürsən qoymaram əcrin kəmələ
Oxlanandan sora oğlum, bələyin allam ələ
Nuki-şəmşirilə daş-topraqa növhə yazaram
Südəmər Əsğərimin orda məzarın qazaram

Xeyməgahın aşağa səmti nəva qibləsidi
Ləşkəri dərdü-bəlanın hədəfi həmləsidi
Atasız qüssəli Qasim balamın hicləsidi
Fatiməm orda bəlakeşlərimi haylayacaq
Qasimin nəşinin üstündə həna paylayacaq

İndidən heç demirəm qəmçi göyərdən qola bax
Pozulan gülşənimə ya ki, şikəstə xola bax
Xeymənin dal tərəfində o tikanlıq yola bax
Orda qəm mənzərəsi nazlı Rüqəyyəm açacaq
Çöllərə xeymə yanan vəxtidə ordan qaçacaq

Buranın qəmlərinin şərhi müfəssəldi bacı
O çuxur yer ki, görürsən ora məqtəldi bacı
Baxma toz-torpağına çoxda mücəlləldi bacı
Yorulan can o çuxur yerdə düşüb dincələcək
Əli qoynunda həman məqtələ Zəhra gələcək

Qanıma başdan ayağa bürünən yer oradı
Ürəyim bəndi kürəkdən görünən yer oradı
Üzü üstündə Hüseynin sürünən yer oradı
Ora Zəhranın evin Şimr yıxan yerdi bacı
Sinəmə çəkmə ayağında çıxan yerdi bacı

Gələcək Şimr ora qodalın ayaq səmtindən
Ərşiyan daxil olallar o qabaq səmtindən
Açılar yol o məkanın sənə sağ səmtindən
Qiblə səmtindən ora mehri-füruzan gələcək
Orda səy eylə dayanma anam ordan gələcək

Demirəm məqtəlimə orda gəlib getmə bacı
Demirəm heç mənə xatir özün incitmə bacı
Vardı bir xahişim amma onu rədd etmə bacı
Tiri-təhqirilə birdən ürəyin yarmayasan
Səni qeyrətli anam, qatilə yalvarmayasan

Şeridə çoxdu Xudayi bilirəm iradım
Payi-dəri-gildi mənim mərkəbi-istedadım
Bu rədifi sonra bildim ki, yazıb ustadım
Mən Kəlami dolanan gülşən ara bir xarəm
O zəri-nabidi, mən zərreyi-bimiqdaram

## Həzrət Əli Əkbərin (ə) mədhi və şücaəti

Şibhi-Peyəmbər Əkbər
Surətdə misli-Taha
Sirətdə Səfdər Əkbər
Başdan-başa vücudu
Müşki-müəttər Əkbər
Müjqanı tiri-cankah
Əbrusu xəncər Əkbər
Heybətdə misli Səqqa
Sölətdə Heydər Əkbər

Ay nəqşi çəkmiş idi
Nəqqaş surətində
Ənqoşti-bərləbidi
Aləm məlahətində
Şirin idi əsəltək
Qoftarü-söhbətində
Həmzə mücəssəm idi
Qəddü-səlabətində
Yekta yaratmış idı
Yektayi-əkbər, Əkbər

Dürdanə dilbər idi
Leylayə, həm Rübaba
Tahayi-digər idi
Ali-Əbu-Turabə
Şagirdi-salik idi
Səqqayi-dilkəbaba
Bazu və şəhpər idi
Şahi-fələk rikabə
Ünqayi-Kərbəlayə
Olmuşdu şəhpər Əkbər

Allah onu Hüseynə
Sərmayə vermiş idi
Bir dəstə gül hədiyyə
Leylayə vermiş idi
Gül yox denən gülüstan
Zəhrayə vermiş idi
Tahanı bari-digər
Bəthayə vermiş idi
Gülzari-Əhli-Beytə
Olmuşdu zivər Əkbər

Dərd əhli ol fəqihə
Dərd aşina deyərdi
Bürnadilani-salik
Şəmsi-hüda deyərdi
Əlin öpərdi Zeynəb
Səd mərhəba deyərdi
Olsun keşidə qəddə
Əmmən fəda deyərdi
Qəddin anam Bətuli
Əzrayə bənzər Əkbər

Mənus idi onunla
Şirin zaban Rüqəyyə
Hey üz gözün öpərdi
Qönçə dəhan Rüqəyyə
Qardaşa naz edərdi
Nazi cəhan Rüqəyyə
Əkbər çəkərdi nazın
Səslərdi can Rüqəyyə
Sən olmasan əzizim
Dünyada neylər Əkbər

Vermişdi hüsnü-ziba
Allah o məhcəbinə
Məczub idi o mahə
Xakü-gili Mədinə
Pərvanə tək dönərdi
Hey başına Səkinə
Ümidü-yavər idi
Süğrayi-bimüinə
Qurban sənə deyərdi

Soğrayi-müztər Əkbər

Həmrah olub Hüseynə
Dəşti-bəlayə gəldi
İsmayili-Mədinə
Qanlı Minayə gəldi
Olsun fəda Xəlilə
Kərbübəlayə gəldi
Geydi kəfən hərəmlər
Yeksər nəvayə gəldi
Gəldi o çöldə olsun
Gül misli pər-pər Əkbər

İzni-cihadı aldı
Sültani-Kərbəladan
Ayrıldı ol mücahid
Övladi-Mustəfadan
Meydana sarı endi
Təlli-cahannəmadan
Əhsən dedi o şirə
Fovci mələk səmadan
Ünqa misalı açdı
Meydanda şəhpər Əkbər

Ta səhneyi-cihada
Ol şiri-şərzə gəldi
Ləşkər içində çox göz
İmaya, rəmzə gəldi
Əbruyi-asmani-ğəmmazə
Qəmzə gəldi
Gəldi necə kəənnəh
Meydana Həmzə gəldi

Qəlbi-sipaha etdi
Yeksər müsəxxər Əkbər

Səflər behəm töküldü
Əkbər səlabətində
Gözlər qamaşdı yeksər
Ənvari-surətində
Sərkərdələr vücudu
Titrəşdi heybətindən
Səflər dalında çoxlar
Gizləndi vəhşətindən
Açdı sipahi-şumə
Vəhşətli bəstər Əkbər

Çoxlar xəyal edirdi
Səqqa gəlibdi cəngə
Şiri-Xudanın oğlu
Tənha gəlibdi cəngə
Bəziləri deyirdi
Mövla gəibdi cəngə
Oğlun görüb köməksiz
Taha gəlibdi cəngə
Tahadı bu dilavər
Ya Mustəfafər Əkbər

Baxdı o sərvə Leyla
Sərhayi-sərbezirə
Gəldi dilə buyurdu
Ol rubəhani-pirə
Lənət sizin məramə
Lənət sizin əmirə
Mən Əkbəri Hüseynəm

Yaxşı baxın bu şirə
Gəldi sala vücudu
Züllamə əxgər Əkbər

Fərzəndi-qəhrəmani
Sültani-məhşərəm mən
Ətşanda olsam amma
Şiri-dilavərəm mən
Bir ləşkərə Əlitək
Tənha bərabərm mən
Mərhəblərə deyin siz
Bir ayrı Heydərəm mən
Büt sındıra gəlibdir
Manəndi-Heydər, Əkbər

Xəm çərxi-kəcmədarın
Əbrusuna gətirrəm
Əhsən səsin səmanın
Naqusuna gətirrəm
Sərkərdələr cəbinin
Zanusuna gətirrəm
Səd oğlunu Hüseynin
Pabusuna gətirrəm
Gərdənkeşi bu çöldə
Eylər mühəqqər Əkbər

Ləni-Xuda sizintək
Qövmi-zilalə gəlsin
Qovmi-duru və pəst,
Şeytan-xisala gəlsin
Qəlbiz yanıb kül olsun
Daim məlala gəlsin

Hər kimdə vardı cürət
Dursun cidala gəlsin
Eylər necə vücudun
Görsün ki, bisər Əkbər

Heç baxmadı o ləşkər
Milyondu, mindi, yüzdü
Kim gəldi rəzmigahə
Başın bədəndən üzdü
Peykərləri yekayek
Duzəx səfində düzdü
Dörd oğlu öldü Bəkrin
Heysiyyətin uduzdu
Vurdu dili o şumi
Məlunə neştər Əkbər

İblis mindi Bəkri
Meydana sarı sürdü
Meydana çox ğurur o
Fəryad ilən gülürdü
Zahirdə əl qolun çox
Qeyzilə silkəlirdi
Amma ürək evində
Yapraq kimi əsirdi
Çünkü bilirdi açsa
Əl cəngə neynər Əkbər

Oxşurdu xirə başı
Vəhşətli əjdəhaya
Bənzirdi kəfli ağzı
Heyvanbədən nümayə
Dəyməzdi cismi-nəhsi

Bir kahi-bibəhaya
Nari-cəhənnəm idi
Əvvəldən intəhaya
Görsən nə ərzəl ilə
Durdu bərabər Əkbər

Hər gündə bir şütürdən
Kəmtər yeyənməz idi
Məmuli at o divin
Vəznin çəkənməz idi
Geymişdi bir zereh ki,
Mərhəb geyənməz idi
Geysəydi hər həyula
Yerdən duranmaz idi
Bax gör kim ilə dərgir
Oldu dilavər Əkbər

Əkbər, o nabekara
Verdi şüruyi-cəngi
Əyləşmədi hədəfdə
Ol bihəya xədəngi
Şəmşiri çəkdi Əkbər
Bəkrin saraldı rəngi
Tərsu çaqqala döndü
Səd oğlunun pələngi
Gördü hərifin aciz
Şiri-hünərvər Əkbər

Mən-mən deyən şərurun
Övzası bərhəm oldu
Binur gözlərindən
Duzəx mücəssəm oldu

Sındı qururi-kizbi
Porru üzü kəm oldu
Amadə ol xəbisə
Qəri-cəhənnəm oldu
Öz dövrünə o şumi
Etdi müdəvvər Əkbər

Gəzdirdi at döşündə
Meydanda ol dəğanı
Əkbər qovub o qaşdı
Toz tutdu Neynəvanı
Şad etdi təllin üstə
Sültani-Kərbəlanı
Vəcdü-sürurə gətdi
Sükkani-asimanı
Əhsən dedi sərasər
Göydən mələklər Əkbər

Əcri-cəzil apardı
Bu xeyr əməldən Əkbər
Həm zəhri-çeşm aldı
Qovmi-dəğadan Əkbər
Şəmşir o şumə vurdu
Ziri-bəğəldən Əkbər
Nisf oldu Bəkr, salim
Çıxdı cədəldən Əkbər
Səsləndi ümqi-dildən
Allahu Əkbər, Əkbər

Bir yana düşdü başı
Bir yana düşdü laşə
Çatdı bəhasız ömrü

Çox zillət ilə başə
Əyləşdi başı üstə
İblis vurdu başə
Meyit namazı qıldı
Şeytan o bəd məaşə
Təndisi-küfrə verdi
Çox ali keyfər Əkbər

Saysız sipahın üstə
Tufan misalı əsdi
Dəstü-səri-sipahı
Gəh biçdi, gəh kəsdi
Gördü bəqa müridi
Dünya ona qəfəsdi
Peymaneyi-şəhadət
İçsin özü tələsdi
Sirab olub cahandan
Ətşani-kovsər Əkbər

Nagəh o dilrubanın
Ahü-nəvası gəldi
Əxyamə qətligəhdən
Ədrik sədası gəldi
Tərk eylədi beheşti
Dərd aşinası gəldi
Balininə əvvəldə
Zəhra anası gəldi
Yatma dedi bu noyi
Ey cani-madər Əkbər

Rəngi solub Hüseynin
Səsləndi can Əbəlfəz
Qardaş evim yıxıldı
Gəl hardasan Əbəlfəz
Əkbər də öz anamtək
Öldü cavan Əbəlfəz
Soldu gülüm bu çöldə
Oldu xəzan Əbəlfəz
Oldu vücudu gül tək
Meydanda pər-pər Əkbər

Vardır yeri bu qəmdə
Ərş əhli açsalar baş
Ollam gözün fədası
Tökmə üzarə qan yaş
Allah səni Hüseynə
Çox görməyəydi ey kaş
Oğlu ölən Hüseyni
Mindir at üstə qardaş
İmdadına Hüseyni
Səslir mükərrər Əkbər

Əlqissə gəldi dildə
Qəm riştəsi höründü
Ta Əkbərin Minada
Gül peykəri göründü
Belə yazılla həzrət
Gərdi-qəmə büründü
Düşdü yerə at üstən
Yeddi qədəm süründü
Dəryayi-qanda olmuş
Gördü şinavər Əkbər

Səsləndi ay əzizim
Dərd aşnanı dindir
Ey qana qərq olan gül
Dur bağibanı dindir
Yox dindirən qəribi
Kərbübəlanı dindir
Qəm şöləsində oğlun
Qəlbi yananı dindir
Bir yol danış əqəllən
Olsa müyəssər Əkbər

Dünya başına sənsiz
Küllər tökülsün oğlum
Başın yaran şərurun
Bağrı yaralsın oğlum
Qəlbim kimi bu çöldə
Qəlbi sökülsün oğlum
Sınsın beli mənimtək
Qəddi bükülsün oğlum
Daim Hüseyni dərdin
Eylər mükəddər Əkbər

## İmam Hüseynin (ə) Əli Əkbərin (ə) cənazəsinin yanında növhəsi

Gəldim başının üstə oyan Əkbərim Əkbər
Aç gözlərin ey mahi mələk mənzərim Əkbər

Bəzmi-qəmi tək qurmuşam əlan sənə oğlum
Həm nohə deyib, həm gəlirəm şivənə oğlum
Bikəs atanam göz dolusu bax mənə oğlum
Baxsan mənə dildən dağılar qəmlərim Əkbər

Nur ilə gərək bəstəri-eşqin bəzənəydi
Cismin nə ki, alqana sitəmlən bələnəydi
Səndən sora dünya başına kül ələnəydi
Gördüm səni bu halidə sındı pərim Əkbər

Bu çöldə bəla, mühən həmdəmiyəm mən
Qəm keşvərinin şəxsən əmiri-qəmiyəm mən
Tufani-müsibətdə sınıq bir gəmiyəm mən
Sən olmasan aya kim olar ləngərim Əkbər

Olmuşdu gözəl pərvərişin ab-o gilimdən
Görcək dağılardı səni qəm-qüssə dilimdən
Bari qoca vəxtimdə tutardın sən əlimdən
Batdın qanına sındı mənim şəhpərim Əkbər

Ahu kimi məxyəmdə hərəmlər mələr oğlum
Qəlbin ananın qüssə xədəngi dələr oğlum
Bir azda yubansaq bura Leyla gələr oğlum
Gözlər gözəl İsmailini Hacərim Əkbər

Söndürdü Hüseynin çırağın Ali-Üməyyə
Sənginidi bu qüssə bənati-Ələviyyə
Gözlür yolunu gözyaşı gözlərdə Rüqəyyə
Hicrində yanır qönçeyi-nilufərim Əkbər

Qanın süzülübdür hörülüb qan ilə göz-qaş
Zəhra anam hətmən başın üstə açıb baş
Bu halda səni bacıların görməyə ey kaş
Dözməz səni görsə hərəmi-müztərim Əkbər

Düşməndi hamı dövrə gələn yoxdu haraya
Həml etməyə gül peykərini xeyməsəraya
Var ümdə niyazım bir əsayə, bir əbayə
Cəm etməyə cismin qoy əbanı sərim Əkbər

Meydana xeyəmdən şərəfi-nası çağırram
İmdadıma ol mədəni ehsası çağırram
Qəm çəkmə kömək etməyə Abbası çağırram
Sağdır hələ sərdari-Əli bənzərim Əkbər

## Leylanın (s.ə) Əli Əkbərə (ə) növhəsi

Fəğanə qəmdən gələrəm Əkbər
Sereşki gözdən ələrəm Əkbər
Balası əldə ölən ahutək
Cənazən üstə mələrəm Əkbər
Ey ruhu-rəvanım
Qurban sənə canım

Cənazənə gül bəzərəm oğlum
Qəmində yannam dözərəm oğlum
Gecə-gündüz çölləri qol bağlı
Başın dalinca gəzərəm oğlum
Ey ruhu-rəvanım
Qurban sənə canım

Dağılmış əzayə anan qurban
O qanlı simayə anan qurban
Qalan dalınca gözü yollarda
Mərizə Süğrayə anan qurban
Ey ruhu-rəvanım
Qurban sənə canım

Müsibətin sinələri dağlar
Anan deyər növhə, bibin ağlar
Ölüncə daim qaragün Leyla
Bəlalı başa qaranı bağlar
Ey ruhu-rəvanım
Qurban sənə canım

Şəhidi-gülpirəhənim lay-lay
Susuz cihad eləyənim lay-lay
Səvarə cəngə gedənim lay-lay
Əbadə nəşi gələnim lay-lay
Ey ruhu-rəvanım
Qurban sənə canım

## Həzrət Əli Əkbərin (ə) əhvalatı

Meydana səvarə getdin, piyadə gəldin
Əxyamə doğranıb, qanlı əbadə gəldin
Rəna cəvanım Əkbər
Tabü-təvanım Əkbər

Qərq oldu alqana qaməti rəna oğlum
Qaldı daim mələr hicrində Leyla oğlum
Saysız yarələrə yox rahi-çarə Əkbər
Bağlar yaraların yaralı Zəhra oğlum
Rəna cəvanım Əkbər
Tabü-təvanım Əkbər

Ölməyin xəbəri xeyməsərayə düşdü
Nida gəldi Əkbər ətşan Minaya düşdü
Bacılar baş açdı əmmələrin ağlaşdı

Dərdü-möhnətindən başlar bəlayə düşdü
Rəna cəvanım Əkbər
Tabü-təvanım Əkbər

Fəna aləmara bəqa müştaqı oldun
Şəhadət caməsin geyindin baqi oldun
Yolunu gözləyir bəzmi-bəqada Heydər
Saqiyi-kovsərin ətşan qonağı oldun
Rəna cəvanım Əkbər
Tabü-təvanım Əkbər

Yolunda Süğranın gözü sorağlı qaldı
Bacının sinəsi qəmində dağlı qaldı
Ayrıldın ellərdən oldun sən Kərbəlalı
Vətəndə otağın həmişə bağlı qaldı
Rəna cəvanım Əkbər
Tabü -təvanım Əkbər

## Həzrət Qasimin (ə) mədhi və şücaəti

Nuri-simayi-mətini-Mustəfa Qasimdədi
Qüdrəti, niruyi-cani-Mürtəza Qasimdədi
Ruhi-bibakü-səlimi-Müctəba Qasimdədi
Xülqü-əxlaqi-şahi-Neynəva Qasimdədi
Tizi-çəngiyyi-vəziri-Kərbəla Qasimdədi

On üç yaşlı cavan paktinət paknam
Dərgəhində fəxr edər gər olsa xaqanlar qulam
Ruhunun şaludəsində sərbesər ruhi-qiyam
Cürətü-sölətdə mövlanın özüdü vəssəlam
Pənceyi-mövlayə bəzl olmuş quva Qasimdədi

Çöhrəsi mahi-Bəni Haşim misalı mahidi
Cilvəsi gülhayi-rənginə nəmayişqahidi
Bir on üç sinnidə məftuni-fəna fillahidi
Nəyyiri-tabəndəyə alnı iqamətgahidi
Mehri-rəxşanın cəlası cabeca Qasimdədi

Bərxəlafi sinni-salı çox bülənd iqbal idi
Cəfəri Təyyartək teyri-zümürrüdbal idi
Həmzə misli heybətü-xislətdə nikəfal idi
Qəlbinin camı Hüseyn eşqilə malamal idi
Görsənirdi hübbi-bireybi-vila Qasimdədi

Qasimin vəsfin gərək göyundə müstəhsən deyə
Bir sözüm var bəndi-bədidə hamı danəndəyə
Eyləyə himmət əgər dil mətləbi rövşən deyə
Hər kim aşiqdir Əbəlfəzlə, gərək əhsən deyə
Fikr elə gör şəni hansı məhləqa Qasimdədi

Eşq dəryasında söz qalsın hələ qəvvas idi
Sərbesər ziba vücudu eşq idi ehsas idi
Pənceyi-tizi misali-tiğeyi-almas idi
Mərkəb üstündə deyərdin həzrəti Abbas idi
Röyəti-səqqayi-dəşti-porbəla Qasimdədi

İzni-meydan aldı şəhdən Qasim fərxündəru
Olmadı fürsət hərəm əhlilən etsin qoftoqu
Əyninə hətta zireh də geymədi ol namcu
Gəldi meydana sipahi-şuma oldu rubəru
Gördü hammı cürəti-biintiha Qasimdədi

Səflər üstə əsdi tufani-bəlaqostər kimi
Mərkəbin oynatdı sərdarani-namavər kimi
Nərə çəkdi ərsəgəhdə Maliki Əştər kimi
Etdi bərhəm tarü-pudi-ləşkəri Heydər kimi
Gördü ləşkər söləti-şiri-Xuda Qasimdədi

Çəşmi-gərdun görməmişdi bir belə norəs dəlir
Mərkəzi-meydanda qorreş eylədi manəndi şir
Yürüşündən oldu sərdarani-Kufə sərbezir
Birbəbir səf dalısında gizlənib yəlhayi-pir
Nəbzi-meydani-nəbərdi-Neynəva Qasimdədi

Mən dedi ləşkər, Hüseynin Qasimi- dildarıyam
Nur-çeşmi Mustəfanın Cəfəri Təyyariyam
Bikömək şahın bu çöldə nocəvan sərdarıyam
Ərsəgahi-Neynəvanın Heydəri-kərrarıyam
Qudrəti-bazuyi-şahi-lafəta Qasimdədi

Qasiməm mən, batil əfkarə əqidə verməərəm
Vəsli-canan müjdəsin vahi-nəvidə verməərəm
Mən Hüseyn eşqin bu dünyayi-pəlidə verməərəm
Gərdi-nəleynin onun taci-Yezidə verməərəm
Müqtədayi-eşqə ruhi-iqtida Qasimdədi

Vədəgahi-eşq bu səhrayi-xunindir mənə
Təxti-zərrini-şəhadət burda təzyindir mənə
Şahimə can bəzl edəm amali-dirindir mənə
Qana qərq olmaq bu gün baldan da şirindir mənə
Şəhdi-şirini-bəqayə iştəha Qasimdədi

Daşlara çallam bu gün tənhayi rəzlin kuzəsin
Eylərəm bərhəm Ömər Sədi ləinin hovzəsin
Kimdə vardir ürzə görsətsin görəm corbozəsin
Gəlmişəm topraqa sürtəm pəhləvanlar puzəsin
Yıxmağa təndisi-küfrü iddia Qasimdədi

Vəhşətindən dondu canlar oxşadı başlar yəxə
Sinehayi-müztərib tuş oldu ahü-avəxə
Kim cəsarət eyleyib qoydu qədəm ol məsləxə
Tiği-Qasim üzdü başın vasil oldu duzəxə
Xirəsər ərzəllərə rəmzi-fəna Qasimdədi

Qəlbi-meydanı ələ aldı Həsən namavəri
Gəlleyi-heyvan kimi qovdu o saysız ləşkəri
Müctəba oğlu həlak etdi otuz beş kafəri
Təllin üstündə gülümsəndi Hüseynin ləbləri
Gördü həzrət qeyrəti-xeyrulvəra Qasimdədi

Əzrəqin dörd oğlu öldü əlqərəz dərgiridə
Qalmadı yara dili şumi-şəruri-piridə
Qərq olubdur məncilabi-xiffətü-təhqiridə
Bağlasaydın da qalmazdı onu zənciridə
Sankı bilmişdi əcəl camı ona Qasimdədi

Əlqərəz şeytan minib meydana sürdü Əzrəqi
Dəsti-təqdir eylədi təkrar cəngi-Xəndəqi
Saldı tufana özün cəhlü-himaqət zurəqi
Qüdrəti-bazusu aldatdı o namərd əhməqi
Bilməyirdi qüdrəti-şiri-Xuda Qasimdədi

Görsənirdi çöhrəsi bir köhnə qəbristan kimi
Çöhrə qəbristan kimi, hər çiyni bir kuhan kimi
Nərə pey dər pey çəkirdi har olan heyvan kimi
Qasim amma durmuş idi ərsədə aslan kimi
Cəngə sən fikr eyləmə zərrə əba Qasimdədi

Hay-huy ilə özün çox yordu Kufə əbləhi
Eylədi bədbəxt onu İblisi-şumun bəh-bəhi
Həmlə etdi şiri-bibakə Yezidin rubəhi
Həmleyi-dejximi dəf etdi Əlinin əşbəhi
Gördü Əzrəq zuri-Heydər guya Qasimdədi

Növbəti həmlə yetişdi Qasimi-ətşanləbə
Eylədi dildən təvəssül qəlbi yarə Zeynəbə
Ya Əli səsləndi atdı əl niyami-ətyəbə
Mürtəza vurdu kəənnəh zülfüqarı Mərhəbə
Dəsti-yari-Xudayi masəva Qasimdədi

Mətləbi şəmşiri-Qasim düşmənə rövşən dedi
Vay bu sövdadə bizə ümmali-əhrimən dedi
Öldü Əzrəq nohəsin İblisi-şərrəfkən dedi
Ərşi-əlada mələklər Qasimə əhsən dedi
Qəlbi-meydanda medali-kibriya Qasimdədi

Dörd tərəfdən həmlə etdi Qasimə qövmi-dəğa
Ərsəgahi-Kərbəlada əsdi tufani-bəla
Bilmirəm saldı vücudun qövmi-kafər nə hala
Təllin üstündə Hüseyn səsləndi birdən can bala
Çünkü həzrət bildi ahəngi-nəva Qasimdədi

Dəydi əzbəs yara ol ətşanləbə can qalmadı
Çox çalışdı mərkəb üstə qəddi mizan qalmadı

Saxlasın əldə sipər şəmşiri imkan qalmadı
Hər yara üstə əlin qoydu vəli qan qalmadı
Bəzl edə can nəqdini ruhu-rıza Qasimdədi

Qan içində düşdü zin üstən Həsən namavəri
Qaldı atlar nəli altında zirehsiz peykəri
Bəski at çapdırdı nəşi üstə Kufə ləşkəri
Cismi sərləşkər kimi saysız yara Qasimdədi

Bəsləmişdi dildə düşmənlər inadü-kinəni
Ziri-padə etdilər talan geran gəncinəni
Sındırar şiddətlə daş dəysə necə ayinəni
Atların nəli o hala saldı qanlı sinəni
Bir sınıq ayinətək sınmış nəma Qasimdədi

## Həzrət Qasimin (ə) əmisini köməyə çağırması

Ey vəfalı rəhbərim – yadigari-Heydərim
Qasimin can üstədi – gəl həraya sərvərim
Olmuşam öz qanıma qəltan əmi
Gəl, gələn yollarına qurban əmi

Rəhm elə  göz yaşıma – sayəni sal başıma
Başıma yara dəyib – qan süzüb göz-qaşıma
Teşnə teşnə, teşneyi-camın ölür
Qasimi-naşadü-nakamın ölür
Olmuşam öz qanıma qəltan əmi
Gəl gələn yollarına qurban əmi

Həmdilü-həmrazınam – ərsədə canbazınam
Dil-dodağı yaralı – teşnələb sərbazınam
Dadixahım sənsən ey xunin cigər
Halımı xəncər dəmindən al xəbər
Olmuşam öz qanıma qəltan əmi
Gəl, gələn yollarına qurban əmi

Aşiqi dilxəsteyəm – eşqinə dilbəstəyəm
Dil gəzir dildarını – dilbərim, can üstəyəm
Çıxmamış canım bədəndən gəl əmi
Olsa qəlbin razı məndən gəl əmi
Olmuşam öz qanıma qəltan əmi
Gəl, gələn yollarına qurban əmi

Ey imami insü-can – şəhriyari-mehriban
Gəl xəbər ver xeymədə – neyleyir ləbteşneqan
Nagəranam Əsğəri-dürdanədən
Suzi-gərmadan yanan reyhanədən
Olmuşam öz qanıma qəltan əmi
Gəl, gələn yollarına qurban əmi

Qasimin avarədi – qəlbi-zari yarədi
Ox söküb xəncər kəsib – peykəri sədparədi
Şişeyi-ömrüm dəyib qəm daşında
Gəl məni mehman elə göz yaşına
Olmuşam öz qanıma qəltan əmi
Gəl, gələn yollarına qurban əmi

Qasimin yox bir kəsi – can verir çıxmır səsi
Nöh səmanı doldurub – ox səsi, at şiyhəsi
Səslər içrə gözlürəm gəlsin səsin
Könlü şad olsun bu zarü-bikəsin

Olmuşam öz qanıma qəltan əmi
Gəl, gələn yollarına qurban əmi

Dövrəmi cəllad alıb – zülm alıb, bidad alıb
Sankı seyd olmuş quşu – çənginə səyyad alıb
Gəlməsən düşmən gülün tarac edər
Niziyə yerdən başım merac edər
Olmuşam öz qanıma qəltan əmi
Gəl, gələn yollarına qurban əmi

## İmam Hüseyn (ə) Qasimin (ə) cənazəsinin kənarında

Ay axan ətşan bədəndən – torpağa əlqanı Qasim
Aç gözün gəldim hərayə – ey Həsən reyhanı Qasim
Əlimin əsası lay-lay
Dizimin qüvası lay-lay

Eyləmə əfğanü-nalə, səbrimi alma əzizim
Bu qədər topraqlar üstə, əl-ayaq çalma əzizim
Yarədir cismin sərasər, zəhmətə salma əzizim
Hasilə yaxşı yetirdin, etdiyin peymanı Qasim
Əlimin əsası lay-lay
Dizimin qüvası lay-lay

Yaralar gül peykərində gülşən-o-gülzarə bənzər
Qırmızı xoşrəngü-ziba bir gülə hər yarə bənzər
Sinənin üstündə oxlar gül yanında xarə bənzər
Oxşadıbsan gülsitana səhneyi-meydanı Qasim
Əlimin əsası lay-lay
Dizimin qüvası lay-lay

Şərmsar oldum əzizim həm atandan, həm özündən
Müctəbanın qoy vərindən bir öpüm ziba üzündən
Şosteşu əşk ilə eylər qanı Zəhra üz-gözündən
İndi mənada ucalmış Fatimə əfğanı Qasim
Əlimin əsası lay-lay
Dizimin qüvası lay-lay

Zindeginin Əhli-beytə sənsiz olmaz day səfası
Əkbərimtək doğranıbsan, dərdinin yoxdur dəvası
Canının getmiş qüvası, gözlərin axmış qərası
Bir-birə başdan axıbdır qan hörüb müjqanı Qasim
Əlimin əsası lay-lay
Dizimin qüvası lay-lay

Şahi-məzlumun dağıldı sən də öldün day tıfağı
Eyləyə bilməz təhəmmül dərdi cankah fərağı
Eyləyib xakilə yeksan cismini atlar ayağı
Gözlərim olsun dağılmış peykərin qurbanı Qasim
Əlimin əsası lay-lay
Dizimin qüvası lay-lay

Eyləyim axər nə çara sağ yerin yoxdur bədəndə
Xeymədə əsdi vücudum başına yarə dəyəndə
Heç bu hala qalmamışdım ərsədə Əkbər öləndə
Eyləyim dərman nə noyi dərdi-bidərmanı Qasim
Əlimin əsası lay-lay
Dizimin qüvası lay-lay

Üzdün əl baş ilə candan çəkmədin əl hədəfdən
Eylədin ali hərasət dindən, Qurandan, şərəfdən
Dur gedək əxyamə sarı əl çalıllar hər tərəfdən
Xeyməyə bir cür yetirrəm peykəri-bicanı Qasim

Əlimin əsası lay-lay
Dizimin qüvası lay-lay

## Həzrət Qasim ibn Həsənin (ə) əhvalatı

Düşüb ətşan yerə şəhzadə Qasim
Hüseyni səsləyir imdadə Qasim

Qalıbdır didə tər tufan içində
Çalıxlır peykəri alqan içində
Mədədkar axtarır meydan içində
Gəlir hey dəmbedəm fəryadə Qasim

Deyir bu ruzigarın dad əlindən
Nə çarə olmadım bir şad əlindən
Əmi gəl al məni cəllad əlindən
Düşübdür torpağa dəvadə Qasim

Ayaqlır cismimi sommi-süturan
Yaralardan axır torpağlara qan
Amandır sal məni yadə əmican
Qalıb aşoftəpər, bəlvada Qasim

Mənimtək bərgi-tər gülşəndə yoxdu
Tərəhhüm mütləqən düşməndə yoxdu
Təvan bu yarələnmiş təndə yoxdu
Dili-böhrandadı dildadə Qasim

Özün agəhsən ey şəh mətləbimdən
Məni daş, nizə saldı mərkəbimdən
Alov qalxır güya ətşan ləbimdən
Ətəşdən can verir azada Qasim

Siraci-məcməyi-irfani-eşqəm
Zücaci-surəti-rəxşani-eşqəm
On üç yaşında bir qurbani-eşqəm
Zərər görməz belə sevdadə Qasim

Düşür hey xol-budağım dəstə-dəstə
Gözüm gözlür səni ey şahi-xəstə
Əgər gəlsən bu dəm sən başım üstə
Qalar mənşuri-Aşuradə Qasim

Hərayə sərvi-ruyin tən gəlincək
Əlində xuşeyi-susən gəlincək
Başımın üstünə ta sən gəlincək
Başın verməz bu gün cəlladə Qasim

Gözüm, can üstəyəm cananı gözlər
Yaralı peykərim dərmanı gözlər
Hamıdan çox anamm Zəhranı gözlər
Görür nili üzün mənadə Qasim

## Həzrət Əbəlfəzin (ə) şücaəti və amannamə əhvalatına işarə

Şad ola ruhun sənin Ümmül-Bənin
Bəslədin bir qəhrəman məhcəbin
Verdi təlimin Əmir əl-möminin
Şöhrəti dünyalara saldı tənin
Oldu qanlı pərçəmi həblul-mətin
Vermədi simü-zərə beyət əlin
Ruhi-Taha səslədi səd afərin
Yektənə bir ləşkərin gördü işin

Qolların verdi qala ta zində din
Vamdar oldu ona dini-mübin
Ruhuna rəhmət oxur əhli-yəqin
İçmədi su oldu dərya şərmgin
Su dedi: ərni, Əbəlfəz lən dedi
Həzrəti Zəhra ona əhsən dedi

Şir verdin şirsölət bəslədin
Məna və təndisi-qeyrət bəslədin
Damənində gənci-himmət bəslədin
Din üçin dəsti-himayət bəslədin
Bir dəliri-sərv qamət bəslədin
Bir əbərmərdi-rəşadət bəslədin
Bəhri-pormövci-şərafət bəslədin
Sən Əbəlfəz yox, qiyamət bəslədin
Mərdi-şəmşir və şücaət bəslədin
Pəhləvani-başəhamət bəslədin
Pasdari-baləyaqət bəslədin
Kərbəlayə sən əmanət bəslədin
Ey vəfapişə evin abad ola
Ta cahan var ruhu pakın şad ola

Ölməyibsən, ta cahan var zindəsən
Xızırlar cuyəndə, sən yabəndəsən
Oğlunun adıyla sən payəndəsən
Müftəxərsən bir belə fərzəndə sən
Madəri bir can bekəf rəzməndəsən
Mürtəzaya həmsəri-ərzəndəsən
Zati Yektaya müvəffəq bəndəsən
Bürcü-izzətdə məhi-tabəndəsən
Ta qiyamət nəyyiri-rəxşəndəsən
Düşmənə bir zərbeyi-kubəndəsən

Gül misalı basəfa gülşəndəsən
Xar misli çəşmi-əhrimənndəsən
Çün özün Zəhrayə bildin sən kəniz
Aləmə oldun o saətdə əziz

Fəxr edin yer-göy o sərdar oğluna
Mədəni-təqva və isar oğluna
Əhli-beyti ismətə yar oğluna
Qeyrət ilə qəlbi sərşar oğluna
Mürtəzatək şiri-kərrar oğluna
Ərsəyi-dəvada qəhhar oğluna
Kəbə eşq eylər fədakar oğluna
Aləm aşiqdir ələmdar oğluna
Canımız qurban vəfadar oğluna
Nəqşə tərh etmişdi küffar oğluna
Yazmışdı namə əğyar, oğluna
Gətdi verdi Şimr, hüşyar oğluna
Pozdu Sədin oğlunun bərnaməsin
Aldı cırdı Şimri-şumun naməsin

Mən dedi simü-zərə baş əymərəm
Mən özüm başdan-başa simü-zərəm
Kərbəlanın şahına sərləşkərəm
Cövhəri-rəghayi-şahi-Xeybərəm
Gözlərin sil yaxşı bax mən Heydərəm
Pasdari-itrəti-Peyğəmbərəm
Mən bu çöldə Zeynəbə balü-pərəm
Xadimi-babi-Əliyyi Əsğərəm
Pişmərg və can fədayi-Əkbərəm
Mən uşaqlıqdan Hüseynə nokərəm
Bir belə nokərliyə fəxr eylərəm
Bir tükün taci-Yezidə vermərəm

Başı üstündən yaman yel əsməsin
Sayəsin Allah başımdan kəsməsin

Bu xəbər əxyamə saldı çox şərər
Oldu cəryandan Rüqəyyə baxəbər
Səslədi Allah əmim getsə əgər
Ərsədə bikəs babam bəs neyləyər
Əmməmi qəmçiylə düşmən öldürər
Yox sözüm oldu o böhranda nələr
Gün batıb keçdi gecə oldu səhər
Yəni Aşura, o ruzi-porxətər
Pər-pər oldu lalehayi-xuncigər
Eyleyir nalə ətəşdən südəmər
Eylədi Abbasa bu qəmlər əsər
Məhzəri-şahə gəlib ol bahünər
Ey Məsihadəm dedi can ver mənə
Təngə gəldim izni meydan ver mənə

Xeymədə qəmlər açıbdır mənzərə
Oxşayır halü-həvası məhşərə
Xahişim var kibriyayi-məhzərə
Lütfünü ərzanı eylə nökərə
Adımı yaz cildi qanlı dəftərə
And ola əşki-bənati-Heydərə
And ola cani-Əliyyi Əsğərə
And ola nəşi-Əliyyi Əkbərə
Doğranan əmmameyi-Peyğəmbərə
Zeynəbin başında qara məcərə
Şəhri-Yəsribdə sınan pəhlulərə
Poşti-dərdə siqt olan nilufərə
Odlayıbdır atəşi-möhnət məni
Verməsən izn öldürər qeyrət məni

Şah edib razü-niyaz Allah ilən
Əşki-çəşmü-qüsseyi cankah ilən
Verdi həzrət izn ona səd ah ilən
Qol-boyun oldu köməksiz şah ilən
Gün qucaqlaşdı kəənnəh mah ilən
Əlqərəz ayrıldı ol zicah ilən
Seyr edib rahi-fəna fillah ilən
Gəldi meydana dili-agah ilən
Rubəru oldu əduvvi-Allah ilən
Ləşkəri-biqeyrətü-gümrah ilən
Bir həyasız gəlleyi-rubah ilən
Kuh ru dərru dayandı kah ilən
Düşmənə dil mətləbin rövşən dedi
Həzrəti Heydər ona əhsən dedi

Mən dedi sültani-dinin oğluyam
Mustəfaya canişinin oğluyam
Xaceyi-Ruhul-əminin oğluyam
Məqsədi həblul-mətinin oğluyam
Sahibi ərşü-zəminin oğluyam
Maliki-xuldi-bərinin oğluyam
Şəhriyari-məşriqəynin oğluyam
Padşahi-biqərinin oğluyam
Mürşidi-əhli-yəqinin oğluyam
Rəhbəri fəxrafərinin oğluyam
Bilməyən bilsin Əlinin oğluyam
Mən Əbəlfəzləm yəli-namavərəm
Ərsəgəhdə zülfəqari-Hüydərəm

Ay bu dövranın Əbu Süfyanları
Ruzigarın hiyləgər şeytanları
Ay biyabanın dupa heyvanları
Nəhrivanın pəstü-biimanları
Ay vuranlar nizəyə Quranları
Kufənin dil qanmayan insanları
Kərbəlanın teşnədir mehmanları
Öldü ətşan qardaşım oğlanları
Mən bu gün allam o məzlum qanları
Ələtəş səslir hərəm ceyranları
Soldurub suzi-ətəş reyhanları
Mən gərək sirab edəm ətşanları
Almasam su xeyməyə əzm etmərəm
Şərmdən ölləm əli boş getmərəm

Həmləvər oldu sipahi-kafərə
Vəlvələ düşdü sutuni-ləşkərə
Ləşkəri-muzdur dəydi bir-birə
Bərhəm oldu meymənəylə meysərə
Pəhləvanlar qaçdı arxa səflərə
Qoldu, başdı, hey düşür göydən yerə
Baş oxur lənət düşəndə peykərə
Ziri-padə çatdı çoxlar keyfərə
Baxdı Zəhra himməti-namavərə
Mərhəba səsləndi Heydər bənzərə
Fatimə qurban təvana əllərə
Təllin üstə bax pərişan rəhbərə
Eşq edir isarına, mövla Hüseyn
Təllə sarı bax denən can ya Hüseyn

Ya Hüseyn səsləndi ol burna dəlir
Rəhbərin şad eylədi ətşan vəzir
Aldı meydanı ələ manəndi şir
Pəncəsində oldu rubəhlər əsir
Oldu sərdarani-Kufə sərbezir
At döşündə gizlənib yəlhayi-pir
Çoxları oldu fərarə naqozir
Qaçdılar mən-mən deyənlər birbəbir
Fərş olub başlar yerə misli həsir
Oldu peykərlər ayaq altda xəmir
Gərçi ətşan ləbdi ol niku zəmir
Ləşkərin qəlbin yarır manəndi tir
Cəng edir Siffeynidə güya Əli
Səslənir hərdəm mədəd qıl ya Əli

Nəhri aldı çöhrəsi fərxündədi
Qəlbi amma qüssədən akəndədi
Məşki doldurdu, hələ əyməndədi
Məşkinin dərdü-qəmi ayəndədi
Teşnələr ya Rəbb dedi şivəndədi
Bilmirəm Əsğər ölüb, ya zindədi
Qızlara su gövhəri ərzəndədi
Kim sənilə olsa gər payəndədi
Çəşmi-ümmidim Xudaya səndədi
Bu suyun məşki əmanat məndədi
Əbdi-naçizin köməksiz bəndədi
Teşnələrdən xeymədə şərməndədi
Xiffəti Abbasə qismət eyləmə
Teşnə qızlardan xəcalət eyləmə

Səslədi sən şahid ol ey asıman
Verdi Səqqa çox çətin bir imtəhan
İçmədi bir qətrə bir dərya sudan
Nəhri tərk etdi qərəz ol qəhrəman
Xeyməyə sarı gəlirdi şadiman
Əlaman çərxi-fələkdən əlaman
Arzusun eylədi düşmən talan
Nizəyə, daşa, oxa, oldu nişan
Eylədi əhvalına dağ-daş fəğan
Məşki etdi göz yaşın gözdən rəvan
Çillədən ayrıldı bir ox nagəhan
Öpdü alnın ox özü səsləndi can
Qan ilə doldu mübarək gözləri
Təllidə əsdi Hüseynin dizləri

Səslədi qardaş Hüseyn imadadə gəl
Düşdü Səqqa pənceyi-cəlladə gəl
Yatmamış bu qanlı pərçəm dadə gəl
Sal bu şəhpərsiz hümanı yadə gəl
Qalmayıb yara təni-ünqadə gəl
Fülki-eşqin qərq olur dəryadə gəl
Verməyə təskin dili naşadə gəl
Məşkim oxlandı mənim dəvadə gəl
Qalmayıb salim bədən Səqqadə gəl
Axdı qanım zülm ilə səhradə gəl
Düşmüşəm qolsuz, ağa bəlvadə gəl
Əlqəmə gəldi anam Zəhra də, gəl
Gəl öpüm topraqlar üstə rəddini
Başımın üstündə əymə qəddini

## Həzrət Əbəlfəzin (ə) əhvalati və ədəbə riayət etmək

Kim hüseynçi ola gözlər ədəbin
Saxlayar bəzmi-Peyəmbər ədəbin

Bu Hüseynin qapısı bir qapıdı
Gözləyər gəlsə mələklər ədəbin

Özünə məhşərə kim qail ola
Edər ülgü şəhi-məhşər ədəbin

Yarəli qəlbi sınar ərbabın
Hifz əgər etməsə nökər ədəbin

Ədəbin gözləyər izzətli cavan
Necəki gözlədi Əkbər ədəbin

O qədr pak və müəddəb dolanar
Ta ki, təyid edə Heydər ədəbin

Fərqi yox rişsefidin də gərək
Möhr edə saqiyi-kovsər ədəbin

O ki, şəni ucalıb şəkk eləmə
Saxlayıb məscidü-minbər ədəbin

Tez sınar camiədə şəxsiyyəti
Hər bəşər saxlamasa gər, ədəbin

Ya Rəbb eylə bizə bir şəmmə nəsib
Pesəri-saqiyi-kovsər ədəbin

O ki, yer-göy ədəbindən danışır
Yəni Abbasi dilavər ədəbin

O ki, təyid elədi nəhr üstə
Ürəyi yarəli rəhbər ədəbin

Oldu ülgü əcəmilən ərəbə
Ədəb öyrətdi Əbəlfəzl ədəbə

Qeyri-Hüseyn heç kimə sültan demədi
Hər nigünbəxtə Süleyman demədi

Heç kəsə qeyri-Əli və Həsəneyn
Əymədi baş, bəli qurban demədi

Dedilər gəl canın əymində qala
Verdi can, canına canan demədi

Cırdı tökdü yerə Şimrin vərəqin
Nədi bu namədə ünvan demədi

Gördü bir iş gəlişindən o dəni
Çox sözü oldu pəşiman demədi

Başın ağuşa alan vəxtə Hüseyn
Elədi çox qəmi pünhan demədi

Necə düşmüşdü Hüseyn qardaşına
Üzü üstə yerə atdan demədi

Ox sözün qoymadı gəlsin araya
Hara dəymişdi o peykan demədi

Mərkəb üstündə itirdim yolumu
Pərdə çəkdi gözümə qan demədi

Zərbəsindən o əmudun hələ də
Dolanır başıma meydan demədi

İçməmişdi su yanırdı cigəri
Cigərim yandı susuzdan demədi

And ola teşnə ölən Əkbərinə
Nəhri tərk eylədim ətşan demədi

Əvvəlin söz ki, danışdı bu idi
Öz məlalından o aslan demədi

Günüzü bildi Rübabın gecədi
Dedi qardaş Əli Əsğər necədi

Ey olan taci-kəmalı başımın
Şokətü-şəni yaralı başımın

Nigəranam Əli Əsğərdən ağa
Yoxdu bir ayrı məlalı başımın

Əsğərin zindəliyin bilsəm əgər
Olar asudə xəyalı başımın

Qondu gərdi-qədəmindən başıma
Ərşə ovc etdi cəlalı başımın

Vardı cənnətdə babamda gorəcək
Nə gözəllikdə medalı başımın

Səni Zəhra məni əfv eylə Hüseyn
Ey dirəxşəndə hilalı başımın

Xidmətindən sənə çoxlu bilirəm
Zəhməti oldu bəlalı demədi

Vurmağa busə kərəmli qədəmə
Heyf ola azdı məcalı başımın

Gəlişinlə mənə minnət qoydun
Oldu şəni mütəali başımın

Parçalanmaqda bəla görməkdə
Olmaz aləmdə misalı başımın

Qoy yerə başımı baxma üzümə
Yeksərə qandı cəmalı başımın

Çox belə həsrətilə baxma Hüseyn
İncidir qəlbini halı başımın

Boşla bu baş mənə day baş olmaz
Daxi məndən sənə qardaş olmaz

Səndən ey kani-kəramət qardaş
Mənə çox oldu inayət qardaş

Deyil idi qapının rizəxoru
Bu qədər qabili-hörmət qardaş

Bundan artıq səni möhnətli bacın
Vermə Abbasə xəcalət qardaş

Xeymədə müntəzirin çoxdu Hüseyn
Elə əxyamə əzimət qardaş

Nigərandı hamı əhvalından
Ağlaşır xeymədə itrət qardaş

Gözləyir indi Rüqəyyə yolunu
Gülü-pəjmürdeyi-xilqət qardaş

Əvəzimdən onu ağuşuna al
Öp üzün eylə məhəbbət qardaş

Hələ bildirmə ona ölməyimi
Etməsin qoy hələ vəhşət qardaş

Denən əfv eyləsin Abbas əmisin
O qəriqi-qəmü-möhnət qardaş

Çox təlaş etdim ona su yetirəm
Neyləyim olmadı qismət qardaş

Bir sözüm var deməyə şərm edirəm
Əfv elə olsa cəsarət qardaş

Səfərə getsə oğul gər, anaya
Rəsm odur ki, ala xələt qardaş

Ver bu qanlı ələmi Zeynəbimə
Saxlasın əldə əmanət qardaş

Aparıb hədyə aparsın anama
Görə çəkdim nə müsibət qardaş

Sənə, ta qəmli anam da görə var
Nə qədər məndə iradət qardaş

Çox sözü Ümmü-Bəninə deməsin
Gətirənməz qəmə taqət qardaş

Başımın dərdü-bəlasın biləcək
Pərçəmi eyləsə röyət qardaş

Desə hər nə vəli peykan deməsin
Harama etdi isabət qardaş

Çox yubanma başımın üstündə
Yol düş day, besəlamət qardaş

Ayağın qoy başıma mərkəbə min
Olsa başımda ləyaqət qardaş

Heç deməzdim bu qədər xeyməyə get
Vardı israrıma illət qardaş

Eləmir Kufənin ərzəl qoşunu
Halını burda riayət qardaş

Sən deyən vəxtidə Abbasım vay
Şadlıq eylir bu camaat qardaş

Gülsə bir yolsa sənə düşmən əgər
Öldürər day məni qeyrət qardaş

Səni Zəhra daxi yandırma məni
Bundan artıq sən utandırma məni

## Həzrət Abbasın (ə) şücaəti

Dərdə Əbəlfəzl adı dərman verər
Ruha səfa, cismə adı can verər
Bisərü-samanlara saman verər
Madihinə xələti-şayan verər
Müstəmiə əcri duçəndan verər
Adına qurban canın insan verər
Dərdə əzadarı düçar eyləməz
Saili-dərbarini xar eyləməz

Qibleyi-hacətdi Əbəlfəzl ağam
Kani-kəramətdi Əbəlfəzl ağam
Məniyi-qeyrətdi Əbəlfəzl ağam
Mərdi-şücaətdi Əbəlfəzl ağam
Bəhri-şəhamətdi Əbəlfəzl ağam
Çox uca qamətdi Əbəlfəzl ağam
Vajə yoxum midhəti bihəddinə
Mat aparar sərvi baxa qəddinə

Ölməyib ölməz ağamız zindədi
Həşr olanancaq adı payəndədi
Dərgəhinə hamı pənahəndədi

Küllü pənahəndəsi əymənddədi
Düşməni xəlq içrə sərəfkəndədi
Çöhrəsi xorşidi-dirəxşəndədi
Çox da gözəl siz deməyin Yusufə
Başda dəyər bir tükü min Yusufə

Aşiqi-ruyi-pesəri-Heydərəm
Eşq səfində hamıdan axərəm
Nökərinin nökərinə nökərəm
Cənnətə xaki-dərini verməərəm
Mən dil açandan adını əzbərəm
Dadə çətin gündə onu səsləərəm
Müşkülü layənhələ ta qalmışam
Səsləmişəm dadə mürad almışam

And ver Abbası Hüseyn canına
Gün qabağında təni-üryanına
Fatimənin sineyi-suzanına
Zeynəbinin qəlbi-pərişanına
Əsğərinin həncəri-ətşanına
Əkbərinin başdan axan qanına
Sidqilə de dərdini, dərman verər
Məsləhət olsa ölüyə can verər

Ali-Əlinin gülü bixarıdı
Zeynəbinin həmdəmü-dildarıdı
Dəşti-qəmin Cəfəri Təyyarıdı
Ərsəgəhin Heydəri-Kərrarıdı
Şahi-şəhidanın ələmdarıdı
Ləşkərinin qafiləsalarıdı
Himmətinin həddi, nə meyarı var
Hansı sipahın belə sərdarı var

Ümmü-Bəninin o kəbir oğludu
Fatimənin pakzəmir oludu
Həmzəyə dəvadə nəzir oğludu
Şiri-Xudavəndin o şir oğludu
Faresi-şəcan, dəlir oğludu
Sahibi-iclal, sərir oğludu
Dəhridə manəndi, nə əmsalı var
Hansı şəhin bir belə iclalı var

Bənzəri bir şəmi-şəbistanədi
Sinə vuranlar ona pərvanədi
Xəlq ara divanəsi fərzanədi
Tənə vuranlar bizə biganədi
Boşla o biganəni divanədi
Münkirinin xanəsi viranədi
Ağlayıb əfğan edərik doymarıq
Təndən Əbəlfəz qarasın soymarıq

Sailə əltafi-fəravanı var
Lütfü-kərəmdən dolu damanı var
Rəhmətinin həddi, nə payanı var
Çünkü üruqunda Əli qanı var
Hişməti, iclali-Süleymanı var
Hansı diyarın belə sültanı var
Yorğun ürək dincələcək qəm yemə
Dadə çağırsan gələcək qəm yemə

Zatən o şəxsi ki, zəfərzad ola
Rütbəsi sərkərdeyi-əvtad ola
Mədh edəni həzrəti-Səccad ola
Bir də çətindir belə övlad ola

Ümmü-Bəninin evi abad ola
Həşrə kimi ruhu görüm şad ola
Şir verib şiri-jiyan bəslədi
Təntənə afaqə salan bəslədi

Qəlb evi ondan sarı taracıdı
Getdiyi yol salikə minhacıdı
Ağlamaq üşşaqına meracıdı
Kim ələmin öpsə əgər hacıdı
Lütfünün aləm hamı möhtacıdı
Gərdi rəhi başımız tacıdı
Hansı quruhun belə mövlası var
Şiələrin həzrəti Abbası var

Qurban olum dildəki ehsasına
Dəşti-qəmin saqi və səqqasına
Baxdı Rübabın o gülü-yasına
Dözmədi qəlbi su təmənnasına
Gəldi hüzuri-şəhi-valasına
Açdı sənubər kimi xollarını
Saldı Hüseyn boynuna qollarını

Dərdimə ərz etdi dəva səndədi
Çün mərəzi-ruha şəfa səndədi
Dəsti-şəfabəxş və əta səndədi
Çeşmeyi-porfeyzi-bəqa səndədi
Helm, səfa, silm, rıza səndədi
Müşgülmə çarə ağa səndədi
Seyyidi səndən dedi dad istirəm
Cəngə gedəm izni-cihad istirəm

And ola ol teşnə çıxan canlara
And ola başlardan axan qanlara
And ola ətfali-hərasanlara
Xeymədəki qəlbi-pərişanlara
Tab eləyə bilmirəm əfğanlara
Mən axı səqqayəm o ətşanlara
Verməsən əssaə məni rüxsəti
Nökərini öldürəcək qeyrəti

Salma yerə xahişü-əsrarımı
Sən ki görübsən mənim isarımı
Cəbhəyi-Siffeynidə peykarımı
Minsəm əgər mərkəbi-rəhvarımı
Alsam ələ tiği şərərbarımı
Bağlamasan cəngidə qollarımı
And ola ol Zeynəbi-mənusuna
Şimri gətirrəm bura pabusuna

Edti Əbəlfəzlə Hüseyn bir nəzər
Gördü tutub küllü vücudun şərər
Verməsə rüxsət qəzəbindən ölər
Olsa bu noyi qoşuna həmləvər
Qana biyabanları qərq eyləyər
Gün qutarıb vəxti şəhadət keçər
İstədi məhkumi-şikəst olmaya
Naqizi-peymani-ələst olmaya

Min dedi ey sərsepəhim mərkəbi
Dərk edirəm səndə ki, tabü-təbi
Al nəzərə iddeyi-ətşanləbi
Hər nə qədər düşməni-Ali-Nəbi
Səxt özünə görsə əgər mətləbi

Yolda o əndazə vurur Zeynəbi
Düşmənə pəs ərsəni təng eyləmə
Su götür ətşanlara, cəng eyləmə

Dəsti-vəfa verdi yədullah ilən
Mehr qucağlaşdı o dəm mah ilən
Dildə qərəz suzeş ilən, ah ilən
İzn alıb, ayrıldı şəhənşah ilən
Əhdi mücəddəd edib Allah ilən
Başladı yol seyri-iləllah ilən
Əhsən onun himməti-valasına
Çıxdılar ərş əhli tamaşasına

Dil dolu alam ilə ətşan gəlu
Eyləyir ətşan dodağı zikri-Hu
Oldu otuz min nəfərə rubəru
Bir-birə çaxnaşdı sipahi-ədu
Vəhşət edib ləşkəri-biabiru
Səfləri etdi baxışı zirü-ru
Təxti-təkəbbürdəkilər endilər
Hər biri bir guşədə gizləndilər

Almamış ol mərdi dəlirü-əziz
Pənciyə əslən hələ şəmşiri-tiz
Danə dürüştanı-sipah oldu riz
Müztərib oldu sipəhi-natəmiz
Ərsədə mərdani-nəbərdü-setiz
Axtarışıllar hamı rahi-qoriz
Puri-Əli mərdi-setiz axtarır
Kufəlilər rahi-qoriz axtarır

Mən dedi ləşkər pesəri-Heydərəm
Heydəri-Səfdər kimi namavərəm
Ərseyi-dəvadə ona bənzərəm
Səflərizi zirü-zibər eylərəm
Fatimənin oğluna mən nokərəm
Aləmə xaki-qədəmin vermərəm
Dideyi-pornuri-Əliməndədi
Pənceyi-porzuri-Əli məndədi

Əlsiz əlindən tutanın oğluyam
Düşməni nadan olanın oğluyam
Duşi-nəbiyyə çıxanın oğluyam
Kəbədə büt sındıranın oğluyam
Mərhəbi dildən salanın oğluyam
Qəleyi-Xeybər yıxanın oğluyam
Xuni-Əli, xülqi-Əli məndədi
Qüdrəti-bazuyi-Əli məndədi

Agəh olun siz yəli-heyca mənəm
Adı salan dillərə qoğa mənəm
Yəni Əbəlfəzli təvana mənəm
Sinəsi çün sineyi-sina mənəm
Qeyrətə, heysiyyətə məna mənəm
İtrəti-Peyğəmbərə səqqa mənəm
Gəldim əlac eyləyəm əfğanlara
Su aparam xeymədə ətşanlara

Mane əgər nəhrə siz olsaz gedəm
Mən çəkərəm nəqşizə nəqşi ədəm
Ahi-dili-Zeynəbə olsun qəsəm
Olsa uzun qollarım hətta qələm
Nəhri alıb üstünə vurram ələm

Mən gərək əlan su alam, ya öləm
Məşgimi doldurmasam əzm etmərəm
Xeymiyəölləm əli boş getmərəm

Aldı xülasə ələ şəmşirini
Başladı xoş sotilə təkbirini
Hifz elə Allah bu Əli şirini
Şiri-sələhşur, cahangirini
Eşqi-xərabatın ol pirini
Səflərin istər qıra zəncirini
Rəglərin alnında girehləndirib
Heybəti atdan çoxunu endirib

Zülmətə sarı məhi-ənvər gedir
Qəlbi-sipaha o dilavər gedir
Cəngə kəənnəh xudi-Heydər gedir
İstir Əlitək yıxa Xeybər gedir
Getdikcə, daldalı ləşkər gedir
Hey toxanır bir-birə səflər, gedir
Ləşkər olub qalibi-bican kimi
Rəm eləyir gəlleyi-heyvan kimi

Həmləvər oldu sipəhi-kafərə
Ləşkəri-muzdur dəyib bir-birə
Bərhəm olub meymənə və meysərə
Saiqətək tiğ enir ləşkərə
Bərgi-xəzantək tökülür baş yerə
Başdı ki, lənət oxuyur peykərə
Röbi-xətərdən saralıb soldular
Çoxlar ayaq altda qalıb öldülər

Başdı, bədəndi baxısan hər tərəf
Tiği-Əbəlfəzlə olur kim hədəf
Başı bədəndən biçilir çün ələf
Həmlə edir puri-xədivi-Nəcəf
Atlı, piyada qaçışır can bekəf
Kufəyə az qaldı çata poşti-səf
Öldü ölən, can qutaran qaçdılar
Nəhri-Fəratın yolunu açdılar

Nəhri qərəz aldı o sültani-eşq
Məşgini doldurdu pərişani-eşq
Vurmadı su ləblərə ətşani-eşq
Tökdü suya əşgini müjqani-eşq
Çıxdı sudan baləbi-suzani-eşq
Mat olub isarına ərkani-eşq
Su dedi "ərni", o vəli "lən" dedi
Ruhi-şəhidan ona əhsən dedi

Aləmə öyrətdi vəfanın dəbin
Qülleyi-ovca yetirib mənsəbin
İstədi həzrət suvara mərkəbin
Vurmadı mərkəb suya hətta ləbin
Şeyhə çəkib göstərə tabü-təbin
Rəmzü-işarəylə dedi mətləbin
Rəxti-məzəmmət özümə biçmərəm
İçməsə qızlar bu sudan içmərəm

Verdi qərəz mərkəbə cövlan gəlir
Tərk eləyib nəhri şitaban gəlir
Xeymələrə ləbləri suzan gəlir
Həm özü, həm mərkəbi ətşan gəlir
Üstünə baran kimi peykan gəlir

Ox toxanır dadə neyistan gəlir
Heç deməyir ox mənə çox dəyməsin
Səy eləyir məşginə ox dəyməsin

Keçdi bir az əsdi bəla yelləri
Olmadı qismət o Əli məzhəri
Xeymədə sirab eləyə Əsğəri
Düşdü nə hala demirəm peykəri
Gəldi Hüseyn Kərbübəla rəhbəri
Gördü nə halətdə o namavəri
Ağladı birdən dedi vay qardaşım
Cismidə yox yarənə say qardaşım

Gördüm özün kuşeşini qardaşım
Çeşmə kimi cuşeşini qardaşım
Qan bürüyüb göz-qaşını qardaşım
Tökmə üzə qan-yaşını qardaşım
Qoy dizim üstə başını qardaşım
Dindir əziz qardaşını qardaşım
Tək sən idin dəhridə arxam-elim
And ola öz canına sındı belim

## Bəni-Haşimin nurlu ayı həzrət Əbəlfəzin (ə) əhvalatı

Salam ola mühənə tab edən Əbəlfəzlə
İki uzun qolu təndən düşən Əbəlfəzlə

Salam ola quruyan gülsitani-Tahaya
Su göz yaşilə dəmadəm səpən Əbəlfəzlə

Salam o mənayi-mərdanegi və isarə
Salam ola mütəlaşı bədən Əbəlfəzlə

Salam ola biçilən qəddinə sınan başına
Əmud cəbrilə fərqin öpən Əbəlfəzlə

Salam ola dağılan məşginə axan qanına
Göz üstə üçpər oxa yer verən Əbəlfəzlə

Salam o zəhmətilən tərpənən dodağlarına
Şəhid olanda, Hüseyn vay deyən Əbəlfəzlə

Oxu çəkəndə başın əydi düşdü əmmamə
Əl açdı rubəhü-zağü-zəğən Əbəlfəzlə

Dəyəndə başına ahən Hüseynin əsdi dizi
Qan ağladı hamı dəştü-dəmən Əbəlfəzlə

At üstə ləngərə düşdü o yaralı peykər
Baxıb gülürdü ədu dövrədən Əbəlfəzlə

Yıxıldı atdan ayağı rikabə bənd oldu
Fələk cəfasını etdi ələn Əbəlfəzlə

Üzünün üstə süründü Üqabı getdikicə
Qəzavət eylə nə zülm oldu sən Əbəlfəzlə

Qayıtdı gəldi qaçan mərdumani-rubəhru
Vurubdu tazə yara hər gələn Əbəlfəzlə

O səf dalında qaçıb gizlənən münafiqlər
Hərif olubdula qolsuz bədən Əbəlfəzlə

Biri deyirdi bədəndən qolunu mən saldım
Mənəm cəmaət əzəl zülm edən Əbəlfəzlə

Biri deyirdi bunun məşkini mən oxlamışam
Mənəm o gündüzü tar eyləyən Əbəlfəzlə

Eşitdi məşk adını tazələndi yaraları
Yaratdı su sözü ayrı mühən Əbəlfəzlə

Yadına düşdü Rüqəyyə su camı əllərdə
Baxırdı bülbülü-şirin suxən Əbəlfəzlə

Dilin dodağına sürtürdü, yəni mən susuzam
Ümüdvar idi ol yasəmən Əbəlfəzlə

Alışdı qəlbi dedi dadə gəl Hüseyn ölürəm
Özün yetir bu xəcalət ölən Əbəlfəzlə

Hüseyn gözündən iraq düşmüşəm üzüm üstə
Gülüb şəmatət edir hər görən Əbəlfəzlə

Qana batan ələmimtək yıxılmışam qardaş
Bir iddə nakəs əlində sıxılmışam qardaş

Salıbdı şirini ovçu kəməndə ay qardaş
Yoxumdu sağ yerim əslən bədəndə ay qardaş

Sağalmayan yaramın sən gətir dəvasın özün
Mənim yaram sağalar sən gələndə ay qardaş

Dolubdu gözlərimə qan Hüseyn gözündən iraq
Axır qanı bədənim tərpənəndə ay qardaş

Dedim mən öz-özümə qaldı qardaşım yalqız
Başıma Nofəl əmudu dəyəndə ay qardaş

Dedi başından axan qanına anan qurban
Yaralı başını Zəhra öpəndə ay qardaş

Denən bu qana batan pərçəmi bacım Zeynəb
Anama hədyə aparsan gedəndə ay qardaş

## Bayatı

Dağ-daşa dolu düşsün
Sel yolun yolu düşsün
Mər igidin gərəkdi
Bədəndən qolu düşsün

## Həzrət Əbəlfəzin (ə) Seyyidüş-şühədanı (ə) çağırması

**Növhə**
Yıxldım ətşan, yerə gəl qardaş
Yetir ələmdarına əl qardaş
Ey tabü-təvanım, qurban sənə canım
Ey ruhu-rəvanım, qurban sənə canım

Gəl ey sipehri-kərəmim qardaş
Düşüb əlimdən ələmim qardaş
Livayi-dini sənə versəydim
Ürəkdə qalmazdı qəmim qardaş
Ey tabü-təvanım, qurban sənə canım
Ey ruhu-rəvanım, qurban sənə canım

Alıb ədu sağ-solumu qardaş
Kəsibdi düşmən yolumu qardaş
İraq gözündən bu dəni-ləşkər
Salıb bədəndən qolumu qardaş
Ey tabü-təvanım, qurban sənə canım
Ey ruhu-rəvanım, qurban sənə canım

Sayəni gəl başıma sal qardaş
Düşmən əlindən məni al qardaş
Olsa rıza qəlbin Əbəlfəzdən
Gəl məni sən eylə halal qardaş
Ey tabü-təvanım, qurban sənə canım
Ey ruhu-rəvanım, qurban sənə canım

Baxır hamı rəşkimə gəl qardaş
Qarışdı qan əşgimə gəl qardaş
Xəcalət oldum hərəm əhlindən
Dəyibdi ox məşgimə gəl qardaş
Ey tabü-təvanım, qurban sənə canım
Ey ruhu-rəvanım, qurban sənə canım

## İmam Hüseynin (ə) həzrət Əbəlfəzə (ə) xitabı

Ey mənim sərsipahım Əbəlfəz
Qəm günü təkyəgahım Əbəlfəz
Aç gözün yandı qəlbim, ucaldı
Göylərə dudi-ahım Əbəlfəz
Can Əbəlfəz – can Əbəlfəz – can Əbəlfəz

Sərvitək qan olan nəhrin üstə
Xol-budağın düşüb dəstə-dəstə
Başının üstə göz yaşı gözdə
Baş açıb qardaşın qəlb şikəstə
Can Əbəlfəz – can Əbəlfəz – can Əbəlfəz

Mürtəzayə gözəl məzhər oldun
Saqiyi-Ali-Peyğəmbər oldun
Sən köməksiz Hüseynə bu çöldə
Tək başa bir qəvi ləşkər oldun
Can Əbəlfəz – can Əbəlfəz – can Əbəlfəz

Salmış əda vücudun kəməndə
Sağ yerin yoxdur əslən bədəndə
Titrədi dizlərim təllin üstə
Alnına tiri düşmən dəyəndə
Can Əbəlfəz – can Əbəlfəz – can Əbəlfəz

Yarələndi müqəddəs cəbinin
Mürşüdü oldun əhli-yəqinin
Başını başlar içrə ucaltdun
Sən vəfapişə Ümmül-Bəninin
Can Əbəlfəz – can Əbəlfəz – can Əbəlfəz

Sinənin üstə ox gül düzübdü
Bəzi ox şax-o-bərgin üzübdü
Vay mənə üzdən ulduz misalı
Bir gözün ox dəyəndə süzübdü
Can Əbəlfəz – can Əbəlfəz – can Əbəlfəz

Xeymələrdə çəkir intizarın
Bir sürü ahuvi-biqərarın
Mümkün olsaydı həml eylərdim
Xeyməyə peykəri-zəxmdarın
Can Əbəlfəz – can Əbəlfəz – can Əbəlfəz

Üzdün əl canü-təndən Əbəlfəz
Şərmsar olma məndən Əbəlfəz
Razı ol bikömək qardaşından
Razıyam mən də səndən Əbəlfəz
Can Əbəlfəz – can Əbəlfəz – can Əbəlfəz

## Həzrət Əbəlfəzin (ə) düşmən qoşunu qarşısında rəcəz oxuması

Kufə əhli şahi-eşqin bavəfa Abbasıyam mən
Əhli-beyti-Mustafanın teşnələb səqqasıyam mən
Şahi-ətşana müridəm – mən Əbəlfəzli rəşidəm

Gəlmişəm təsxir edəm mən nəhri-nəngini-Fəratı
Dönmərəm bir an sözümdən məndə var Heydər sıfatı
Müntəzirdir məşki-abə xeymədə Zəhra nəbatı
Ahuvani-teşnəkamın saqiyi-tənhasıyam mən
Şahi-ətşana müridəm – mən Əbəlfəzli rəşidəm

İçmərəm abi-Fəratı qalxıb öpsə əllərimdən
Şərm edin ey bivəfalar şərmsaram Əsğərimdən
İçsə Əsğər su qəmim yox getsə başım peykərimdən
Qönçeyi-nazi-xiyamın aşiqi-şeydayısam mən
Şahi-ətşana müridəm – mən Əbəlfəzli rəşidəm

Mütləqa yoxdur hərasım mərdi-şəmşir oğluyam mən
Mərdi-helm-o-silm-o-eşq-o-elm-o-tədbir oğluyam mən
Həm özüm şiri-nəbərdəm, həm də ki, şir oğluyam mən
Ləşkəri-sültani-dinin bir belə heycasıyam mən
Şahi-ətşana müridəm – mən Əbəlfəzli rəşidəm

Heyf ola ələn nəbərdə yoxdu şahimdən icazə
Yoxsa and olsun cəlali-Zul-Cəlali-biniyazə
Burda bir cəng edərdim sanə gəlməzdi cənazə
Musayi-dəşti-bəlanın çün yədi-beyzasıyam mən
Şahi-ətşana müridəm – mən Əbəlfəzli rəşidəm

Huşü-himmətdə Üqabım, Rəfrəfi-Tahayə bənzər
Mərkəb üstə sərvi-qəddim, qaməti-Tubayə bənzər
Pənceyi-düşmən şikarım pənceyi-mövlayə bənzər
Ərsəgahi-Kərbəlanın şiri-bipərvasıyam mən
Şahi-ətşana müridəm – mən Əbəlfəzli rəşidəm

Ruhumu eylir əziyyət teşnələblər ahü-vası
Nöh səmayə lərzə salmış ahü-vaveyla sədası
Ələtəş sotundan ələn qəlbimin getmiş qüvası
Xaneyi-Xeyrun-nisanın əbdi-baehsasıyam mən
Şahi-ətşana müridəm – mən Əbəlfəzli rəşidəm

Su yolunu bağlamaz suzi-zərrə gər vicdanız olsa
Mehri-Zəhradır axan su dildə gər imanız olsa
Var yeri ahi-Hüseyndən zendegi neyranız olsa
Ahi-dilhayi-rəufun peyki-Aşurasıyam mən
Şahi-ətşana müridəm – mən Əbəlfəzli rəşidəm

## Həzrət Əbəlfəzin (ə) Əba Əbdullah Hüseyndən (ə) kömək istəməsi

Düşmüşəm torpağə ətşan yetiş imdadə Hüseyn
Başımın üstə gəlib həzrəti Zəhra da Hüseyn
Gəl ələmdarın ölür – teşnə sərdarın ölür

Dövrəmi murü-mələx misli alıb qövmi-ədu
Gətirə bilmədim əfv eylə məni Əsğərə su
Almışam su yerinə qanilə bu çöldə vüzu
Salmışam torpağa bir qırmızı səccada Hüseyn
Gəl ələmdarın ölür – teşnə sərdarın ölür

Peykərim başdan ayağa toxanıb ox yaradı
Sinəmi şanə kimi nizə və xəncər daradı
Bilmirəm heç üzüm üstə yıxılan yer haradı
Düşmüşəm vardı gümanım ləbi-dəryada Hüseyn
Gəl ələmdarın ölür – teşnə sərdarın ölür

Səflərin görməyirəm sağlarını sollarını
Sərvinin xollayıb əğyari-dəni xollarını
Salıb əhzabi-sitəm qardaşının qollarını
Yoxdu salim yerim Əkbər canı əzada Hüseyn
Gəl ələmdarın ölür – teşnə sərdarın ölür

Budu qəsdim gələsən bir də öpəm məqdəmini
Alaram canıma hər möhnətini hər qəmini
Pərçəmin sahibi sənsən gəl apar pərçəmini
Qalmasın pərçəmi-Quran dili-səhrada Hüseyn
Gəl ələmdarın ölür – teşnə sərdarın ölür

De bu qanlı ələmi əhli-yəqinə verələr
Xeymədə Zeynəbi-fərxündə cəbinə verələr
Vətənə getsələ gər Ümmü-Bəninə verələr
Belə saldım dəmi axər onu da yadə Hüseyn
Gəl ələmdarın ölür – teşnə sərdarın ölür

Gəl bu axır nəfsimdə əl-ayağından öpüm
Məh cəbinin, yanıram dərdi-fərağından öpüm
Kəsilən vəxtə başım teşnə dodağından öpüm
Sonra suda verim başımı cəlladə Hüseyn
Gəl ələmdarın ölür – teşnə sərdarın ölür

Dəydi su məşkimə ox saldı bəla, bəndə məni
Qızlarından elədi Hərmələ şərməndə məni
Suyumun olmamağı etdi sərəfkəndə məni
Su yolun gözləməsin Əsğər şəhzadə Hüseyn
Gəl ələmdarın ölür – teşnə sərdarın ölür

## Sültan Səncərin ov əhvalatı və Əli Əsğərin (ə) əhvalatına işarə

Hər bina tapsa əgər zülm ilə bünyan yaşamaz
Sülteyi-zuridə azadə müsəlman yaşamaz
Xiffətü-nikbətə korneş edib insan yaşamaz
Görmüşük adətini deyri-xərab abadın
Ömrü beş gün olar dəhridə istibdadın

Xülqü-insani olan əhli zərü-zur olmaz
Zuri-bazusuna, ya sərvətə məğrur olmaz
Çöhrəsi camiədə çöhreyi-mənfur olmaz
Ahi-məzlum yıxar dəhridə züllamın evin
Necə yıxdı analar naləsi Səddamın evin

Nə bəla çəkdi bilirsən şühədanın anası
Çoxunun var o zamandan hələ odlu nəfəsi
Quşi-əflakidə qalmış hələ də nalə səsi
Səslənirdi analar ruhu-rəvanım lay-lay
Dağılan peykəri çöllərdə cəvanım lay-lay

Meyi-qüdrət xirəd ərbabını mədhuş eləməz
Bəzmi-ədlü-şərəfin şəmini xamuş eləməz
Ovci qüdrətdə Allahı fəramuş eləməz
Çün bilər qüdrəti-mütləq fəqət Allahındı
Allahın hər nəyi var Ali-Yədullahındı

Bu pəyamı yazıram qüdərti-istikbarə
Pirü-sərdəsteyi-hükkami-cinayətkarə
Bura İrandı, ayıl gözlərin aç biçarə
Sərzəmini-ələvidir bura tərdid eləmə
Zeynəbin məmləkətin bir belə təhdid eləmə

And ola həzrəti Zəhra xanımın ismətinə
Zeynəbin qəlbi-rəufunda olan möhnətinə
Uca qamətli Əbəlfəz ağamın qeyrətinə
Keşvərin vəxti-xətər milləti-İran saxlar
Bu Əli məmləkətin şahi-Xorasan saxlar

Səy edim çıxmasın əldən sözümün əfsari
Məqsədim ayrıdı inşa süxənindən ari
Yazıram bu xəbəri eyləsə Allah yari
Var ümüdüm bir olan zati-Həqqi davərdən
Etməyə ta məni şərməndə Əli Əsğərdən

Bir-birə gah görərsən cəryanlar bənzər
Varımış bir nəfər İranda niku mənzər
Şahi İran, adı mərufidi sultan Səncər
Nisbətən ayineyi-mərifəti saf imiş
Əhli elmü-xirəd, məntiqü-insaf imiş

Səlcuqun altıncı əsrdə nəveyi-xoşbəxti
Mərv şəhrində bina oldu rəvaqü-təxti
Əyninə geydi sürurilə hökumət rəxti
Çox bəha verdi hünər əhlinə, əhli-zövqə
Axərin şahdi o şah, silsileyi-Səlcuqə

Gərdişə çıxdı qərəz bir günü sültan Səncər
Mərkəbin mindi, belə bağladı zərrin xəncər
Neçə məmur başında hamısı xoşmənzər
Həvəs etmişdi bir az gəştü-güzar eyləməyə
Ələ tir almış idı ahu şikar eyləməyə

Yola düşdü qərəz ol gəştü-tərəb silsiləsi
Çoxalıb şəhrilər ilən oların fasiləsi
Çatdı bir dəşti-xüramana şəhin qafiləsi
Bildi xəlvət o diyarı hamı mənzillərdən
Sakin imiş demə orda köçəri ellərdən

Verdi dəstur o çöldə qurulub çadırlar
Saldı keştiləri dəryada kəənnəh ləngər
İstirahət eləyəndən sonra Sultan Səncər
Həzz edib səhni-təbiətdə həvayi-safə
Durdu diqqət ilə bir az saldı nəzər ətrafə

Ürəyi şövqü şikarilə olub akəndə
Gözünə dəydi uzaqdan bala bir cənbəndə
Fikr edib bəççeyi-ahudu gəzir gülşəndə
Dedi bəxtim mənə yar oldu kəmanı gətirin
Vurcağın mən o şikarı gedib ani gətirin

Qoydu ox çilləyə əlqissə kəman aldı kəfə
Atdı tiri, ürəyi doldu sürurü-şəfə
Əlqərəz zuzəkeşan dəydi o peykan hədəfə
Atifə dəftərini dəycəyin ox parələdi
O diyarın başına gərdi-müsibət elədi

Ova xatir gedib hər kim ürəyi qan gəldi
Sözü vazeh yetirə bilmədi giryan gəldi
Ov dalınca qərəz axər özü sultan gəldi
Gördü bir səhnə pənahəndə olub göz yaşına
Gözü tar oldu dolandı o biyaban başına

Gördü bir tifləki məsumu, verir qan yarası
Rəxtşuyi su kənarində edirmiş anası
Ana yanında iyməklirmiş o dilsiz balası
Vurub ahu əvəzində südəmər bir uşağı

Yandı qəlbi necə ki, ud yanar məcmərdə
Olsa vicdanı vücudunda kimin bir pərdə
Əmri-vazehdi dözənməz belə möhlik dərdə
Saldı təşvişə o sültanı xəta eyləməyi
Hamı ki, Hərmələ olmaz ola daşdan ürəyi

Neyləyər görsə belə səhnəni avarə ana
Gedib əldən balası görsə günü qarə ana
Üz tutub övrətə ərz etdi nədir çarə ana

Bundan artıq səni mən qərqi-məlal eyləmərəm
Özümü mən əgər ölsəm də halal eyləmərəm

Atdı tir ilə kəmanın yerə, vurdu zanu
Qeyri-əmdidi mənim gərçi işim ey banu
İxtiyarındayam ey mami-pərişan geysu
Ya pul al, əfv elə bu bəndəni sərvət ələ sal
Ya, vur öldür məni məzlum balanın qanını al

Dedi övrət: nə deyim indi mən ey şah sənə
Bala olmaz daxi versən hamı dünyanı mənə
Pula xatir balasından əl üzər hansı ana
Məni etdin qara məcər, özünü şərməndə
Səni öldürməyilən ki, balam olmaz zində

Tək budur möhnət əlindən mən üçün rahi-nicat
Bu məkanda mənə sən xəlq elə bir imkanat
Sipəri burda edim ömrümü ta vəxti məmat
Balamın qətligəhində sinəmi dağlayaram
Səs qoşub çöllərin ahulərinə ağlayaram

Anadır mədəni isarü-vəfa dəryası
Vəsfə gəlməz ananın atifəsi, ehsası
Fərqi yox qəmli Rübabı ola, ya Leylası
Söz-sözü çəkdi düşüb yadıma qəmlər anası
Nə bəla çəkdi Xudaya Əli Əsğər anası

Mürtəza şahi-vilanın o vəfalı gəlini
Əli qoynunda qalan başı bəlalı gəlini
Qüssəli Fatimənin qəlbi yaralı gəlini
Əhli-məna ürəyin etdi onun dərdi kəbab
Bilmirəm dözdü necə qüsseyi-cankahı Rübab

Verdi təhvil Rübaba şəhi-ətaşan balasın
Neyləyər görsə ana qanına qəltan balasın
Çəkdi ağuşuna can misli o ceyran balasın
Dedi həncərdəki ox yarənə canım qurban
Ləbi-xoşkideyi-sədparənə canım qurban

Ətəyindən əlimi bəs niyə üzdün gözəlim
Bəxtimin ulduzu aya hara süzdün gözəlim
Üçpər ox zərbinə axər necə dözdün gözəlim
Teşnə halında çıxan canına canım qurban
Boğazından süzülən qanına canım qurban

Teşneyi-sağəri-ləbxəndinəm oğlum mənə bax
Madəri bikəsü-şərməndənəm oğlum mənə bax
Əli qoynunda sərəfkəndənəm oğlum mənə bax
Boğazın qanı çillənmiş üzünə canım qurban
Göydən ulduztək axınmış gözə canım qurban

Aç gözün gör nə qədər ağlayanın vardı Əli
Nə qədər xeymədə lay-lay çalanın vardı Əli
Qəm yemə Hərmələdən qan alanın vardı Əli
Ürəyim möhnət əlindən o zaman dincələcək
Qanını almaq üçün qan alan oğlum gələcək

Xanımı qərqi-bəla etmiş idi dəsti-qəza
Gecə-gündüz mələyib ney kimi eylərdi nəva
Ərbəinə elə ki gəldi əzalı üsəra
Həzrəti Zeynül-ibadən o xanım izn aldı
Əsğərin qanı axan dəştidə bir il qaldı

Çünkü həbs etmiş idi çox sözü həncərdə Rübab
Qurdu gülzarı solan yerdə sərapərdə Rübab
Hamı getdi vətənə qaldı o çöllərdə Rübab
Çün həya mane idi sinəsini dağlamağa
Düşdü fürsət əlinə nohə deyib ağlamağa

Ucadan şərm eləyib ağlamamışdı o xanım
Sinəsin dərdi qədər dağlamamışdı o xanım
Çün oğul yarəsini bağlamamışdı o xanım
Səslənirdi rəgi-xunpaşına canım qurban
Hörülən qanilə göz-qaşına canım qurban

Hey alardı əlinə qanə bələnmiş bələyi
Od kimi şölə çəkərdi qana dönmiş ürəyi
Odlayardı dili-afaqi nəva eyləməyi
Səs qoşardı səsinə göydə uçan teyhular
Mələşərdi onulan dövrədəki ahular

Olmayan yarəsinin çarəsi oğlum lay-lay
Boş qalan xırdaca gəhvarəsi oğlum lay-lay
Anası çöllərin avarəsi oğlum lay-lay
Bənzəyən həncəri-bərgi-tərə canım qurban
Ox dəyən vəxtə əsən ləblərə canım qurban

Dodağın suzi-ətəşdən əmən oğlum lay-lay
Qolları bağlı cihadə gedən oğlum lay-lay
Can verən vəxtə təbəssüm edən oğlum lay-lay
Xırda qəlbində böyük möhnətə canım qurban
Ox dəyən vəxtə gülən surətə canım qurban

Əli Əkbər kimi candan keçən oğlum lay-lay
Boğazın tiri-ədavət biçən oğlum lay-lay

Öz qanın su əvəzində içən oğlum lay-lay
Yat əzizim təni-məcruhuna canım qurban
Boğazından pər açan ruhuna canım qurban

Küsüb evdən, anadan sərd olan oğlum lay-lay
Atasiyla gedib həmdərd olan oğlum lay-lay
Daş ürək düşməni namərd olan oğlum lay-lay
Ac gedib, ac qayıdan nuri-du eynim lay-lay
Boğazından çıxadan tiri Hüseynim lay-lay

Bani oldu bu sözə Haşimi niktəbar
Əhli-minbərdi özü sahibi-idrakü-vüqar
Var ümidim siləsin həzrəti Zəhradan alar
Hamı əhbaba xanım lütf eləyir yövmi-hisab
Ey Xudayi sənə ehsan eləsin qəmli Rübab

Hərmələ bir sitəm etdi ürəyim yandı bacı
Tarü-pudi-bədənim yandı alovlandı bacı
Əllərim üstə Əli Əsğərim oxlandı bacı
Boğazın ox iti xəncər kimi kəsdi balamın
Oxu çəkdim quruyan ləbləri əsdi balamın

İlləti var belə meydanda yubandım Zeynəb
Xeyməyə gəlməyə bu halda utandım Zeynəb
Ərsəgəhdə bir az avarə dolandım Zeynəb
Hey baxıb güldü mənə Hərmələ rəncur oldum
Xeyməyə gəlməyə Əsğər canı məcbur oldum

# İmam Hüseynin (ə) Əli Əsğər ilə (ə) meydanda söhbəti

Aldı ağuşə Hüseyn xeymədə ətşan balasın
Gətdi meydanə şitab ilə o ceyran balasın

Kipriyin bir-birə zəhmətlə çalırdı o bala
Ovlanan balıq misalı çobalırdı o bala

Solmuş güllərə bənzirdi saralmış yanağı
Parçalanmışdı ətəşdən iki ləli dodağı

Tutmuş idi bədənin şöleyi-mərmuzi-ətəş
Odlamış idı dili-aşüftəsini suzi-ətəş

Ətəşin tiri-bəlası cigərin bölmüşdü
Ox da dəymeydi boğazından əgər, ölmüşdü

Baxdı həsrətlə Əli Əsğərə şahi-şühəda
Dedi solmuş üzə məzlum atanın canı fəda

Teşnəsən mən görürəm suzü-qüdazın vardı
Su içib sayədə yatmağa niyazın vardı

Çarəm olsaydı anandan səni almazdım mən
Bu qədər zəhmətə oğlum səni salmazdım mən

Gün qabağında solan çöhrəni yandırmazdım
Əllərim üstə balam canı dolandırmazdım

Yandırır ləhzə beləhzə qəmi-suzəndə məni
Çərxi sınsın fələkin eylədi şərməndə məni

Dəm bedəm ahi-cigərsuz var illət çəkirəm
Quruyan ləblərə baxdıqca xəcalət çəkirəm

Su tapanmır bu köməksiz atanın boşdur əli
Məni sən bil bibinin canı halal eylə Əli

Görmədin bəhrə bu az ömrüdə dünyadən oğul
Nə çəkirsən bilirəm şiddəti-gərmadən oğul

Sən çəkən möhnətü-alamə xəbərdaram Əli
Saxlayam gün qabağında səni naçaram Əli

Susuzam sən kimi olmaz vəli qismət mənə su
Razıyam mən öləm amma verə düşmən sənə su

## Həzrət Rübabın (s.ə) Əli Əsğərə (ə) növhəsi

Qumatı qana batanım lay-lay
Cəlalı ərşə çatanım lay-lay
Küsən qara günlü anasından
Rübabı gözdən atanım lay-lay
Ey qönçə dəhanım – qurban sənə canım

Gileyli evdən köçənim lay-lay
Boğazını ox biçənim lay-lay
Solan ətəşdən üzünün rəngi
Qanın susuzdan içənim lay-lay
Ey qönçə dəhanım – qurban sənə canım

Həzin səsin ox kəsənim lay-lay
Dodağı birdən əsənim lay-lay
Gedən gileyli hərəm əhlindən
Rüqəyyəsindən küsənim lay-lay
Ey qönçə dəhanım – qurban sənə canım

Fərata həsrət baxanım lay-lay
Sitarə misli axanım lay-lay
Susuz boğazdan süzülən qanın
Solan cəmalə yaxanım lay-lay
Ey qönçə dəhanım – qurban sənə canım

Cihada ətşan gedənim lay-lay
Xiyamə yorğun gələnim lay-lay
Dəyəndə ox teşnə boğazından
Oxa təbəssüm edənim lay-lay
Ey qönçə dəhanım – qurban sənə canım

## Rübabın (s.ə) Əli Əsğərə (ə) lay-lay deməsi

Ox dəydi dincəldin Əsğər Əsğər
Sirab olub gəldin Əsğər Əsğər
Dan ulduzum lay-lay
Əmlik quzum lay-lay

Sən öldün ləbətşan oğlum oğlum
Qaldı anan nalan oğlum oğlum
Səndən sonra gəzər bikəs anan
Çölləri sərgərdan oğlum oğlum
Dan ulduzum lay-lay
Əmlik quzum lay-lay

Sinələri dərdin dağlar dağlar
Ox yaranı Zəhra bağlar bağlar
Bağlar yaran başlar qəmli nohə
Sinə vurar Heydər ağlar ağlar
Dan ulduzum lay-lay
Əmlik quzum lay-lay

Qəlbim başın şərər aldı aldı
Rübab anan mələr qaldı qaldı
Səndən sonra yeksər hərəm əhli
Başa qara məcər saldı saldı
Dan ulduzum lay-lay
Əmlik quzum lay-lay

Sitarələr misli axdın axdın
Fərata çox həsrət baxdın baxdın
Simayi-səmayə nazlı oğlum
Həncərinin qanın yaxdın yaxdın
Dan ulduzum lay-lay
Əmlik quzum lay-lay

Rüqəyyəm fəraqə dözər dözər
Ahu kimi mələr gəzər gəzər
Qanlı bələyinə lay-lay çalar
Boş beşiyin hər gün bəzər bəzər
Dan ulduzum lay-lay
Əmlik quzum lay-lay

## Həzrət Rübab (s.ə) Əli Əsğər (ə) qəmində

Ey mahi-niku mənzərim
Əsğərim Əsğər, Əsğərim Əsğər
Qaldı ürəkdə əllərim
Əsğərim Əsğər, Əsğərim Əsğər
Yat oğul ağlama – sinəmi dağlama

Göz yaşını rüxsarına
Bağlama oğlum, bağlama oğlum
Əhli-xiyamın sinəsin
Dağlama oğlum, dağlama oğlum
Sən ağlayırsan ağlayır hamı
Ağlama oğlum, ağlama oğlum
Qundağidə bərgi-tərim
Əsğərim Əsğər, Əsğərim Əsğər
Yat oğul ağlama – sinəmi dağlama

Qəmli anan bəs neyləsin
Ay cigər güşə, ay cigər güşə
Sübhə kimi allam əgər
Yatsan ağuşə, yatsan ağuşə
Lay-lay çalım yum gözlərin
Get bir az huşə, get bir az huşə
Sənsən bəhalı gövhərim
Əsğərim Əsğər, Əsğərim Əsğər
Yat oğul ağlama – sinəmi dağlama

Səndən Rübabı ruzigar
Etdi şərməndə, etdi şərməndə
Dərdilə olmuş bu yanan
Qəlbim akəndə, qəlbim akəndə
Olsun qəsəm göz yaşına

Çarə yox məndə, çarə yox məndə
Bərgi-xəzana bənzərim
Əsğərim Əsğər, Əsğərim Əsğər
Yat oğul ağlama – sinəmi dağlama

Solmuş cəmalın bənzəyir
Bərgi-payizə, bərgi-payizə
Nifrinü-lən olsun belə
Qövmi-xunrizə, qövmi-xunrizə

Rahi-Fəratı bağlayıb
Əldə ox-nizə, əldə ox-nizə
Ətşanlığa döz dilbərim
Əsğərim Əsğər, Əsğərim Əsğər
Yat oğul ağlama – sinəmi dağlama

Vardır yeri qəlbim yanıb
Şöləvər olsun, şöləvər olsun
Düşsün anan çöldən-çölə
Dər bedər olsun, dər bedər olsun
Bir cür təhəmmül et oğul
Ta səhər olsun, ta səhər olsun
Ey dilbəri-nilufərim
Əsğərim Əsğər, Əsğərim Əsğər
Yat oğul ağlama – sinəmi dağlama

# Ya şəhid Hüseyn (ə)

Şərəfi-əhli-vila kimdi? Hüseyn
Adı hər dərdə dəva kimdi? Hüseyn

Görüm aləmdə məriz olmayasan
Mərəzi-ruha şəfa kimdi? Hüseyn

Əzəlin badəsinin sərməsti
Qərqi-dəryayi-bəla kimdi? Hüseyn

Həzrəti Fatimənin sinə gülü
Xamisi-Ali-Əba kimdi? Hüseyn

İldə on gün ona xatir çəkilən
Ərşilə fərşə qara kimdi? Hüseyn

Eləyən ildə Xuda təziyəsin
Ərşi-həftümda bepa kimdi? Hüseyn

Qanları cuşeşə qanı gətirən
Miri-küllü şühəda kimdi? Hüseyn

Ləbləri suzi-ətəşdən yaralı
Saqiyi-hövzi-bəqa kimdi? Hüseyn

Yarəli ləblər ilən məqtəldə
Eləyən Həqqə səna kimdi? Hüseyn

Eləyən isti qumun üstündə
Səcdə alnında yara kimdi? Hüseyn

Öz əlilən uca boy qardaşını
Verən İslama fəda kimdi? Hüseyn

Bağlanan qol-qola əhli-hərəmi
Zeynəbi qərqi-nəva kimdi? Hüseyn

# İmam Hüseynin (ə) mədhi və həzrətə əzadarlığın keyfiyyəti

Qəlb evin təsxir edibdir eşqi-pakın ya Hüseyn
Bəhri-eşqində olub yer-göy həlakın ya Hüseyn
Fərşidən çox ərşdə var sinəçakın ya Hüseyn
Sən o gülsən, gün sənə şəmi-şəbi-kaşanədi
Hər nə ulduz vardı göylərdə sənə pərvanədi

Pak ürəklərdə həmişə payiqahın var sənin
Məhzəri-Xaliqdə vijə cayiqahın var sənin
Bu sütunsuz ərşdə saysız sipahın var sənin
Dər həqiqət şahi-küllü masəvasan ya Hüseyn
Həm yerə, həm göylərə fərmanrəvasan ya Hüseyn

Kərbəla dəştində yalqız, teşnələb qoğa günü
Allaha xatir əl üzdün dəhridən bəlva günü
Hər nəyindən göz yumub çün keçdin Aşura günü
Aləmi-isaridə olmazdı heç kim tay sənə
Kainatın ixtiyarın verdi Allah pay sənə

Olmasa lütfün cahanın çərxi gərdişdən düşər
Ay mədarında dayanmaz gün də tabişdən düşər
Afərineş kargahı yeksərə işdən düşər
Maxələq səndən alır eşqilə fərman ya Hüseyn
Küllü zərrati-əvalim səslənir can ya Hüseyn

Olmasa eşqin xəlayiq hammı cünbeşdən düşər
Göydəki tabəndə ulduzlar dirəxşişdən düşər
And ola Allaha insaniyyət ərzişdən düşər
Səndə vardır bilmirəm aya nə hikmət ya Hüseyn
Məktəbin insanlığa verdi şərafət ya Hüseyn

İlləti vardır belə məczub olub aləm sənə
Qaranı Kəbə geyib qan ağlayır zəmzəm sənə
Ruzi-əvvəl çün tutub Allah özü matəm sənə
Eşq dərsin həyyi əla rütbədən örgənmişik
Qara köynək geyməyi biz Kəbədən öyrənmişik

Qaranı çox izzət ilə hər kim aşiqdir geyər
Hammı aşiq yox, o aşiqlər ki, sadiqdir geyər
Hammı sadiq yox, o sadiqlər ki, layiqdir geyər
Qismət olmaz hər kəsə bu xələti-ziba Hüseyn
Bir kəsə qismət olar təyid edə Zəhra Hüseyn

Sən o dilbərsən ki, sənsiz eşq adı məxduş olar
Baxsa yusiflər cəmalullaha mədhuş olar
Atəşi duzəx də əmr etsən əgər xamuş olar
Var yəqinim gülşəni eşqin talanmaz ya Hüseyn
Nari-eşqində yanan duzəxdə yanmaz ya Hüseyn

Eşqinə dil bağlayan aşiq cahanı neynəyir
Əyləşənlər bəzmi-yasında cinanı neynəyir
Göz yaşın gövhər bilən simü-təlanı neynəyir
Gövhəri-kəmyabı hərgiz xakü-xiştə vermərik
Pərçəminin sayəsin küllü behiştə vermərik

Möhnətin təşrih olanda qəmli dil haşa dözə
Qəlb evi qəmlərdə yandıqca verər fərman gözə
Göz yaşı rüxsarıma əzbəs gərək gözdən süzə
Əşki-qəm təskin verə bəlkə dili-suzəndəyə
Həzrəti Məhdi baxa göz yaşıma əhsən deyə

Qəlbimi bəzmi-qəmində kaş o qədri qəm sıxa
Eyləyə himmət əcəl bu ömrümün sərvin yıxa
Qaran əynimdə, gözümdə qanlı yaş canım çıxa
Kərbəlayə ruh uça, dil şad ola, can dincələ
Başımın üstə Əbəlfəzlin kimi Zəhra gələ

Ölsə bu noyi çatar ovci-kəmalə aşiqin
Eylədi bu arizunu bir sesalə aşiqin
Güşeyi-viransəradə dildə nalə aşiqin
Verdi payan suzi-ahi qüssə və alaminə
Arizusu müstəcab oldu yetişdi kaminə

Əl duada idi o gün can şövqünü başdan ata
Sübh olandan yalvarırdı Allaha gün tez bata
Gün bata viransəradə xəstə ahulər yata
İstəyirdi bəzmi-eşqə bir sərü-saman verə
Məqdəmi-cananına yorqun canın qurban verə

Köhnə qarə köynək əynində qərəz gözlərdə yaş
Ruberusunda o şirindil qızın bir qanlı baş
Alsın ağuşə ata başın edibdir çox təlaş
Sadiq aşiq oldu məşuq ilə bahəm göz-gözə
Qanlı başın gözlərindən öpdü qoydu üz-üzə

Dil tutar-tutmaz dedi ahəstə birdən can baba
Can baba, üryan baba, məzlum baba, ətşan baba
İntizar idim sənə əmməm canı çoxdan baba
Çün bilirsən olmuşam naxoş, gəlibsən ay baba
Hər nə mənzurə gəlibsən, xoş gəlibsən ay baba

Çərxin oynu xətti-bütlan çəkdi ziba oynuma
Firqətində qoymaram bir də daxi əl qoynuma
Gəlməyinlə ay baba minnət qoyubsan boynuma
Gül cəmalın gör nə xakistər tutubdu ax baba
Aç o qanlı gözləri qollarıma bir bax baba

Çoxdu dərdim şərh edib amma səni incitmərəm
Gec gəlibsən eybi yox, əslən gilayə etmərəm
Məhzərindən ta ölüncə mən kənarə getmərəm
Qəlbimin nazik bülurun sındırıblar ay baba
Başıma qəmçi bibimdən çox vurublar ay baba

Həsrətində mən kimi bu evdə çox avarə var
Gözlərim çıxsın baba ziba ləbində yarə var
Qəm yemə hər yarəyə əmməmdə rahi-çarə var
İstəsən gər toxtaya müjdə dili-məyusə ver
Əmməmə yarə dodaqından fəqət bir busə ver

Şövqü-vəslin çox mərizə nüsxeyi-dərman verib
Çox şikəstədil uşağın dərdinə payan verib
Kərbəladan Şamədək yollarda bir-bir can verib
İndi day növbət mənimdi nüsxəmi yaz ay baba
Qəbrimi viranə mənzildə özün qaz ay baba

Kaş qalmaydın o gün Şamın yolunda nizədə
Tək qalıb çöllərdə ölsəydi əgər bu qəmzədə
Dərdimə bikəs bibim yanmazdı bu əndazədə
Naləmi əzbəs yanıb dildən ucaltdım ay baba
Əmməmi viranədə axər qocaltdım ay baba

Gəlməyin viranəyə verdi mənim padaşımı
Başını Allah ucaltsın çox ucaltdın başımı
Kaş gətirərdin özün ilən südəmər qardaşımı
Boynuna qollarımı bir də dolardım ay baba
Əsğərə lay-lay çalıb ondan ölərdim ay baba

## İmam Hüseynin (ə) xütbəsinə işarə

Aman Allah bu duru millətdən
Milləti-buqələmu xislətdən

Aman Allah bu riya əhlindən
Bixəbərdir hamısı qeyrətdən

Məntiq əhlində riya görsənməz
Uzağa salmaz özün rəhmətdən

Bu tohisər qələmi əhli-qələm
Əfv edər çıxsa əgər iffətdən

Bu duru bazi, təzvir və riya
Salıb insaniyyəti izzətdən

Həşr olunca belə bir insanlar
Bəhrəmənd olmalıdı lənətdən

Gündə bir rəngə boyanmaq bəşəri
Endirər mərkəbi şəxsiyyətdən

Kişi yekrəng ola aləmdə gərək
Həft rəng olsa düşər qiymətdən

Çəngi-neyrəngdə kim olsa əsir
Əl üzər daməni-heysiyyətdən

Sirəti-Bu Ləhəb amma özünü
Bu Zərə oxşadacaq surətdən

Salacaq təfrəqə hər məhfildə
Vuracaqdır vəli dəm vəhdətdən

O ki, məkr ilə salıb şövkət ələ
Bu müsəlləmdi düşər şövkətdən

Ta cahan vardı Müaviyyə kimin
Çıxa bilməz ləcəni-zillətdən

Gizlədə bilməz öz əslin heç kim
Yorular fayidəsiz zəhmətdən

Çıxar axər üzə mahiyyətlər
Bilinər kim nədi mahiyyətdən

Mərd odu simü-zərə əyməyə baş
Özünü dur eləyə xiffətdən

Çaplusi birinə eyləməyə
Kəsb edə izzü-şərəf himmətdən

Rubəruda deməyə nokərinəm
Poştisərdə deməyə töhmətdən

Kasəlis olmaya xan ilə bəyə
Ac ölə, rahat ola minnətdən

Atmaya əhdü-vəfanın daşını
Olmaya əhdşikən ümmətdən

Gərək ibrət ala kufəlilərdən
Yəni ol mərdumi-biqeyrətdən

Gəldi Kufə adı ya Rəbb yenə
Yandı qəlbim şərəri-möhnətdən

Etdilər dəvət Əlinin oğlun
Vurdular dəm hamısı beyətdən

O qədər namə yazıb yolladılar
Ta icabət eləsin dəvətdən

Yazdılar yəbnə Əli kufəlilər
Narazıdır hamısı dövlətdən

Müaviyyə oğlu olur daim məst
Özü dilxoşdu fəna ləzzətdən

Bilməyir mərdumi-Kufə nə çəkir
Bixəbərdir o şəqi, millətdən

Kufədə mərdü-zən, pirü-cəvan
Mütənəffirdi o bəd sirətdən

Səbzü-xurrəmdi çəmənlər mövla
Doludur bağlarımız nemətdən

Çeşmələrdən axınır abi-zülal
Suyu şirindi ağa şərbətdən

Bu sudan Əsğərin içsə dil açar
Bizi məhrum eləməz xələtdən

Qürbət ehsas eləməz qızların
İnciməz heç birisi qürbətdən

Baxa bilməz ağa heç kim sənə kəc
Xatirin cəm ola əmniyyətdən

Sərfəraz eylə bizi Kufəyə gəl
Qurtar aşiqlərini həsrətdən

Sən bura lütf eləyib gəlsən əgər
Baş olar Kufə bizə cənnətdən

Atan oldu bizə beş il mövla
Kəsbi-feyz eylədik ol həzərtdən

Bilmədik qədrini əfsus o şəhin
Doymadıq məhzəri por hikmətdən

Əvəzində sənə hörmət edərik
Qismət olsa çıxarıq xiclətdən

Əlqərəz tərki Hicaz etdi Hüseyn
Yer-göyü odladı bu hicrətdən

Kufə mehmanına yol bağlandı
Agəh idi özü də qismətdən

Aldılar namə yazanlar ələ tiğ
Soydular rəxti-vəfa qamətdən

Aman Allah bu duru millətdən
Milləti-buqələmu xislətdən

Kufənin rişbülənd obaşı
Peyrəvi eylədilər zülmətdən

Yarü-ənsari-Hüseyn oldu şəhid
İçdilər şəhd üluhiyyətdən

Tək qalıb səhnədə ol seyyedi-pir
Teşnəlik salmış idı taqətdən

Yenə ba inhəme çün şiri-dəlir
Pəncəsi dolmuş idi qüdrətdən

Baxdıqica o şəhə kufəlilər
Az qalırdı ölələr vəhşətdən

Dedi ay şirnəma rubəhlər
Məni dəvət eləyən əbləhlər

Tanıyın höccəti-Yəzdanəm mən
Xilqəti aləmə bürhanəm mən

O Peyəmbər ki ona ümmətsiz
Cismi-baizzətinə canəm mən

Neynirəm canı nə lazım mənə baş
Azimi-məhzəri-cananəm mən

Eşqi cənnətdən əsən zahidlər
Maliki-rövzeyi-rizavanam mən

Ay o Quran oxuyan qarilər
Tanıyın siz xudi-Quranəm mən

Ay deyən səcdədə sübhanəllah
Runeveşti-Həqqi Sübhanəm mən

Ay cinan bağlarının müştaqı
Cənnətin mülkünə sültanəm mən

Sülki-irfanda olanariflər
Əsli-gülvajeyi-irfanəm mən

Deməरəm heç kəsə rəhm eylə mənə
Məzhəri-həzrəti Rəhmanəm mən

Qorxudursuz kimi baş verməkdən
Teşneyi-xəncəri-bürranəm mən

Doğrasaz qəte beqəte məni gər
Yenə də fatehi-meydanəm mən

Qalacaq zində adım həşrə kimi
Zinəti-dəftərü-divanəm mən

Susuz əldə öləm əhd eyləmişəm
Mücriyi-sadiq peymanəm mən

Lövhi-təqdir əzəldə mən özüm
Yazmışam şahi-şəhidanəm mən

Etmişəm həml o qədər xeyməyə nəş
Odu başdan ayağa qanəm mən

Kim şəhid olsa batar qanə vəli
Ölməmiş qanıma qəltanəm mən

Gör öləndən sonra nolar bədənim
Laleyi-pərpər, talanəm mən

Yox müsəlman bu biyabanda məgər
Axər ey qövm, müsəlmanəm mən

Rəməqim yoxdu verəm söz təhvil
Quruyub ləblərim ətşanəm mən

Kim susuz saxlayar aya qonağın
Bivəfalar sizə mehmanəm mən

Tab edərdim yenə də teşnəliyə
Ayrı bir qəmdə pərişanəm mən

Evimi yıxdı Əbəlfəz ölümü
Odur ki, bisərü-samanəm mən

Beli sınsın belimi sındıranın
Qardaşmdan sonra veylanəm mən

Əkbərimtək o da doğranmışdı
Doğranan cisminə qurbanəm mən

Xeymələrdə mələşir qızlarım
Axərin məlcəyi-tiflanəm mən

Ayrılıq dərdi pozubdur hamısın
Onların dərdinə dərmanəm mən

Kəsmiş idi yolumu xırda qızım
Söyləyirdi sənə reyhanəm mən

Getmə meydana mənə rəhm elə
Görürsən dəst bedamanəm mən

Biri deydi baba yandı cigərim
Biri söylürdü ləbətşanəm mən

Qalmış idi ətəyim əllərdə
O səbəbdən belə nalanəm mən

## İmam Hüseynin (ə) Allah ilə razü-niyazı

Gəlcəyin mahi-Məhərrəm başa qara bağlarıq
Əynimizdə qara köynək ruzü-şəb qan ağlarıq
Yada sallıq ox dağıtmış sinəni qəlb dağlarıq
Biz bu əşki-çəşmi dürrü-porbəhaya vermərik
Cövhəri candır bu göz yaşı fənya vermərik

Xəlq edib Allah gözü tənha Hüseynə ağlaya
Tək nə şiə eyləyə qovğa Hüseynə ağlaya
Bu Məhərrəmdə gərək dünya Hüseynə ağlaya

Yer tuta yerdə əza bəzmin fələklər ağlaşa
Oxşama Zəhra deyə göydə mələklər ağlaşa

Ruhi-ərbabi-fəzail təyyibul-ərvahdir
Çün Hüseyn ibni Əli mərdi-fəna fillahdir
Sahibi-bəzmi-qəm movla xudi-Allahdir
Həzrətin bəzm əzasın biz cinanə verməriк
Kəfşdarisin onun küllü cahana verməriк

And ola ərbabımın imza edən peymanına
Sineyi-məcruhuna, başdan axan al qanına
Təşt içində xeyzəran ilən sınan dəndanına
Gərdi-bəzmin tayiri-quds aşiyana verməriк
Həzrətin tək bir tükün həft asimana verməriк

Uymarıq təbliği-nafərcam naməhrəmlərə
Eşq ilə gəllik həmişə məclisi-matəmlərə
Lazım olsa can da verrik bu qara pərçəmlərə
Yer səfa bəzmində hərgiz hər pəlidə verməriк
Pərçəmin tək bir nəxin Kaxi-Sefidə verməriк

And ola ərbabımın qəlbində rəmzü-razına
Küllü dünyanı təhəyyürdə qoyan ecazına
Bavəfa sərdarına, dil açmayan sərbazına
Kainata Əsğərin feyzi-bəratın verməriк
Aləmin taxt-tacına bəndi-qəmatın verməriк

Feyzi-bəzmi-eşqi ruhü-cismə infaq eylərik
Tab edib hər möhnətə qəm taqətin taq eylərik
Bari digər burda biz təcdidi-misaq eylərik
Cismidən rəxti-əzanı ta nəfəs var soymarıq
Doysa Məcnun Leylisindən biz Hüseyndən doymarıq

Əhli-eşqin başda Alullah ilən sevdası var
Şiənin həm məntiqi, həm əqli, həm ehsası var
Aşiqani-sinəçakın həzrəti Abbası var
Aşina mehrin bəli naaşinaya verməmrik
Biz Əbəlfəzlin adın simü-təlayə verməmrik

Hər iki dünyayə sültandır bizim ərbabımız
Məna və təndisi-Qurandır bizim ərbabımız
Runeveşti Həyyi Sübhandır bizim ərbabımız
Təmtəraqi-aləmə tari-ridasın verməmrik
Gər beheşti versələr matəmsərasın verməmrik

Saldı ol fülki nicat xəlq özün tufanlara
Dəsti-sazeş vermədi şeytannəma insanlara
İştibah dedim, insani-dupa heyvanlara
Mən buyurdu cövhəri-rəghayi-cani-Heydərəm
Bikifayət şəxsə ölləm mən, vəli baş əymərəm

Birbəbir öldürsə düşmən yarımı, yoldaşımı
Doğrasa gər qitə-qitə oğlumu, qardaşımı
Nəhr edib gər vursalar nuki-cidayə başımı
Mən Hüseyn ibni Əliyəm, tən be zillət vermərəm
Rəhbər olsun Hindin oğlu rizayət vermərəm

Alnımı daş, qəlbimi söksə mənim peykan əgər
Qanım ilə üz gözüm olsa mənim əlvan əgər
Qumlar üstə peykərim qalsa mənim üryan əgər
Altı aylıq oğlum olsa qanına qəltan əgər
Çölləri gəzsə həyalı qızlarım veylan əgər

Zeynəbim ağlar dolansa gər kəsilsə çarəsi
Qolları bağlansa, olsa şəhərlər avarəsi
Qarətə getsə Əliyyi-Əsğərin gəhvarəsi
Xeyməgahım yansa kül olsa zəbanə vursa gər
Düşmənim hətta Rübaba taziyanə vursa gər

And ola cəddim Rəsuli-kibriyanın ruhuna
And ola məzlum atamın qüssə və ənduhuna
And ola Zəhra anamın sineyi-məcruhuna
Yer ürək mülkündə hərgiz hər pəlidə verməməm
Dəsti-beyət Hindənin oğlu Yezidə verməməm

Mən əzəl gün yarim ilə əhd-peyman etmişəm
Əhdnaməmdə bu canı bəzli-canan etmişəm
Razi-peymanı hamı üşşaqa elan etmişəm
Kərbəlada oxlara sinəm gərək amac ola
Zülm əlilən barigahım odlana tarac ola

Köhnə tarixi gərəkdir eyləsin qanım təzə
Nəşimin üstündə tazə nəl olan atlar gəzə
Cismimin salim yeri qalsa onu daşlar əzə
Bir hala nəşim qala Zeynəb baxıb ey vay deyə
Zeynəbim ey vay, deyə Zəhra anam lay-lay deyə

Məsti-səhbayi-vəfa çatdı qərəz məqsuduna
Qoydu alnın qətligahın xaki-xun aluduna
Axərin secdəydi həzrət eylədi məbuduna
Sadiq aşiq oxlar altında namazın başladı
Dilbər ilən rubəru razü-niyazın başladı

Gərçi sərtapa vücudi-əthəri məcruh idi
Möhnəti-cansuzi-Həyyi-davərə məşruh idi
Sineyi-suzanı dolu qəmü-ənduh idi
Amma şikayət pişqahi-kibriyayə etmədi
Şikayət qalsın hələ, əslən gilayə etmədi

Bar İlaha! Mən dedi bir dəsti-xalı bəndəyəm
Eşqinin ta vardı sinəmdə nəfəs pabəndəyəm
Şəninin həddində fidyəm olmadı şərməndəyəm
Heyf Hüseynin bundan artıq əqrəbası olmadı
Əfv elə yetmiş nəfərdən çox fədası olmadı

Gərçi oxlar Əsğərimə qəbri qazdı sinədə
Eşq mənşurun bu oxlar gəldi yazdı sinədə
Şərmsaram mən yenə çün yarəm azdı sinədə
Keçməsə gər başdan aşiq, aşiqi-sadiq deyil
Nizələr başında başı gəzməsə aşiq deyil

Mən fənayəm ya Rəbb baş nə lazımdır mənə
Əhli-əyalı neynirəm, yoldaş nə lazımdır mənə
Hər nəyim sənsən, oğul, qardaş nə lazımdır mənə
Şişə misli səngi-kuhi-eşqinə çal canımı
Əzraili qoyma gəlsin sən özün al canımı

Cəbrəilə əmr elə qodalə sayə salmasın
Sayəsilən fasilə burda arayə salmasın
Ruhumu axir nəfəsdə ibtilayə salmasın
Qoy şərari-daği-xorşid ilə yansın peykərim
Rəhmətin sayəsində daldalansın peykərim

Qabil olsa bu çıxan canım sənindir ey Xuda
Səcdəgahımdən axan qanım sənindir ey Xuda
Sineyi-məcruh və şan-şanım sınıbdır ey Xuda
Yenə bu vəzilə ya Rəbb azdı alamım mənim
Heç gilayə etmərəm odlansa əxyamım mənim

Xeymələr əhli sənin öz yarü-mənusundular
Dilşikəstə qızlarım pərbəstə tavusundular
Hər nə övrət, qız, gəlin, var orda namusundular
Razısan xeymən talansın, qoy talansın eybi yox
Sən rıza ol qoy Rüqəyyəm yansa yansın eybi yox

Qoy tökülsün əhli-əyali-dilkəbabım çöllərə
Güllərim solsun, calansın qoy gülabım çöllərə
Yox gilayəm düşsə gər hətta Rübabım çöllərə
Naləsi ətfalımın ərşə ucalsın eybi yox
Qəmçi altında bacım Zeynəb qocalsın eybi yox

Qan içində qoftequda idi hələ mövla Hüseyn
Nagəhan bivasitə gəldi nida can ya Hüseyn
Suzi-qoftarında yandı aləmi-məna Hüseyn
Cavidan etdi bu qan sənlən mənim misaqımı
Ərşimi titrətdi ahın, odladı afaqımı

Topraq üstən başını qaldır məşəqqət çəkməsin
Bundan artıq yaralı alnın əziyyət çəkməsin
Qumlar üstündə yanan sinən riyazət çəkməsin
Bir belə yarayla şikvə etmədin məndən Hüseyn
Başını qalxız yuxarı razıyam səndən Hüseyn

İstəyirsən mən dirildim ölən ənsarını
Qoymayım olsun əsir, dərbedər qızlarını
Qaytarım Bəthaya indi itrəti-ətharını
Eyləyim forən mərəmmət yaralı ehsasını
Bir işarəylən dirildim Əkbəri, Abbasını

Kərbəlada sən bu gün bir ayrı tufan eylədin
Sakinini-ərşi ağlatdın pərişan eylədin
Hammısın gətdin bəla dəştində heyran eylədin
Bu çuxur yerdə nə vüsətli rəvaqın var Hüseyn
Asimanlardan nə qədri gör qonağın var Hüseyn

Yaralı qəlbində eşqin riştəsin içdin Hüseyn
Bir belə məşuq içində sən məni seçdin Hüseyn
Hər nəyindən sən mənə xatir bu gün keçdin Hüseyn
Mən də üqbada kilidi-cənnəti verdim sənə
Tək nə cənnət, ixtiyari-xəlqəti verdim sənə

Oxları mən yolladım bir-bir qucağından öpə
Yolladım daşları alnından, dodağından öpə
Ərşin əhli vermişəm dəstur ayağından öpə
Oğluna yorğun sinəndə qəbri mən qazdım Hüseyn
Cənnətin orda cəvazın adına yazdım Hüseyn

Kərbəla rəngin olub qırmız gülabından Hüseyn
Mətləbi dərk eylirəm mən piçü-tabından Hüseyn
Nagəran olma Rüqəyyənlə, Rübabından Hüseyn
Zeynəbin ətfali-sərgərdanına qəmxar olar
Yollaram nazlı Rüqəyyə Şamə pərçəmdar olar

Ali bir köynək geyibsən çox mübarəkdir Hüseyn
Həm yaraşır əyninə, həm rəngi göyçəkdir Hüseyn
Doqquz səmanı ağladan köynək bu köynəkdir Hüseyn
Mən ki, istərdim vuram bir qanlı pərçəm ərşidə
Aslaram bu köynəyi hər il məhərrəm ərşidə

Heyf onun oxlar pozubdu nəqşə və şirazəsin
Qəddinin indi gələr Zəhra tutar əndazəsin
Soysa düşmən eybi yox eylər təhiyyə tazəsin
Allam əllərdən hüzurumda əmanət saxlaram
Sevgilim Zəhrayə əsbabi-şəfaət saxlaram

Qan içində düşdü mövlanın Mədinə yadına
Qəmli qəbristandaki pünhan dəfinə yadına
Düşdü odlanmış qapıyla, qanlı sinə yadına
Sinəsindən süzdü qanı yerdə yazdı can ana
Yarəli sinəm yaralı sinənə qurban ana

Gəl Hüseynin bərhəm olmuş təmtərağın gör ana
Qırmızı qanilə fərş olmuş otağın gör ana
Parçalanmış sinəsin alnın dodağın gör ana
Peykəri-sədparəmi ağuşə al lay-lay denən
Sən kimi nohə deyən olmaz Hüseynim vay denən

Hər nə qədri oxşasan oxşa Hüseynə ay ana
İnciyər sinən yarası, vurma sinə ay ana
Sən de növhə, sinə qoy vursun Səkinə ay ana
Qəm xədəngilən denən Zeynəb də qəlbin yarmasın
Başımı düşmən kəsəndə qatilə yalvarmasın

Əşki-çeşmilən Xudayi yazdı bu qəmnaməni
Möhnətin gətdi nəvayə dəftəri-həm xaməni
Salma gözdən sən bil Abbasın canı mövla məni
Dəsti-xali nokərin ver imtiyazın ya Hüseyn
Şerimin artır özün suzü-qüdazın ya Hüseyn

## Həzrət Zeynəbin (s.ə) əhvalatı və qətligah hadisəsinə işarə

Zinətdi Zeynəbin adı qəmli məhafilə
Zinət tapar ürəklər adı gəlcəyin dilə

Zeynəb səriri-iffət və izzətdə bimisal
Eynən anası Fatimə banuyi-fazilə

Sinnindən artıqdı zibəs qəmli günləri
Çatdı uşaq çağında xanım həddi-kamilə

Verdi fələk ona siməti-xanədarini
Tainki sinni-salı onun çatdı beş ilə

Beş yaşda bir uşaq nə bilir xanədarini
Etdin fələk əcəb sən onilən muamilə

Hərdəm açardı Fatimənin bağlı boxçasın
Ondan dolandırdardı üzün Həyyi adilə

Agəhsən ey Xuda anam öldü nə dərdilən
Səndən sora kim oldu onun dərdini bilən

Nili üzün babam ölüncək görmədi
Yannam nə qədər var nəfəsim mən bu nisgilə

Bir gün məni çağırdı qolun saldı boynuma
İstirdi bir əlilə gözüm yaşını silə

Amma yuxarı gəlmədi sədmə görən qolu
Möhtac idi yuxarı gələ qol həma ilə

Əlqissə başladı sözünü natəvan anam
Var bir-iki vəsiyyətim ay doxti-aqilə

Az ömrümün buyurdu qızım sənsən hasili
Sinnin uşaq da olsa çatıbsan kamilə

Şərməndəyəm sənə analıq eləyənmədim
Vardır yeri anandan əgər eyləsən gilə

Məndən sonra Hüseyn və Həsən qoyma ağlaya
Xoşhal otur atan ki, qızım gəldi mənzilə

Dildarlıq ver, öp üzünü, halını soruş
Bənzər zəmanə çün ona zəhri-həlahilə

Cəddin Rəsulə and ola məzlumdur Əli
Qəsb oldu həqqi and ola xəllaqi-bazilə

Birdə qızım Hüseynə səni qardaş eylirəm
Elə şərik onunla özün çox məsailə

Var qəmli bir müsafirəti üstün açmıram
Sinə gülüm müvaceh olar çoxlu müşkülə

Bir gün olar bu mən toxuyan köynəyin geyər
Edər vida böyükdən uşağa besilsilə

Sənlən vida edəndə qızım sən boğazın öp
Amadə et özünü sonra ayrı mərahilə

İllər dolandı əlqərəz oldu həman zaman
Zəhra vəsiyyət etdiyi söz çatdı hasilə

Zeynəb Hüseynin öpdü boğazından ağladı
Düşdü Hüseyn yola eylədi tərki-qafilə

Ya Rəbb dedi balalrımın sən pənahı ol
Lütf eylə bağrıqan bacıma səbrü-hövsələ

Dəryayi-möhnət oldu o gün ayrılıq vəli
Zeynəb çəkənmədi özünü suyi-sahilə

Səsləndi gəl hərayə amandı cavan ana
Bu müşkülüm müsavidi küllü məşakilə

Mən məqtələ ana gedirəm sən də gəl ora
Düşmüş Hüseynim indi kəməndi-müqatilə

Əlqissə gəldi məqtələ Zeynəb ayaqyalın
Rəşə düşübdü cismidə küllü məfasilə

Gördü Hüseyni yarəli, Şimrin əlində tiğ
Qəssablar misalı vurub damənin belə

Hansı bacı dözər kəsilə qardaşın başı
Ol keşməkeşdə eylədi Zeynəb müdaxilə

Ya Fatimə deyib əlini atdı xəncərə
Şimrilə etdi Fatimə şiri müqabilə

Oldu qərəz o xəncərin üstündə keşməkeş
Düşdü yəqin varım dili-rizvanə vəlvələ

Xəncər təkan edəndə xanım getdi haldan
Düşdü yarəli qəlbi fişarə, təzəlzülə

Yandım gəl, ay dedi qapısı odlanan ana
Gəl gör kim ilə Zeynəbin eylir mücadilə

Yandım ana sədası, Hüseynə verib təkan
Açdı gözün salıbdı nəzər dövrü-məqtələ

Gördü nə halda Zeynəbini oldu nimxiz
Çox zəhmət ilə açdı dodağın gəlib dilə

Səsləndi ay anam əvəzi mehriban bacı
Öldürdü qeyrətim məni yalvarma qatilə

Get xeyməgahə qızlarımın nagiranıyam
İndi balalarım dağılıb agəhəm çölə

Sənsiz Hüseyn dedi daxi dünyanı neynirəm
Eylə dua bacın da anamoğlu tez ölə

Dincəlmərəm Hüseyn canı day mən bu dəhridə
Eylə dua bacın ölə ta bəlkə dincələ

Qürbət məkanda vardı kimim gər sən olmasan
İzhar edim ürək sözümü hansı familə

# Dubeyt

**Aşağıdakı dubeyti bu şer toplusunun redaktə edilməsində çoxlu zəhməti olmuş Hacı Tahir Bədəxşan yazmışdır:**

Gün dolansa, məni də dərk eləsə peyki-əcəl
Gərçi kəmdir aparam, qəbr evinə yaxşı əməl
Dil açan gündən elə mən də Hüseyn vay demişəm
Ya Hüseyn! Sən də məni qəbridə fəryadıma gəl

# Zeynəbi-Kübranın (s.ə) qətligahda növhəsi

Ey qəlbinin qanı axan səhralara ətşan Hüseynim
Əlqəmə həsrətlən baxan çəşmi-tərə qurban Hüseynim
Yaraların bağlar anam – sinə vurub ağlar anam
Ey nuri-eynim – məzlum Hüseynim

Verdin fəda yetmiş iki simin bədən Qurana qardaş
Heç fədaya çatmaz dəhridə sən bəzl edən qurbana qardaş
Verdin fəda Əsğər kimi xunindəhən dürdanə qardaş
Sinən sənin sədparədi – Əsğərimə gəhvaradı
Yaraların bağlar anam – sinə vurub ağlar anam
Ey nuri-eynim – məzlum Hüseynim

Düşdün yaralı məqtələ ey bikəfən bizdən aralı
Başın yara, həncər yara, üryan bədən, yeksər yaralı
Zeynəbin oldu dərbedər, qərqi-mühən, daim əzalı

Boğazından axar qanın – Zəhra başa yaxar qanın
Yaraların bağlar anam – sinə vurub ağlar anam
Ey nuri-eynim – məzlum Hüseynim

Əl-əyaq çalma isti qumlar üstə yandırma cahanı
Sürünmə xeymə səmtinə ey Zeynəbin arami canı
Bəlaya saldı yaralı sürünməyin ərzü-səmanı
Başın kəsir düşmən əxa – qəmli bacın baxa-baxa
Yaraların bağlar anam – sinə vurub ağlar anam
Ey nuri-eynim – məzlum Hüseynim

Dərs almışam ruzi-əzəl odlanmağı pərvanələrdən
Olma əzizim nagəran, nalan qalan dürdanələrdən
İdamə verrəm nehzəti-payəndəni viranələrdən
Pərçəmini allam ələ, dünyanə sallam vəlvələ
Yaraların bağlar anam – sinə vurub ağlar anam
Ey nuri-eynim – məzlum Hüseynim

Vurma dodağın bir-birə, saxla hələ əzkarı qardaş
Ləblərin yarasından çünki olur qan cari qardaş
Yaraların qanı edir daş-torpağı gülnari qardaş
Çarə olar çox yarana, olmaz dava ox yarana
Yaraların bağlar anam – sinə vurub ağlar anam
Ey nuri-eynim – məzlum Hüseynim

## Qətligahda həzrət Zeynəbin (s.ə) həzrət Əbəlfəzdən (ə) kömək istəməsi

Düşdü Hüseyn yaralı
Səhradə ya Əbəlfəz
Əlqəmdə yatma tez gəl
İmdadə ya Əbəlfəz

Avarədir bu çöldə
Qəlbi yaralı Zeynəb
Dadə kimi çağırsın
Başı bəlalı Zeynəb

Fülkü nicati aləm
Tufanə düşdü qardaş
Ey vay Hüseyn nəvası
Hər yanə düşdü qardaş
Əhli hərəm bəlayi
Suzanə düşdü qardaş
Yoxdur çatan bu çöldə
Fərayadə ya Əbəlfəz

Əfğan səsi hərəmdən
Qozandı mehrü-mahə
Ətşan süründü düşdü
Qodali-qətligahə
Dil dağlı təşnə Yusif
Güya yıxıldı çahə
Yerdə açıbdı qandan
Səccadə ya Əbəlfəz

Halü-həvayi məqtəl
Fəsli-bəharə bənzər
Səf bağlayıbdı oxlar
Bərg üstə xarə bənzər
Qırmız gülə bədəndə
Hər qanlı yarə bənzər
Gül dərməyə gəlibdi
Zəhra də ya Əbəlfəz

Ya Hu deyir dəmadəm
Parçalanan dodağı
Dildən salıb vücudun
Qardaşının fəraqı
Gər görgilən nə halda
Kərbübəla qonağı
Ətşan düşübdü dəsti
Cəlladə ya Əbəlfəz

Gəlsin əxa hərayə
Qürbət ara kimim var
Bikəs bacın bu çöldə
Getsin hara kimin var
Səhrayi por bəlada
Səndən sonra kimim var
Qardaş yaman günümdü
Gəl dadə ya Əbəlfəz

Qovğa düşübdü əlan
Dəşti-nəvayə qardaş
Qardaşını salıbdı
Düşmən arayə qardaş
Kərkəslər əl tapıblar
Zəhmi-hümayə qardaş
Can qalmayıbdı yorğun
Ünqadə ya Əbəlfəz

Geysin kəfən, sorağlar
Rəxti-əza geyənlər
Ey vay baba deyillər
Yandım əmu deyənlər
Əlan ölüm gəzillər

Səndən su istəyillər
Güya gəlibdi məhşər
İcadə ya Əbəlfəz

## Həzrət Zeynəb (s.ə) imam Hüseynin (ə) qətligahında

Ey axan ətşan bədəndən məqtələ qanı Hüseynim
Qan aparımış cana qurban Zeynəbin canı Hüseynim
Aləmin sültanı qardaş – Fatimə reyhanı qardaş

Rəglərintək gülsütanda şaxeyi-reyhan kəsilməz
Heç Minada teşnə qardaş sən kimi qurban kəsilməz
Vay mənə Zəhra gəlincək rəglərindən qan kəsilməz
Çarə etsin Zeynəbin yox əldə imkanı Hüseynim
Aləmin sültanı qardaş – Fatimə reyhanı qardaş

Peykərin başdan ayağa tuş olub peykanə, oxdu
Cismi pakü-əthərindən bəski qardaş yarə çoxdu
Zeynəbə bir cayi-busə bəski yarə çoxdu, yoxdu
Neyləyər görsə anam gər, cismi şan-şanı Hüsyenim
Aləmin sültanı qardaş – Fatimə reyhanı qardaş

Qan süzüb başdan, tutulmuş aya bənzər gül cəmalın
Sinən üstə olubdur yaralar ziba medalın
Görsə cismin öldürəllər özlərin əhli-əyalın
Qızların qalxar səmayə ahü-əfəğanı Hüseynim
Aləmin sültanı qardaş – Fatimə reyhanı qardaş

Qoysalar gər çəkmərəm əl qanilən əlvan ətəkdən
Ox sökən qəlbə doyunca eylərəm əfğan ürəkdən
Çeşmə misli qaynayır hey qəlbinin qanı kürəkdən

Yandırar sinən yarası hər müsəlmanı Hüseynim
Aləmin sültanı qardaş – Fatimə reyhanı qardaş

Bu dağılmış nəşə Zeynəb can verincə sinə dağlar
Su görən vəxtə salar hey ləblərini yadə ağlar
Başına qəmdidə bacın ta ölüncə qarə bağlar
Day fələk görməz bacında ruyi-xəndan Hüseynim
Aləmin sültanı qardaş – Fatimə reyhanı qardaş

Yadıma hər an düşəndə qəmlərin sollam sarallam
And ola Zəhrayə qardaş qanını düşməndən allam
Şamə getsəm gər Yezidi təxtidən nitqimlə sallam
Eylərəm rüsva cahanda Ali-Süfyanı Hüseynim
Aləmin sültanı qardaş – Fatimə reyhanı qardaş

# Qətilagah əhvalatı

Sərbesər səhneyi-meydanı Hüseyn
Bəzəyibdi boğazın qanı Hüseyn
Axtarır nəşini səs ver bacına
Səni Zəhra anamın canı Hüseyn
Zeynəbin yarı oyan
Yarü-qəmxarı oyan

Gəlmişəm məqtələ ey vay deməyə
Vurmağa sinə Hüseyn vay deməyə
Fürsət olsa əvəzindən anamın
Yarəli cisminə lay-lay deməyə
Zeynəbin yarı oyan
Yarü-qəmxarı oyan

Nə dəlilə uca qəddin bükülüb
Ox dəyib olmaya qəlbin sökülüb
Gözlərindən iraq olsun gözəlim
Çöllərə əhli-əyalın tökülüb
Zeynəbin yarı oyan
Yarü-qəmxarı oyan

Peykəri-əthərinin yaraləri
Ağladır göydəki səyyarələri
Öldürər özlərini görsə səni
Zeynəbin çöldəki avaraləri
Zeynəbin yarı oyan
Yarü-qəmxarı oyan

Bənzəyir gülşənə sinən yarası
Yas ilən susənə sinən yarası
Ayrı bir cilvə verib məqtəl ara
Köhnə pirahənə sinən yarası
Zeynəbin yarı oyan
Yarü-qəmxarı oyan

Başının üstünə Taha gələcək
Etməyə təziyə bərpa gələcək
Deməyə oxşama məqtəldə sənə
Çöllər avarəsi Zəhra gələcək
Zeynəbin yarı oyan
Yarü-qəmxarı oyan

Eybi yoxdur səsimi alma Hüseyn
Zəhmətə peykərini salma Hüseyn
And verirəm səni Əkbər canına
Qan içində əl-əyaq çalma Hüseyn

Zeynəbin yarı oyan
Yarü-qəmxarı oyan

Çarəm olsa yaranı bağlayaram
Getmərəm xeyməyə dil dağlayaram
And ola canına ta var nəfəsim
Teşnə can verməyinə ağlayaram
Zeynəbin yarı oyan
Yarü-qəmxarı oyan

## Qarət əhvalatı və şami-qəribana işarə

Sədəfi-tahirədən tahirə gövhər Zeynəb
Dili-bikinə və əndişəsi əthər Zeynəb

Sözü şirazeyi-müstəhkəmi-divani-zəfər
Özü hər səhneyi-bəlvada müzəffər Zeynəb

Nitqinin çeşməsi sərçeşmeyi-dəryayi-zəfər
Xütbəsi kəştiyi-heysiyyətə ləngər Zeynəb

Ürəyi mövci-xüruşan və zəmiri-himmət
Sinəsi şakileyi-qeyrətə məsdər Zeynəb

Məğzi gəncineyi-idrak, şüur və məna
Ruhi-bivahiməsi cürətə bəstər Zeynəb

Nəfəsi dibaçeyi-mənşuri-vəzini-izzət
Nəfəsi zaiqeyi-zillətə əxgər Zeynəb

Qanının sirri qüruhi-səmər azadi
İmtidadi rəgi-hürriyyətə mehvər Zeynəb

Alnının xətti təriqullah və minhaci-üruc
Gözləri şəhdi-üluhiyyətə sağər Zeynəb

Məbdəyi-seyri-fəna fillahı qabi-qövseyn
Məqsədi dərkdən ula və fəratər Zeynəb

Cayi-pa və qədəmi cəhd və şəhamət qafi
Sayeyi-pəncəsi ünqalərə şəhpər Zeynəb

Cilveyi-həbli-mətin üzdə nəxi-rubəndi
İffəti-Məryəmə çadurşəbi məzhər Zeynəb

Təpişi-qəlbi yanan dildə vəfa naqusi
Əhdi yövmü əzələ sirəsi mənzər Zeynəb

Cərsi-nəbzi cəfa zümrəsinə bangi-xətər
Həncəri-müstəbidə idəsi xəncər Zeynəb

Bəsdi mədhində bu bir cümlə, bəla dəştində
Oldu həmsəngəri-Abbas dilavər Zeynəb

Əsri-Aşurada ol həlhəleyi-qarətdə
Durdu bir ləşkəri-şum ilə bərabər Zeynəb

Çəkdi bir-bir od içinədən mələşən qızları
Vurdu odlarda göyərçin misalı pər Zeynəb

Qarətin rövzəsini xəlqə gərək Məhdi deyə
O bilir, gördü o böhranda nə məhşər Zeynəb

Gah qaçıb məqtələ, gah qaçdı yanan xeymələrə
O Səfa, Mərvəni səy etdi mükərrər Zeynəb

Odların istisinə, xeymələrin tüstüsünə
Xəbər alma necə tab eylədi müztər Zeynəb

Yummamışdı gözünü üç gecə-gündüz o xanım
Nə də etmişdi sudan dil-dodağın tər Zeynəb

Dili ağzında dolanmırdı ətəşdən danışa
Külə dönmüşdü o gülbərgi-müəttər Zeynəb

Hər nə səy etdi deyə bilmədi bir can qardaş
Düşdü dildən o həyahuda süxənvər Zeynəb

Ayrılanmırdı Hüseynin yaralı nəşindən
Dolanırdı səri-qodalə müdəvvər Zeynəb

Gəldi bir səs bacı qaç xeymələrə yandı balam
O məriz oğluma ol xeymədə yavər Zeynəb

Çəkdi Səccad ağanı ta o yanan çadırdan
Heyrətə maxələqi saldı sərasər Zeynəb

Bərəkəllah belə isarə səmadan dedilər
Yəni ərş əhli hamı Zeynəbə əhsən dedilər

Hərəm ahuları çöllərdə deyir ya Zeynəb
Tuş olan pənceyi-namərdə deyir ya Zeynəb

Ağzı üstündə qaçan vəxtdə yerə bəzi uşaq
Yıxılır quşeyi-məbərdə deyir ya Zeynəb

Səhneyi-məhşərə bənzir ağamın xeymələri
Od içində hərə bir yerdə deyir ya Zeynəb

Yel əsir, şölə pərakəndə olur ətrafə
Alışır hansı sərapərdə deyir ya Zeynəb

Kərbəla atəşi guya salıb afaqə şərər
Şəhri-Yəsribdə yanan dər də deyir ya Zeynəb

Hərə bir yanə o tufanda qaçır əl başda
Kim düşür harda çətin dərdə deyir ya Zeynəb

Bəzi əl başda hərayə çağırır Abbası
Nəşi-Abbas dilavər də deyir ya Zeynəb

Səslənir bəzi uşaq hardasan Əkbər qardaş
Qan içində Əli Əkbər də deyir ya Zeynəb

Bala vay səslər o gecə ürəyi yarə Rübab
Səs qoşub Əkbərə Əsğər də deyir ya Zeynəb

Taziyanylə vuran vəxtə qoşun Leylanı
Xəncər altındakı həncər də deyir ya Zeynəb

Pabürəhə dolanır orda rüsül ərvahı
Əli qoynunda Peyəmbər də deyir ya Zeynəb

Nəcəfə sarı qaçanlar çağırır ya Heydər
Ahü-əfğanilə Heydər də deyir ya Zeynəb

Atların dizlərinə hər bala qız ki, dolaşır
Ələyir əşki rüxi-zərdə deyir ya Zeynəb

Hamıdan görməli üç yaşda şirindil qızdı
O da bir şöleyi-digərdə deyir ya Zeynəb

Gah qaçır, gah oturur, yarə qulaqda bir əli
Bir əli başdakı məcərdə deyir ya Zeynəb

Möhnətindən o qızın, yarə bədən məqtəldə
Öldü xırda anam əllərdə deyir ya Zeynəb

Yandırıb əl-ayağın şölə, sınıb qol-qanadı
Balü-pər yox o kəbutər də deyir ya Zeynəb

Əlinə fikr eləmə al balamı əllərdən
Qalmadı can o mələkfərdə deyir ya Zeynəb

Qətlü-qarət hələ qalsın ki, tamam oldu necə
Gün batıb suzi-qüdazilə qərəz oldu gecə

Demədi Zeynəbinəm, bəxti qarayam qardaş
Demədi oğlum ölüb qərqi-nəvayam qardaş

Demədi yürüşü-qarətdə sınıb qol-qanadım
Demədi xəsteyi-gerdabi-əzayam qardaş

Demədi nisfi yanan xeymə mənə niskil olub
Demədi teşnə, biabü-qəzayam qardaş

Yeddi qardaşı ölən bir bacının vəqrinə bax
Demədi bəsteyi-zənciri-cəfayam qardaş

Dedi əhli-hərəmindən nigəran olma Hüseyn
Mən özüm zamini-cani-üsərayam qardaş

Min belə qəm tökülə başıma bir ax demərəm
Sənə xatir nə bəla gəlsə rizayam qardaş

Ey gülü-Fatimə sən şəmi-fəna fillahsan
Mən də pərvanə kimi səndə fənayam qardaş

Öldü Səqqa belə fikr eyləmə yatdı ələmin
Hafizi-pərçəmi-sorxi-şühədayam qardaş

Qoymaram qanı bata teşnə ölən qardaşımın
Alaram qanını pabəndi-vəfayam qardaş

Qanadım altına cəm eyləmişəm qızlarını
Xəstə teyhulərə dil dağlı hümayam qardaş

İncidib qızlarını qəmçi, çoxu yarəlidi
Naxoş ətfalına məşğuli-dəvayam qardaş

Beş yaşımdan işim aləmdə yara bağlamadı
Azmun dideyi hər dərdü-bəlayam qardaş

Bağlaya bilmədim əfsus sənin yarələrin
O səbəbdən belə əfsürdə nümayam qardaş

Ürəyin yarəsinə heç yara çatmaz Hüseyn
Heç yaralı qan içində belə yatmaz Hüseyn

# Xeymələrin qarət olunması və həzrət Zeynəbin (s.ə) həzrət Əbəlfəzə (ə) xitabı

**Növhə**

Əlqəmdə yatma xeyməm odlandı ya Əbəlfəz
Gəl gör nə xeymələrdə tufandı ya Əbəlfəz
Bu çöldə düşdü çox bəlayə Zeynəb
Kimi var səsləsin hərayə Zeynəb

Düşmən dolub xiyamə əllərdə taziyanə
Bikəsləri vurullar qəmçilə vəhşiyanə
Qəlbi yaralı qızlar səslillər yanə-yanə
Gəl, sinələr cəfadan şan-şandı ya Əbəlfəz

Qəmçi dəyib yaşıl gül bir-bir açıb biləklər
Atlar ayağı altda pər-pər olub çiçəklər
Qəmdə yanan ürəktək odda yanır ətəklər
Əl başda əhli xeymə nalandı ya Əbəlfəz

Tüğyana Kərbəladə əhli-sitəm gəlibdi
Fəryadıma bu çöldə mənusi-qəm gəlibdi
Əllər başında yəni nalan anam gəlibdi
Qəmli anam da burda veylandı ya Əbəlfəz

Nəhri-Fəratın üstə ahü-fəğanda qaldın
Bizdən niyə aralı xeymə yananda qaldın
Ay Zeynəbin pənahı getdin hayanda qaldın
Səccadım od içində gəl yandı ya Əbəlfəz

Bəski tikan batıbdı sədparədi ayaqlar
Düşmənlərin səsindən titrər susuz dodaqlar

Tüstü, duman içində hammı səni sorağlar
Qəmdən yaralı dillər virandı ya Əbəlfəz

## Şami-qəribanda həzrət Zeynəbin (ə) növhəsi

Səfalı xeyməm talanıb qardaş
Ürəklərə qəm qalanıb qardaş
Yanan çadırda bu gecə yorğun
Hərəmlərin daldalanıb qardaş
Ey şahi-şəhidan
Canım sənə qurban

Nəvalar ərşə ucalıb qardaş
Qərarımı əldən alıb qardaş
Dolanda ləşkər yanan əxyamə
Bəlalı Zeynəb qocalıb qardaş
Ey şahi-şəhidan
Canım sənə qurban

Ənisi-dərdü-mühənəm qardaş
Mənə qəm öyrətdi anam qardaş
Ölüb Əbəlfəz nigəran olma
Hərəm nigəhbanı mənəm qardaş
Ey şahi-şəhidan
Canım sənə qurban

Rüqəyyəmin əşki coşur qardaş
Rübab ona nohə qoşur qardaş
Səfalıdı şami-qəribanın
Çölün vühuşu mələşir qardaş
Ey şahi-şəhidan
Canım sənə qurban

Başın çıxıb dara sənin qardaş
Qalıbdı üryan bədənin qardaş
Sənə gecə Xuli tənurunda
Qonaq olar qəmli anan qardaş
Ey şahi-şəhidan
Canım sənə qurban

## Kərbəladan çıxış və həzrət Zeynəbin (s.ə) Kərbəla ilə dərdləşməsi

Ey sərzəmini-teşnə və suzəndə Kərbəla
Ey şahi-eşqə mədfəni-ərzəndə Kərbəla

Teşnə idin etdilər səni sirab qan ilən
Yetmiş iki mücahid və rəzməndə Kərbəla

Binam, binişan yer idin müntəha bu gün
Adın ucaldı oldu bərazəndə Kərbəla

Hüccaci-eşq Kəbə kimi şot edər səni
Beyti-Xudanı saxlar adın zində Kərbəla

Xorşid göydə səndən alar rövşənayisin
Sənlən olar cəmalı dirəxşəndə Kərbəla

Ərşi-Xudada daim əsər qanlı pərçəmin
Ətrin olar səmada pərakəndə Kərbəla

Pərvanələr yanə-yanə səslərlər ya Hüseyn
Şəmin olar həmişə füruzəndə Kərbəla

Zeynəb cəlalü-cahilə gəldi qonaq sənə
Qəlbin qəm ilə eylədin akəndə Kərbəla

Saldın bəlayə Fatimənin qəmli qızların
Dəfn oldu arzularımız səndə Kərbəla

Qana boyandı səndə o qeyrətli qardaşım
Əhli hərəmdən oldu sərəfkəndə Kərbəla

Su sözü verdi Əsğərə amma gələnmədi
Qaldı kənari-nəhridə şərməndə Kərbəla

Yandı xiyəm töküldü çölə teşnə qızlarım
Qaldı Əli əzizəsi dərmandə Kərbəla

Gülzarımı xəzan dağıdıb səpdi çöllərə
Hər bir gül oldu xarə pənahəndə Kərbəla

Çoxdur sözüm vəli deməyə azdı fürsətim
Daşlar sayanda vardı mühən məndə Kərbəla

Saxla əmanət əşgimlə ahi-sərdimi
Axər yol üstə şərh eləyim hansı dərdimi

Səndən gileylidi dili-sədparə Kərbəla
Yannam baxanda qüssəli qızlara Kərbəla

Soyğunçular nə halə salıb gör bu qızları
Çoxlarının qulağı olub yarə Kərbəla

Qan ləxtəsi dolubdu Rüqəyyə qulağına
Güya salıbdı qırmızı güşvarə Kərbəla

Bir haldadır ki, əmməsi ölsün tanınmır
Sili edibdi ağ üzünü qarə Kərbəla

Bəzi qızın yanıbdı alovlarda üz-gözü
Şölə qabar salıb ləbü-rüxsarə Kərbəla

Bəzi uşaq deyir hələ də yandım ay bibi
Hansı bəlalıya yetirim çarə Kərbəla

Bəzisi ağzı üstə qaçanda dəyib yerə
Xırda dodağı daşlar edib parə Kərbəla

Bəzisinin dolubdu ayağı tikan ilən
Bəski ayaqları toxanıb xarə Kərbəla

Əsğər nə çünkü adət edib gahvarəyə
Lütfün əyan elə o şirxarə Kərbəla

Yorğundu hər gecə sən o dilsiz kəbutərə
Elə o qanlı sinəni gəhvarə Kərbəla

Cəbrilə sən ayırdın anasından eybi yox
Saldın Rübabı çöllərə avarə Kərbəla

Çox xas bir əziz qonağın vardı bu gecə
İsaların çəkibdi ədu darə Kərbəla

Zəhra anam gəlibdi Hüseyn vay deyə-deyə
Hörmət elə o qüssəli züvvarə Kərbəla

Sən gözlə qətligahda anam sinə vurmasın
Çün sinəsində var anamın yarə Kərbəla

## Ya Zeynəbi-Kübra (ə)

Aşiqə qibleyi-hacətdi Hüseynin bacısı
Məqsədi-rahi-səadətdi Hüseynin bacısı

Zeynəb oldu xanımın nami-şərifi, yəni
Həzrəti Heydərə zinətdi Hüseynin bacısı

Nə fəqət şiə bu ali nəsəbə fəxr eləyir
Fəxri küllü bəşəriyyətdi Hüseynin bacısı

Himmətin vajəsinə himməti məna verdi
Əsli-gülvajeyi-himmətdi Hüseynin bacısı

Hara getdi ucalandırdı vilayət ələmin
Dəsti-yariyyi-vilayətdi Hüseynin bacısı

Kuhi-qeyrət baş əyər Mürtəzəvi qeyrətinə
Deji-müstəhkəmi-qeyrətdi Hüseynin bacısı

Demə cürət ona irsiyyə Əlidən yetişib
Dər həqiqət xudi-cürətdi Hüseynin bacısı

Nə fəqət səbridə dəryadı bu gerdun xədəmə
Bəhri-pormövci-şəhamətdi Hüseynin bacısı

Adına tək nə fəqət dəydi əsirlik sənədi
Varisi-xuni-şəhadətdi Hüseynin bacısı

Atası Heydər öpərdi gülə bənzər üzünü
Söyləyərdi gili-xilqətdi Hüseynin bacısı

Kaş olardın qızımın indi baxaydın boyuna
Bilməyirsən nə qiyamətdi Hüseynin bacısı

Yol gedəndə elə bil oğlum Əbəlfəz yeriyir
Kuhi-səngin səlabətdi Hüseynin bacısı

Bəd nəzərlər nəzərindən uzaq olsun, Zəhra
Maşallah uca qamətdi Hüseynin bacısı

Danışqda mənə var oxşarı, gözlərdə sənə
Ləfzi-gülrizi fəsahətdi Hüseynin bacısı

Oxşayır gözləri qan ləkkəsi dolmuş gözünə
Doğrusu, Fatimə tələtdi Hüseynin bacısı

Bir xəbər vardı xanım etsə inayət yazaram
Mənə lütf eyləsə minnətdi Hüseynin bacısı

Kufə şəhrində Əli hakim olub İslama
Vijə mehmani-hökumətdi Hüseynin bacısı

İstifadə eləyirdi nəzərindən mövla
Çünkü dəryayi-dirayətdi Hüseynin bacısı

Məktəb açmışdı xanım Kufənin övrətlərinə
Çün ələmdari-hidayətdi Hüseynin bacısı

Eləyərdi sipəri Kufədə xoş günlərini
Agəh idi bu da hikmətdi, Hüseynin bacısı

Bir günü daxil olub hücreyi-mövlaya xanım
Qədəm atsa hara rəhmətdi Hüseynin bacısı

Məhzəri-şahidə əyləşdi dizi üstündə
Nəyyiri-hücbü-nəzakətdi Hüseynin bacısı

Baxdı mövlayə tərəf tökdü üzə göz yaşını
Ağlayıb həzrəti ağlatdı Hüseynin bacısı

Göz yaşı gözdə baxıb həzrətə ərz etdi baba
Sən üçün mayeyi-zəhmətdi Hüseynin bacısı

Ey təbib ki, dəvadır baxışın hər mərəzə
Yenə möhtaci-təbabətdi Hüseynin bacısı

Ey şəhi-mülk əlini çək başıma
Saili-mehrü-məhəbbətdi Hüseynin bacısı

Əllərindən babacan qoy anamın ətrin alım
Fatimə ətrinə həsrətdi Hüseynin bacısı

Heç doyunca anam əl çəkmədi qəmli başıma
Odu möhtaci-şəfəqqətdi Hüseynin bacısı

Ey məqu sirlərin məhrəm və agahı baba
Yenə qərqi-qəmü-möhnətdi Hüseynin bacısı

Bax mənə göz dolusu gör tanıyırsan qızını?
Hansı möhnətdən əlamətdi Hüseynin bacısı

Hay-hay ilə Əli ağladı, durdu ayağa
Dedi aya bu nə söhbətdi Hüseynin bacısı

Rubərudə oturan qız adımın zinətidi
Başıma taci-şərafətdi Hüseynin bacısı

Sən mənim Fatimənin Zeynəbi dürdanəsisən
Səni görmək mənə ləzzətdi Hüseynin bacısı

Sən mənim and ola Zəhrayə cigər bəndimsən
Gül vücudun mənə nemətdi Hüseynin bacısı

Büğzümün şişəsi sındı eşidəndə bu sözü
Naləyə Fatiməni gətdi Hüseynin bacısı

Dedi bir yol da mənə baxgilən diqqətlə baba
Sənilə qəmdə həmülfətdi Hüseynin bacısı

Ver icazə dili-pordərdi yaralı qızına
Rubərudə oturan qəmli deyim kimdi baba

Ana yasında o qız ki, baş açırdı o mənəm
Ana tabutunun ardıca qaçırdı o mənəm

O qız ki, qəmini fori bilərdi o mənəm
Gözünün yaşını ahəstə silərdi o mənəm

Qara köynək o ki, beş sinnidə geydi o mənəm
O ki, ahəstə durub oxşama deydi o mənəm

O ki, rüxsarına həsrətlə baxardı o mənəm
Baxdıqica üzünə, əşki axardı o mənəm

O ki, dərd aləmi olmaz ona bir tay o mənəm
Səslənərdi o ki, daim anam ey vay o mənəm

## Həzrət Zeynəbin (s.ə) Kufə şəhrində şəhaməti və Şam yoluna işarə

Nekhəti-gülzari-izzət Zeynəbin adındadı
Vüsəti-bangi-şəhaməti nayü-fəryadındadı
Söləti-xuni-vilayət qəlbi-naşadındadı
Zeynəbə dil bağlıyan dünyada izzətmənd olar
Cami-eşqin başına kim çəksə qeyrətmənd olar

Göz açan gündən şücaət əslü-bünyanındadı
Bir xanımdır ki, Əlinin qeyrəti qanındadı
Mürtəzatək asimanlar təhti-fərmanındadı
Ərşidə dilbəndi-Zəhranın igamətgahı var
Yerdən artıq Zeynəbin göylərdə xatirxahı var

Ruhu vüsətli səma, xorşid mişkatındadı
Şirpəncə yəllərin təsviri miratındadı
Cürətü-cəhdü-cəsarət Zeynəbin zatındadı
Xəlq edən xəlqində fürsət yox deyəm neyləyib
Zeynəbi Allah xülasə, qəhrəman xəlq eyləyib

Xisləti-Qasim bunun xülqi-diləngizindədi
Hikməti-ləbxəndi-Əsğər ləhni-gülrizindədi
Sürəti-şəmşiri-Əkbər ləhceyi-tizindədi
Zeynəbi Allah nə tənha bir dilavər xəlq edib
Həm dilavər, həm hünərvər, həm süxənvər xəlq edib

Heybəti-simayi-Həmzə qəmli-simasındadı
Qürrişi-nayi-Əbəlfəz sövti-qərrasındadı
Zülfəqarın qüdrəti əlfazi-girasındadı
Küfr qəlbin yardı nitqi xəncəri-Heydər kimi
Oldu viran çak ürəklər qəleyi-Xeybər kimi

Ənbiya əfkarı yeksər zehni-bahuşundadı
Qabiliyyət rütbəsi əlanda sərduşundadı
Cuşeşi-atəşfişanlar xuni-porcuşundadı
Axdı başından deyir ravı necə qan Kufədə
And ola xuni-Hüseynə qopdu tufan Kufədə

"Uskutu" səsləndi qaçdı çöhrələrdən rənglər
Tək nəinki sakit oldu xəlqi-bifərhənglər
Naqələr boynunda hətta düşdü səsdən zənglər
Nizə üstə qanlı başlar Zeynəbə əhsən dedi

Əl çalıb urra çəkən obaşı təhqir eylədi
Kufə fərmandələrin xarü-zəmingir eylədi
Dər həqiqət Kufə şəhrin gəldi təsxir eylədi
Tarəki-tarixdə yazdı Hüseynim zindədi
Həşr olunca Kərbəlanın pərçəmi payəndədi

Qəlbi-napaki-Übeydullaha düşdü vəlvələ
İstəyirdi Zeynəbin bir təhər əlindən dincələ
Kasəlisani-pəlidin səslədi təhdid ilə
Verdi fərman Kufədə Ali-Əli çox qalmasın
Bundan artıq şəhrə Peyğəmbər qızı od salmasın

Heç əsirə oxşamır sərdari-namavərdi bu
Təkbaşa hiss eylərəm mən bir qəvi ləşgərdi bu
Ta dil açdı söhbətə fikr elədim Heydərdi bu

Bənzəyir seyli-xüruşana qabağın sədd edin
Bu bəlayi-xanimansuzi başımdan rədd edin

Ta xəbər  gəldi Əbəlfəz öldü mən zövq eylədim
Cəşni-piruzi qurub iclalıma şövq eylədim
Kufədə hissi-qürur, şövqi-mafoq eylədim
Bilməyirdim heç qabaqda başımın qoğası var
Bilməyirdim mən Hüseynin ayrı bir Abbası var

Mən ki, gördüm ondakı cuş, xüruş və cürəti
Şəri-Peyğəmbər mücaz etsəydi cəngə övrəti
Cəngdə olsaydı Abbas ilə bahəm şirkəti
İndi dolmuşdu mənim ahü-məlalim Kufəyə
Bir nəfər can qurtarıb gəlməzdi salim Kufəyə

Ta nə qədri Mürtəzanın qəhrəmanı zindədi
Ali-Süfyana hökümət caddəsi ləğzəndədi
Xütbəsin gördüm onun Heydər kimi kubəndədi
Mürtəza boynun vurardı zalımın şəmşir ilən
Zeynəbi amma vurur gərdənləri təkbir ilən

Öldürübsüz fəxri var Abbas vala mənsəbi
Bəəd əz anki doğrandı yetmiş iki ətşanləbi
Qəmçi altında gərək siz öldürürdüz Zeynəbi
Çox zaman çəkməz bu Zeynəb aləmi məbhut edər
Səltənət təxtin Yəzid ilən mənə tabut edər

Heç elə bil Kərbəlada ölməyib qardaşları
Daşlayırdı Kufə əhli nizə üstə başları
Xütbeyi-qərrası tökdürdü ətəkdən daşları
Daş atanlar yeksərə ağlaşdı gəldi şivənə

Başlaya məclisdə qəbl əzinki qərra söhbətin
Ta mənə sarı dolandırdı qəzəblən surətin
Çöhrəsində doğrudan gördüm Əlinin heybətin
Ənqərib oldu kitabi-arizumu qatdaya
Rəşə düşdü canıma az qaldı bağrım çatdaya

Ali-Tahaya verib Həqq məntiqi-bürrəndəni
Pişbini eylirəm mən indidən ayəndəni
Ölməsə etsə təhəmmül möhnəti-suzəndəni
Şamə salim çatsa gər Hind oğlunun əzlin yazar
Tək Yezidin yox, Üməyyə nəslinin qəbrin qazar

Əlqərəz aldı Əlinin qəsb olan paytəxtini
Kufənin xar eylədi ol valiyi-bədbəxtini
Başına muzduri-dərbarın çevirdi təxtini
Ali-Əthara xanım izzü-şərəf kəsb eylədi
Kufə bamında Hüseynin pərçəmin nəsb eylədi

Həbli-qeyrət gərdəni-Şamə dolaşdı Kufədən
Şamə pərçəm vurmağa Zeynəb yol açdı Kufədən
Seyli-virangər kəənnəh Şamə daşdı Kufədən
Gündüz-gecə teyy elədi Şamın bəlalı yolların
Qəmçilər yollar boyu saldı qüvadən qolların

Xoş gün ömründə görüm əşrari-kafir görməsin
Yol nə yol, ey kaş o yoldan heç müsafir görməsin
Heç müsəlman Şam yolun Zəhraya xatir görməsin
Dərdinin dağlar dili dünyanı tək bir şəmməsi
Həzrəti Məhdi bilir yolda nə çəkdi əmməsi

Bir sözüm var rahi-Şamın dərdinin meyarıdı
Yol hələ qalsın tikanlıq ya ki, nahəmvar idı

Ali-Ətharın zebəs əhvalı riqqətbar idı
İstirahət vəxti bahəm toplaşırdı naqələr
Səs qoşub nalan Rübabə ağlaşırdı naqələr

Dilsiz heyvanlar deyirdi bir-birə ima ilə
Etməmişik həmli-müsafir ömrümüzdə bir belə
Heç bunlartək görməmişdik bir adamsız qafilə
Bar ilaha, bu bəlalı karivan hardan gəlir
Ağlayan vəxtə bunlar göydən yerə əfğan gəlir

Dami-səyyadə düşən ceyrana oxşullar bunlar
Xanə bərduşani-sərgərdanə oxullar bunlar
Oğlu, qardaşı ölən insana oxşullar bular
Kimdi bu qəmdidələr möhnətləri başdan daşır
Vay Hüseyn vay səslənəndə qanlı başlar ağlaşır

Dərdi-dil eylərdi hər kəs nizədə bir baş ilən
Hər ana öz qəmli oğluylan, bacı qardaş ilən
Qan axırdı sınmış idi bəzi başlar daş ilən
Əkbərə Leyla baxan vəxtə deyirdi can bala
Parçalanmış başına veylan anan qurban bala

Eyləyib rövşən yolu nuri-cəmalın gün kimi
Əşklər gözdən fəraqında axır Ceyhun kimi
Düşmüşəm başın dalınca çöllərə Məcnun kimi
Bərhəm olmuş başının ziba nəması ax bala
Hey baxırsan əmmənə, Leylayə də bir bax bala

Bicihaz dəvələrə minmişdi Zəhra qızları
Həddən artıq yorğun idi çün ifaf ulduzları
Yuxlaşdırdı naqələr üstündə yorğun gözləri
Hey uşaq idi görürdünki sürüşdü naqədən

Ağzı üstündə tikanlıq yerdə düşdü naqədən

Sən mücəssəm eylə simayi-mühaqın qızların
Gör nə halə saldı daşlar dil-dodağın qızların
Doğradı xari-müğilan əl-əyağın qızların
Qan dodağlardan axıb yerdə yazırdı can baba
Qızların olsun bəlalı başına qurban baba

Alnı üstə kim yıxldı düşdü Əlqəm yadına
Yəni Əlqəmdə yatan sərdari-əzəm yadına
Zinidən qolsuz düşən qeyrətli Zeyğəm yadına
İndi bildim nə çəkibsən ay Hüseynin qardaşı

Peykərin bildim niyə qaldı arada gəlmədi
Xeyməyə Əkbər kimi nəşin əbada gəlmədi
Ayrı başlartək niyə başın cidada gəlmədi
Qadir Allah xar edəydi düşməni-namərdini
Dərdinə qurban Əbəlfəz indi bildim dərdini

## Yezidin məclisi və Şamın xərabəsinin əhvalatına işarə

Mustəfadan çatdı irsiyyə bəlağət Zeynəbə
Mürtəzadan çatdı dəryayi-şücaət Zeynəbə
Həzrəti Zəhra anasından şəhamət Zeynəbə
Müctəbadən ruhi-bibakü-səlabət Zeynəbə
Çatdı irsiyyə Hüseyndən xuni-qeyrət Zeynəbə

Heç kimin olmaz cahanda bir belə irsiyyəsi
Heyrətə dünyanı saldı Zeynəbin ruhiyyəsi
Nəşr olur ələn da Aşurasının nəşriyyəsi
Rəşk apardı zöhri-Aşur, məhərrəm Zeynəbə

Çün Əbəlfəzdən yetişdi qanlı pərçəm Zeynəbə

Quşi-aləm indidə var xütbeyi-nəğzindədi
Cümlə loğmanlar kilası pəndü-əndərzindədi
Gənchayi-elmi-aləm Zeynəbin məğzindədi
Baş əyər əllamehayi-küllü aləm Zeynəbə
Fəxr edər bir ləhzə şagird olsa, Məryəm Zeynəbə

Bari-səngini-bəla xəm vermədi əbrusuna
Oldu qəm mövcu əsərsiz himməti-oqyanusuna
Misli ünqa gətdi kərkəslər başın zanusuna
Yəni baş endirdi təslim oldu düşmən Zeynəbə
Səslədi çox yerdə düşmənlər də əhsən Zeynəbə

Ehtiyaca açmadı əl dəhridə heç kimsəyə
Oxşayırdı istiqamət vaxtı möhkəm səxrəyə
Tək nə bizlər səbrinə, yer-göy gərək əhsən deyə
Bağrını qan səhnəsi, vəhşətli meydan yarmadı
Qodiye-məqtəldə hətta Şimrə də yalvarmadı

Eylədi daim təlatüm mövclü dərya kimi
Pasdar oldu hərimi-ismətə Səqqa kimi
Vəlvələ dünyaya saldı xütbəsi mövla kimi
Oğlu, qardaşı ölənlər oldu ləşkər Zeynəbə
İftixar etdi süxən bəzmində Heydər Zeynəbə

Sərfəraz etdi səlata sər verən qardaşların
Məhmil üstündə xizab etdi ağarmış saçların
Qoymadı əslən hesaba düşmənin pərxaşların
Qəlbinin qeyrət rəgin zəxmi-zabanlar qırmadı
Düşməni sındırdı amma vəqrini sındırmadı

Düşmənə canı çıxınca dəsti-saziş vermədi
Qızlara hər nə bəla gördü qüzariş vermədi
Kəsrəti-qəmçi yaralı qəlbə lərziş vermədi
İstiqamət şeri yazdı asmanlar Zeynəbə
Axərül-əmr ağladı qəmçi vuranlar Zeynəbə

Kufədə həqqi-Hüseyni xəlqə isbat eylədi
Gördü bir iş çərxi-dəvvarın üzün mat eylədi
Qara bir pərçəm əlində qəsdi-Şamat eylədi
İmperatori-pəlidi gəldi təhqir eyləyə
Üç yaşında bir qız ilə Şamı təsxir eyləyə

Bir mücəlləl məclis etmişdi o gün bərpa Yezid
Fikr edirdi çün olubdur hakimi-dünya Yezid
Heç inanmırdı o məclisdə ola rüsva Yezid
İstəsə Allah, ədular mocibati-xeyr olar
Hasili-səyü-təkapusu nəsibi-qeyr olar

Hissi-piruzi edirdi bəzmidə bazəndələr
Mədh edirdi Ali-Süfyanı dəni xanəndələr
Dövrədə nizə əlində divsifət dərrəndələr
Qərq idi qarə ürəklər mancəlabi-kinədə
Qorxusundan həbs olunmuşdu nəfəslər sinədə

Məclisin aşmışdı röbü-vəhşəti əndazədən
Xofidən çıxmışdı canlar riştəsi şirazədən
Varid oldu nagəhan qol bağlılar dərvazadan
Xırda qızlar məclisin vəzin görüb ağlaşdılar
Vəhşətindən Zeynəbin ətrafına toplaşdılar

Etdi fərmayiş məbada qəlbizi vəhşət sıxa
Ölməyib Zeynəb hələ göz yaşlarız gözdən axa
Ahim ilə odlaram hər kim sizə gər çəp baxa
Qorxmayın, ağlaşmayın əfğana ehsasım gələr
Lazım olsa səslərəm nəhr üstən Abbasım gələr

Baş əyirdi hey Yezidə əhli-bəzmin tək-təki
Çox qürur ilə oturmuşdu Dəməşqin dəlğəki
Ayrı aləmlərdə seyr eylirdi məğzi-kuçəki
Gəh təməsxürlə baxardı Mürtəza övladına
Fikr edirdi od vurub Ali-Əli bünyadına

Yox sözüm çox hərzə söz ağzında nişxar eylədi
İstədi mövlanı xar etsin özün xar eylədi
Yazmaram ol qanlı baş ilə nə rəftar eylədi
Eylədi tohin xulasə Zeynəbin qardaşına
Gördü bir iş, Zeynəbin dünya dolandı başına

Rəglərində Mürtəza dilbəndinin cuş etdi qan
Cəngcu bir pəhləvantək durdu yerdən nagəhan
Fərz elə qozandı yerdən şövleyi-atəşfişan
Guya istir edə Bu Bəkri rüsva, Fatimə
Səslədi qolbağlı qızlar hammısı ya Fatimə

Baxdı qeyzilən dedi yum ağzını, azdın Yezid
Azmasaydın gər bu qədri xodsər olmazdın Yezid
Xeyzəran ilən bu gün öz qəbrini qazdın Yezid
Etina mən etmərəm təhdidinə, pərxaşına
And ola Abbasıma təxtin çevirrəm başına

Kimdi bu övrət dedi? Səsləndi: zalım, Zeynəbəm
Hansı Zeynəbsən? Dedi: bürci-vilada kövkəbəm
Çaşdı Hind oğlu dedi qüdrətdə mən də Mərhəbəm
Ağzını bağla dedi Mərhəblərə baş əymərəm
Mərhəb olsan sən əgər, mən Zülfəqari-Heydərəm

Düzdü bu oğlu ölənlər yarsız, yoldaşsızdılar
Çoxları Zəhra anamtək burda qardaşsızdılar
Sən belə fikr eyləmə Abbas ölüb başsızdılar
Mən Hüseyn ibni Əlinin şiri-bipərvasıyam
Qara məcər qızların yəni haman Abbasıyam

Baxma çox təhqir ilə başımda qara məcərə
And ola teştin içində qana batmış ləblərə
Mən bu şəhrə gəlmədim təzim edəm hər kafərə
Gəlmişəm qəlbi-Dəməşqə qara pərçəm vurmağa
Gəlmişəm bir də sənin şəxsiyyətin sındırmağa

Nitqi-Zeynəbdən pozuldu məclisin arayişi
Yardı düşmən qəlbini hər nitqinin bir tərkeşi
Birbəbir xəli-silah oldu Yezidin ərteşi
Sözlərin əzbəs xanım gira və müstəhsən dedi
Təşt içində qanlı ləblər Zeynəbə əhsən dedi

Abiru heç qalmadı ol valiyi-divanədə
Əlqərəz gəldi əsiran mənzili-viranədə
Oldu bir il Mürtəza ovladına hər saniyə
Çırpınırdı yaralı dillər şikəstə şişədə
Ac, susuz yatdı o ceyranlar hərə bir guşədə

Əzqəza, çox tünd əsirdi Şamidə bir qarə yel
Qara neylərtək sızıldırdı dəyən divarə yel

Sübh olunca həmdəm oldu Zeynəbi-qəmxarə yel
Hammı yatdı, Zeynəb əyləşdi Hüseynim vay dedi
Gah Hüseynim vay dedi, gəh qızlara lay-lay dedi

Piçü-tab eylərdi gördü qüssədən qəmli Rübab
Etdi fərmayiş niyə asudə yatmırsan Rübab
Sübh olunca nagəran olma oyağam mən Rübab
Ta nəfəs var mən də pabəndəm vəfa qamusuna
Çəp baxa bilməz biri Peyğəmbərin namusuna

Mənziliz pozğun da olsa eybi yox əyməndədi
İztirabın var havasım gün batandan səndədi
Ta varam mən, fərz elə qaynın Əbəlfəz zindədi
Nagəran olma əgər ay batsada mən batmaram
Göydə ulduzlar yorulsa yatsa da mən yatmaram

Gözlərini tazə yummuşdu Rübab xəstə can
Güşeyi-viranədən nagəh sesalə qəhrəman
Səslədi ahəstə var səndən sualım əmmə can
Şamə biz varid olandan qəlbim atəşxanədi
Bu uçuq mənzil bibi, aya həman viranədi?

Nəql edir Zeynəb qucağa aldım ol nilufəri
Ta dedim viranədi, çırpındı qəlbi-müztəri
Əvvəlin baridi gördüm güldü ziba ləbləri
Kamə bəs çatdım dedi xoş ruzigarım var bibi
Yaralı yar ilə bu evdə qərarım var bibi

Tərk edəndə xeyməgahı ləbləri suzan babam
Aldı ağuşə üzümdən öpdü sərgərdan baba
Söz verdi ayrılan vaxta mənə ətşan babam
Qəm yemə dərdin dedi hər halda mən billəm qızım

Çox darıxma bir gecə viranəyə gəlləm qızım

## Həzrət Zeynəbin (s.ə) şəhadətsayağı vəfat əhvalatı

Nəfəsim təngə düşüb yox mənə yar ay qardaş
Kərbəlaya çox uzaqdır bu diyar ay qardaş

Anamın əldə ölən oğlu pərişanam gəl
Azimi-məhzəri-porfeyzi-şəhidanam gəl
Gəl əzizim, o gələn yollara qurbanam gəl
Əcəlin ovçusunun tirinə amacəm gəl
Bu qərib ölkədə bir həmdəmə möhtacam gəl

Fələk aldı bacının əldəki sərmayəsini
Beş yaşından başına saldı bəla sayəsini
Sən o kəssən oxurdun nizədə Kəhf ayəsini
Dadə gəl can verirəm suzü-qudaz ilə Hüseyn
Oxu Quran bacına ləhni-hicaz ilə Hüseyn

Yarələr xəstəsi yorğun bacını yad eylə
Atam oğlu dili-naşadımı gəl şad eylə
Bu yaman gündə əzizim mənə imdad eylə
Yasıma Əkbər ilə Qasimi göndər qardaş
Kəfnü-dəfn etməyə Abbasımı göndər qardaş

Qaldım ənqüşt beləb çərxi-kəcin oynunda
Bacının əlləri qürbətdə qalıb qoynunda
Vardı haqqım anam oğlu hamızın boynunda
Hər şəhidin başı üstündə ürək dağlamışam
Hamıdan çox vəli qardaş sənə mən ağlamışam

Heç kimə açmamışam dəhridə mən dəsti-niyaz
Ömrüdə bir kəsə yalvarmanı Zeynəb tanımaz
İltimas eylərəm amma sənə ey məhrəmi-raz
Qəbrkən yoxdu Hüseyn gəl bacının qəbrini qaz
Qəbrinin daşına xoş xətt ilə bu cümləni yaz

Yaz bu qəbr içrə yatan həmd-səna aşiqidi
Eşq sərgəştəsidi cami-bəla aşiqidi
Əhli-Yəsribdi, vəli Kərbübəla aşiqidi
Yaz bəlalı başına qəm tökülən Zeynəbdi
Qaməti qəmlər əlindən bükülən Zeynəbdi

Yaz bu qəbr içrə yatan qəlbi yaralı bacıdı
Tay tapılmaz buna aləmdə vəfalı bacıdı
Qüssələr həmdəmidi başı bəlalı bacıdı
Yaz bu qəbr içrə yatan bürcü-qəmin ulduzıdı
Əkbərin əmməsi, məzlum Əlinin qızıdı

Bu adamsız bacının etgilən həqqində kərəm
Sən bura lütf eləyib gəlsən aya miri-üməm
Sənə xatir başımın üstə gələr qəmli anam
Könlüm istir eşidəm bir də o lay-lay səsini
Aparam qəbrə qulağımda balam vay səsini

Gər anam gəlsə bura əhli-cinanı gətirər
Dağ-daşı şurə onun ahü-fəğanı gətirər
Lərziyə nalə səsi ərzi, səmanı gətirər
Səslənər naləsi ərşə ucalanım lay-lay
Dəhridə qəmlər əlində qocalanım lay-lay

Tək öləm Şamidə neynim bu qara yazımdı
Qəmli tabutum əxa qəbr evinə azimdi

Dörd nəfər həm eləyə həddi-əqəl lazımdı
Şamın əhli bilirəm əhli-şəmatətdi Hüseyn
Gəlməyin başımın üstə mənə minnətdi Hüseyn

İntizarım başa yetsə ürəyim zar olmaz
Yar, xar olmağa heç yerdə rıza yar olmaz
Şamə sən gəlsən Hüseyncanı yasım xar olmaz
Adını dillərə aləmdə salan Zeynəbinəm
Qanlı pirahənin əllərdən alan Zeynəbinəm

## Həzrət Zeynəbin (s.ə) ölüm halında Hüseynə (ə) xitabı

Gəl vəfalı qardaşım – qan olubdur göz yaşım
Zeynəbin can üstədi – al dizin üstə başım
Tayeri-ruhum uçur təndən Hüseyn
Gəlməsən qəlbim sınar səndən Hüseyn
Zeynəbi-azurdə ehsasın ölür
Sanki nəhr üstündə Abbasın ölür

Mən  vəfalı bacıyam – tiri-qəm amacıyam
Sən kimi bir həmdəmin – Şamidə möhtacıyam
Cismi-bicana Hüseynim can yetir
Dərdi-bidərmanıma dərman gətir
Zeynəbi-azurdə ehsasın ölür
Sanki nəhr üstündə Abbasın ölür

Ey ışıqlı ulduzum – yolunu gözlür gözüm
Kaş olaydı döndərən – qəbrinə sarı üzüm
Sən mənim fəxri-qəbiləmsən Hüseyn
Qoy hamı bilsin ki, qibləmsən Hüseyn
Zeynəbi-azurdə ehsasın ölür
Sanki nəhr üstündə Abbasın ölür

İzzü-cahim hardasan – mehrü-mahım hardasan
Dəhridə səndən sonra – yox pənahım hardasan
Sayənə gəl daldalansın Zeynəbin
Başına bir də dolansın Zeynəbin
Zeynəbi-azurdə ehsasın ölür
Sanki nəhr üstündə Abbasın ölür

Ey anamın dilbəri – Zeynəbin balü-pəri
Peykərimdə var hələ – taziyana yerləri
Arizu camın yetiş doldur Hüseyn
Cismimə bax gör nə yol-yoldur Hüseyn
Zeynəbi-azurdə ehsasın ölür
Sanki nəhr üstündə Abbasın ölür

Gəlmisən ey gülüzar – səngi-qəbrim kim yazar
Kim tutar məclis mənə – qəbrimi bəs kim qazar
Yoxdur burda el-qəbiləm ya Hüseyn
Hacətim vardır dəxiləm ya Hüseyn
Zeynəbi-azurdə ehsasın ölür
Sanki nəhr üstündə Abbasın ölür

Yolla tutsun yasımı – Əkbər ilən Qasimi
Könlüm istir həm səni – həm də ki, Abbasimi
Başım üstə sayəzi bahəm salın
Çiynizə tabutumu bahəm alın
Zeynəbi-azurdə ehsasın ölür
Sanki nəhr üstündə Abbasın ölür

Zeynəbi-zarın sənin – tutsun istir damənin
Sinəm üstə qoymuşam – ox sökən pirahənin
Can çıxınca müntəzir qallam Hüseyn

Köynəyindən ətrini allam Hüseyn
Zeynəbi-azurdə ehsasın ölür
Sanki nəhr üstündə Abbasın ölür

## Həzrət Rüqəyyənin (s.ə) matəm məclisi və Kufədə Rüqəyyənin (s.ə) Zeynəb (s.ə) ilə söhbəti

Mövc edər eşq, fəzilətdən Rüqəyyə məclisi
Bir əlamətdir qiyamətdən Rüqəyyə məclisi
Bac alar firdövs və cənnətdən Rüqəyyə məclisi
Gövhəri-dəryayi eşqi xakü-xiştə verməyik
Biz Rüqəyyə bəzminin gərdin behiştə verməyik

Bəhri-ehsasın sesalə qəhrəman əmvacıdı
Tək nə biz, göydə mələklər lütfünün möhtacıdı
Nisfi yanmış məcəri sükkani-ərşin tacıdı
Versələr dünyanı, dildən eşqi-pakin verməyik
Göylərə rubəndinin biz gərdü-xakin verməyik

Bu xanım az sinnilən sərgəştələr sərdarıdı
Padiqani-Şami-viranın sipəhsalarıdı
Zeynəbin Şamatidə qeyrətli pərçəmdarıdı
Guşeyi-viranəsin dəhri-pəlidə verməyik
Pərçəminin bir nəxin kaxi-Yezidə verməyik

And ola viran ürəkdə ğəni ehsasatına
Pabürəhnə çölləri veylan gəzən saatına
Parə bir köhnə həsir üstə yatan ovqatına
Qəsri-zərrinə xərabatın səririn verməyik
Tacü-təxti aləmə parə həsirin verməyik

And ola dərdindən əfğan eyləyən dağ-daşlara
Möhnətindən asimanlardan yağan qan yaşlara
Nizələr üstündə and olsun o qanlı başlara
Günbəzi-ərş aşinasın asimanə vermərik
Xırdaca qəbrin təmami kəhkişana vermərik

Bərxəlafi sinnü-salı çox büland iqbalidi
Cami-fikri fəhmü-idrak ilə malamalidi
Əmmeyi-sadatə bir şagirdi-nikəfalidi
Asmani-elmidə seyr eylədi kövkəb kimi
Eşqidə əllamə oldu əmməsi Zeynəb kimi

Tək fəqət fikr eyləmə dildə yanıqlı ahı var
Yox sözüm göylərdə yerdən çoxlu xatirxahı var
Sinni az əllamənin vüsətli danişqahı var
Mərzi-danişgahi-dəhrin dovrü-gərdagərdidi
Zeynəbin şagirdinin əllamələr şagirdidi

Səxa süfrəsindən götürməz əhli-məna gözlərin
Qadir Allah bəzl ona etmişdi Zəhra gözlərin
Əmməsi Zeynəb öpən vəxtə o ziba gözlərin
Əşki rüxsarə axıb səslərdi birdən can ana
Gözlərim olsun o qanlı gözlərə qurban ana

Nəql edir Zeynəb, bənati Bu Türabə Kufədə
Gətdilər xurma təsəddüq ta xərabə Kufədə
Kərbəla tək düşdü qəlbim iztirabə Kufədə
Nəngdir çünkü təsəddüq itrəti-Peyğəmbərə
Əl dedim Allah uşaqlar vurmaya xurmalərə

Qəlbim sirrin kəənnəh bildi ol şirin zaban
Səslənir ahəstə gördüm naqə üstən əmmə can
Hammıdan gərçi uşağam, məndən olma nagəran
Gözlərəm hər yerdə Ali-Haşimin heysiyyətin
Əmməmin bir loğmaya sındırmaram şəxsiyyətin

Düzdü acam, aclıq insanı rəşadətdən salar
Kufə əhli gər ayağımdan öpüb yalvarsalar
Verməyə xurma mənə səf bağlayıb baş yarsalar
Loğmeyi-namərdə mən əmməm canı əl vurmaram
Həm sənin, həm qanlı başın vəqrini sındırmaram

Səndən öyrəşdim dedin bir gün, mələk sima anam
Üç gün ac qaldı evində həzrəti Zəhra anam
Aclığın Tahaya da bildirmədi hətta anam
Fərqi yox mən də anamtək taqətin dəryasıyam
Nizə üstə qanlı başın xırdaca Zəhrasıyam

Nagəran olma əgərçi zarü-dilgirəm bibi
Bəsteyi-bəndi-tənab, qeydü-zəncirəm bibi
Qorxmaram bu hay-huydan övladi-şirəm bibi
Sineyi-məcruhumu vəhşət oxuylan yarmaram
Daş atan nadanlara ölsəm də mən yalvarmaram

Qəhrəman əmmə təqəlla eylə Aşura kimi
Başla ələn xütbeyi-kubəndəni mövla kimi
Lərzəyə sal tarü-pudi-düşməni Səqqa kimi
Qeyrətimdən burda ölləm Kufəyə od vurmasan
Nitq ilə ibni Ziyadın gərdənin sındırmasan

Əl çalıb təhqir edillər itrəti-Peyğəmbəri
Kərbəla sultanının düzdü ölüb sərləşkəri
Sən bu gün əmmə bir iş gör Kufənin ərzəlləri
Anlasınlar Mürtəzanın şiri-bipərvası var
Hammı qoy bilsin Hüseynin ayrı bir Abbası var

Olsa imkanı de bu ümmət imamı vurmasın
Daş atan nadan, imami-teşnəkamı vurmasın
Daşları vursun mənə, amma babamı vurmasın
Kül tökən övrət denən rəxti-həyanı bükməsin
Noərusi-Kərbəlanın başına kül tökməsin

Bəzilər avarə Leylanın gülür əhvalına
Bəzi övrətlər də qəsdən süd verir ətfalına
Görsə bu övzanı əmmə, vay Rübabın halına
Gör çəkib hardan hara Zəhra ərusun ruzigar
Kufədə bikəs anam divanə olsa həqqi var

Mehriban əmmə, açıb qəlbimdə qəmlər mənzərə
Sən bilirsən var nə əndazə əlaqəm Əsğərə
Fürsət olsa dilimcə milləti-qarətgərə
Sən denən qəmli Rüqəyyəm istəmir güşvarəsin
Allaha xatir verin siz Əsğərin gəhvarəsin

Yaxşı yoldaş olmadım ətşan ölən yoldaşıma
Kərbəladə bəski saysız qəm töküldü başıma
Heç doyunca çalmadım lay-lay susuz qardaşıma
Xatiratın yarəli dildə ölüncə bəslərəm
Boş qalan gəhvarəsin hey tərpədib can səslərəm

Əmməcan, bir də müxatəb eylə zalım düşməni
Əkbərin başın kəsib gör hansı xiffət mədəni

Taziyanylə nə əndazə vurur vursun məni
Eybi yox heç verməsin bu dilkəbabə caməsin
Dər əvəz Leylayə versin Əkbərin əmmaməsin

## Həzrət Rüqəyyənin (s.ə) əhvalatı

Bəski aşiqdi rəvanxamə Rüqəyyə adına
Yenə də başladı qəmnamə Rüqəyyə adına

Mən deyirdim o həzarəm ki, xoşəlhanım var
Sinnim az olsa da gər, rütbəyi-şayanım var

Mən bir üç yaşda təbibəm ki, nəzirim yoxdu
Hər nə dərd olsa ona nüsxeyi-dərmanım var

Zahirən gərçi mənim cahü-cəlalım dağılıb
Batinən hişmətü-iclali-Süleymanım var

Gecələr düzdü özüm ac qoyaram balışa baş
Asmanlarda vəli süfreyi-ehsanım var

Üzümün solmağı ruhiyyəmi təzif eləməz
Çün mənim cənnətül-əladə gülüstanım var

O gülüstanda əlavə hamı ziba güldən
Əli Əsğər kimi bir sevməli reyhanım var

Şamı fəth eyləyəcəksən, mənə əmməm buyurub
Əmməmin səhhəti-qoftarına imanım var

Hakim ollam nə fəqət məmləkəti-Şamatə
Gələcəkdə hələ bir görməli İranım var

Vəqrimə milləti-İran hamı əhsən deyəcək
İndidən orda əzadari-fəravanım var

Baxmayın mənzili-viranə mənə məskən olub
Bərtərin noqteyi-lahutidə eyvanım var

Cəbərutun o gözəl səhni güzərgahımdı
Çərxi-həftümdə təmaşalı şəbistanım var

Mələkut əhli gəlib gündə öpəllər qapımı
Sana gəlməz o qədər ərşdə dərbanım var

Neçə yol gündə mələklər dolanallar başıma
Xakdan çox mənim əflakidə xahanım var

Qara məcər mənə əmməm buyurub çox yaraşır
Başıma yoxsa qoyam taci-zərəfşanım var

Nəzərim olmasa bami-fələkə gün çıxmaz
Xanım əmməm kimi əflakidə fərmanım var

Gün çıxa çıxmaya, əslən halıma fərq eləməz
Əli Əkbər kimi xorşidi-dirəxşanım var

Mən özüm sililərə yolda rizayət verdim
Razı oldum niyə aya, ona bürhanım var

İstədim xırda üzüm oxşaya Zəhra üzünə
Çünkü Zəhrayi-sesalə mənim ünvanım var

Sili dəydikcə üzümdən demişəm ya Zəhra
Anamın dərdinə yannam nə qədər canım var

Yoxsa yollarda mənə sili vuranmazdı biri
Çün Əbəlfəz kimi qeyrətli nigəhbanım var

Qəsri-xəzranı bu Şamatidə ahım yıxacaq
Yaralı sinədə dərya kimi tufanım var

Seyli-əşkim mütəkəbbirləri qərq eyləyəcək
Görəcəklər necə əmvaci-xüruşanım var

Qəm yağır gərçi bu şəhrin dərü-divarindən
Mənim amma bu gecə hali-xuramanım var

Ürəyim müjdə veribdi mənə yarım gələcək
Bilirəm mənzili-viranədə mehmanım var

Mən bu gün sübh açılandan babama müntəzirəm
Yarım ilə gələ didarıma peymanım var

Qoymaram toz edə rəncidə yaralı qonağı
Su səpə yollarına dedeyi-geryanım var

Evimin hər yeri topraqdı vəli eyb eləməz
O gələn yolları caru edə müjqanım var

Rövşən eylər ürəyim yansa qaranlıq evimi
Sinədə bir yaralı şəmi-füruzanım var

Kərbəlada deməyə dərdimi fürsət yox idi
Bu gecə şərhi-qəmə fürsəti-cübranım var

Əlqərəz nimeyi-şəb gəldi vəfalı qonağı
Dedi əltafinə şaha dili-heyranım var

Xoş gəlibsən babacan, sən hara, viranə hara
Yaxşı bildin dili-viranədə iskanım var

Neçə müddətdi baba gün sayıram sən gələsən
Heç demirdin gözü yollarda pərişanım var?

Heç demirdin qara məcərli qızım harda qalıb?
Heç demirdin qəm əsiri bala ceyranım var?

Gözlərim kor ola vardı dodağında təzə qan
Əbri-didəmdə yuyam qanını baranım var

Əşkim ilə yuyaram qana boyanmış dodağın
Silməyə üz gözünü türreyi-əfşanım var

Oxuyum dəftəri-dərdin sənə hansı vərəqin
Çəkdiyim dərdü-bəladan neçə eyvanım var

Əmməmə bəzi qəmü-dərdimi bildirməmişəm
Ürəyimdə hələ də möhnəti-pünhanım var

Qəmçi şiddətlə dəyib boynuma tavəl düzülüb
Görən ehsas eləyir qırmızı mərcanım var

Sol gözüm sili dəyəndən bu yana heç görmür
Sağ gözümün giləsində hələ də qanım var

Alnımın üstə yıxıldım yerə yolda dəvədən
Xari-suzani-cəfadən dolu pişanım var

Alnımı əmməm öpəndə odur ahəstə öpər
Yuxuda dəysə əlim alnıma əfğanım var

Əkbərim görsə bu halda məni əslən tanımaz
Heç inanmaz belə bir qüssəli dövranım var

Oxlayıb zəxmi-zəbanlar qana dönmüş ürəyi
Şanələnmiş ürəyintək dili-şan-şanım var

Zibh olaydı yolunun üstə gərək qurbanlıq
Bu qərib ölkədə neynim məgər imkanım var

Qoymaram hədyəsiz olsun baba həqqəl-qədəmin
Heç zadım olmasa da bir yorulan canım var

Canımı hədyə sənə verməsəm aşiq deyiləm
Səhərə çıxsam əgər eşqidə nöqsanım var

Nə qədər ömr eləsə dildə “Xudayi” deyəcək
Qəmlərində bu qızın sinəyi-suzanım var

Aldım ilham sözün qafiyəsin “Ənvərdən”
Şüəra içrə ona eşqi-fəravanım var

## Həzrət Rüqəyyənin (s.ə) Yezidin qızına kəskin cavabı

Gəldi Şamə qolları bağlı Hüseyn dürdanəsi
Məskəni oldu Dəməşqin səqfsiz viranəsi
Balü-pərdən düşdü orda Əkbərin pərvanəsi
Çox gecə ac qoydu başın torpağ üstə yuxladı
Qəlbini tənə vuranlar tən oxuylan oxladı

Rəxti-nikbət qamətindən əhli-duzəx soymadı
Yəni Şamın qızları zülmü-cəfadən doymadı
Çəksin öz dərdin Rüqəyyə, bihəyalar qoymadı
Qəsdi-təhqirilə başında kəniz və nokəri
Bir günü viranəyə gəldi Yezidin doxtəri

Yox sözüm orda nə rəftar eylədi şəyyadələr
Düşdülər aya nə hala həbs olan azadələr
Tənə vurdu zadeyi-Zəhrayə ərzəlzadələr
Eyləməz inşa məqali-şumi-xiclətdən qələm
Çıxmayıb, çıxmaz hərimi-izzü-iffətdən qələm

Ruhuna lətmə o tiflin tiri-tənə vurmadı
İzzəti əskilmədi qəm bəndi-qəlbin qırmadı
Gözləri Zəhrayə bənzər qız özün sındırmadı
Əmməsitək nayi-neyrəngi-xitabı bağladı
Yavə deyənin ağzını möhkəm cavabı bağladı

Baxdı diqqətlə şəmatət eyləyən gümrəhlərə
Bəççe şir etdi tamaşa tuleyi-rubəhlərə
Mədəsi nani-həram ilə dolan əbləhlərə
Bir baxışda sərbezir etdi xanım nakəsləri

Zeynəbin ünqası saldı vəhşətə kərkəsləri

Durdu yerdən sildı forən üstünün toz-toprağın
Kaş görəydi Əkbəri qeyz ilə yerdən durmağın
Xırda Zəhranın görəydi düşməni sındırmaqın
Durdu vəqr ilə, sözün Zeynəb kimi rövşən dedi
Ruhi-ərbabi şəhidan vəqrinə əhsən dedi

Nə Əbəlfəzli haraya səslədi, nə Əkbəri
Nə atasın səslədi dadə, nə cəddi Heydəri
Bağladı etdi münəzzəm başda qara məcəri
İstəyir güya edə züllamı rüsva Fatimə
Sildi göz yaşın fəqət bir yol dedi ya Fatimə

Gəl ana qəmli Rüqəyyən Şamidə tufandadı
Güşeyi-zindanda qəmli qızların əfğandadı
Gəl hərayə hardasan bikəs bibim böhrandadı
Qara məcər əmməmin al könlünü dilşad elə
Bari digər bu yaman gündə bizə imdad elə

Gəl ana düşmən gəlibdi əmməmi sındırmağa
Şamidə əmməm ucaldan pərçəmi sındırmağa
Səngi tənəylən bölür sinəmi sındırmağa
Gəl yoxundan gör sesalə şirinin sən qeyrətin
Düşmənin ölləm bu gün sındırmasam şəxsiyyətin

Əmməmin mən bu qiyami-sorxidə həməhdiyəm
Neynəva dəştində pər-pər güllərin mən şəhdiyəm
Bu uçuq yerdən sərağazi-qiyami-Məhdiyəm
Tənə mənasın Bəni-Süfyana andırram bu gün
Dudumanın şöleyi-ahimlə yandırram bu gün

Verm…ôdi f√ľrs…ôt Ňü…ômat…ôt …ôhli neyr…ông etm…ôy…ô
D√ľŇüm…ôn…ô oldu m√ľh…ôyya …ôrs…ôni t…ông etm…ôy…ô
Yol gedir, g√ľya ∆Źb…ôlf…ôzldir gedir c…ông etm…ôy…ô
M…ônzili-viran…ôd…ô …ôsdi √ß√∂l…ô tufan kimi
Z…ôhr…ô √ßak etdi d…ôni rub…ôhl…ôri aslan kimi

Qa√ßdńĪ porru √ľzl…ôrind…ôn t…ôn…ôli l…ôbx…ôndil…ôr
T…ôxti-ńįblisi t…ôk…ôbb√ľrd…ôn p…ôŇüiman …ôndil…ôr
H…ôr biri bir dalda yer tapdńĪ qa√ßńĪb gizl…ôndil…ôr
Zadeyi-m…ôrh…ôbl…ôri xar eyl…ôdi Heyd…ôr kimi
Q…ôlbl…ôr u√ßdu, t√∂k√ľld√ľ q…ôleyi-Xeyb…ôr kimi

M…ôn dedi g√ľlzari-TahanńĪn g√ľl√ľ bixarńĪyam
Olmaya fikr eyl…ôdiz q…ôm-q√ľss…ôl…ôr bimarńĪyam
Nehz…ôti-sorxi-H√ľseynin burda p…ôr√ß…ômdarńĪyam
M…ôn bu Ňü…ôhr…ô g…ôlm…ôdim q…ôm-q√ľss…ôd…ôn d…ôm vurmańüa
G…ôlmiŇü…ôm kaxi-Yezid…ô qara p…ôr√ß…ôm vurmańüa

M…ôn Ňü√ľcaa…ôtd…ô bibimd…ôn l√∂vhi-t…ôqdir almńĪŇüam
Ahim il…ô p…ônc…ôm…ô peykan√ľ-Ňü…ômŇüir almńĪŇüam
K√ľll√ľ Ňěamata c…ôvazi-f…ôth√ľ-t…ôsxir almńĪŇüam
Kim m…ôn…ô al√ßaq g√∂z il…ô baxsa t…ôhqir eyl…ôr…ôm
√áox zaman √ß…ôkm…ôz g√∂r…ôrsiz ŇěamńĪ t…ôsxir eyl…ôr…ôm

VurmayńĪn dil yarasńĪ hey q…ôlbi-nax√ľrs…ôndim…ô
BaxmayńĪn t…ôhqir il…ô bu k√∂hn…ôl…ôn rub…ôndim…ô
And ola …ôtŇüan √∂l…ôn m…ôrdani-qeyr…ôtm…ôndim…ô
Ac da √∂ls…ôm d…ôsti-saziŇü h…ôr p…ôlid…ô verm…ôr…ôm
Toz tutan rub…ôndimi taci-Yezid…ô verm…ôr…ôm

Mən iki mənzur ilən bu şəhri-Şamə gəlmişəm
Əmməmə həmrah olub əvvəl qiyamə gəlmişəm
Bir də qardaşım ölübdü intiqamə gəlmişəm
Boş qalan gəhvarəsin hey tərpədib can səslərəm
Əsğərin gər intiqamın almasam dincəlmərəm

Olmaya fikr eyləyirsiz burda məhbus olmuşam
Düşməni xar eyləməkdən ya ki, məyus olmuşam
Mən hələ tazə bu viranəylə mənus olmuşam
Gərmi-afaqə mən şəbhayi-sərdin vermərəm
Versələr dünyanı gər, bir moşt gərdin vermərəm

Xişti balış, topraqı hər gün olur bəstər mənə
Gün qürub etcək çalır lay-lay qara yellər mənə
Mən belə fikr eylirəm lay-lay çalır Əkbər mənə
Versələr bu xakü-xiştə min firiştə vermərəm
Əkbərin lay-lay sədasın mən behiştə vermərəm

Dürrü qəltanım bu gözlərdən süzən yaşdır mənə
Simü-zərdən taziyanə yarası başdır mənə
Yarələr canım çıxınca yarü-yoldaşdır mənə
İstəsəm yoxsa məqu əsrarı zahir eylərəm
Bu yerin daş-topraqın yeksər cəvahir eylərəm

Şamın obaşı qərəz viranəni tərk etdilər
Gərçi ol viranənin gəncinəsin incitdilər
Hamısı şərməndə oldu sərəfkəndə getdilər
Daxili-viranə oldu Zeynəbin dürdanəsi
Doldu ziba gözlərində əşkinin peymanəsi

Aşinayi-möhnəti yormuşdu çox biganələr
Dovrəsin aldı o şəmin qüssəli pərvanələr

Tökdülər şəbnəm üzarə nərgisi-məstanələr
Əmməsi açdı qucağın bülbülü mədhuşuna
Ağladı, atdı özün tez Zeynəbin ağuşuna

Bağrına basdı xanım can misli ol nilufərin
Tər tutub gördü cəmalın açdı başdan məcərin
Öpdü ziba üz-gözündən, alnının sildi tərin
Səslədi hey gözlərindən öpdükcə can ana
Gözlərim olsun bu yorğun canına qurban ana

Sən mənim Zəhrayə and olsun vüqarımsan bala
Sən mənim xırda anamsan, iftixarımsan bala
Qəmli günlərdə kəsərli zülfüqarımsan bala
Xəstəsən əyləş yerə qurban olum göz yaşına
Ver icazə qoy Rübab ilə dolanım başına

Sərfəraz etdin bu qürbət yerdə Ali-Haşimi
Başını Allah ucatsın, çox ucatdın başımı
Yadıma saldı vüqarın qəhrəman qardaşımı
Nə müsibət gəldi əlsiz başına heç bilmədim
Bacısı ölsün onun qanın gözündən silmədim

Heyf əlim boşdur edərdim ali bir xidmət sənə
Yəsribə düşsə yolum olsa vətən qismət mənə
Orda mən allam balam canı gözəl xələt sənə
Xələt allam izzət ilə boynuna sallam qızım
Yəsribə getsəm sənə güşvarə də allam qızım

# Həzrət Rüqəyyənin (s.ə) əhvalatı

**Növhə**

Nazlı Rüqəyyə ey gözümün nuru
Gəlmə əfğana viranə rəncuru
Dilləri ahın dələr, lay-lay balam lay-lay
Qəm yemə Əkbər gələr, lay-lay balam lay-lay

Bu qədər etmə əfğan bibin qurban
Ağlar gözlərə nalan bibin qurban
Əridib cismin zindan bibin qurban
Dilləri ahın dələr, lay-lay balam lay-lay
Qəm yemə Əkbər gələr, lay-lay balam lay-lay

Biləklərində bəndi-tənab ağlar
Halına məndən gizlin Rübab ağlar
Qəlbini eylər daim kəbab ağlar
Dilləri ahın dələr, lay-lay balam lay-lay
Qəm yemə Əkbər gələr, lay-lay balam lay-lay

Danış mən ilən ey şirin zəbanım
Viransərada şəmi-şəbistanım
Dərdinə ey kaş olardı dərmanım
Dilləri ahın dələr, lay-lay balam lay-lay
Qəm yemə Əkbər gələr, lay-lay balam lay-lay

Doymazdı qardaşın Əkbər sözündən
Danışan vəxtə, öpərdi gözündən
Əkbər tərəfindən qoy öpüm üzündən
Dilləri ahın dələr, lay-lay balam lay-lay
Qəm yemə Əkbər gələr, lay-lay balam lay-lay

Bəla dur olsun bəlalı başından
Əkbərə yolla namə göz yaşından
Çox da gilayə etmə qardaşından
Dilləri ahın dələr, lay-lay balam lay-lay
Qəm yemə Əkbər gələr, lay-lay balam lay-lay

Vətənə gedincə qəmdən qocallam
Orada burdan çox fikrinə qallam
Köhnəlib köynəyin, tazəsin allam
Dilləri ahın dələr, lay-lay balam lay-lay
Qəm yemə Əkbər gələr, lay-lay balam lay-lay

Şərməndə oluram ehtiyacından
Həm özümdən, həm anandan, bacından
Yata bilmirsən bilirəm acından
Dilləri ahın dələr, lay-lay balam lay-lay
Qəm yemə Əkbər gələr, lay-lay balam lay-lay

Ürəyim qurban ürəyindəki razə
Vardır niyazın lay-laya, həm nazə
Olsa çəkərəm nazın hər əndazə
Dilləri ahın dələr, lay-lay balam lay-lay
Qəm yemə Əkbər gələr, lay-lay balam lay-lay

Gəlibsən nazım dərd əlindən canə
Olsa imkanım ey dürri-viranə
Tozlu zülfünü yuyub vurram şanə
Dilləri ahın dələr, lay-lay balam lay-lay
Qəm yemə Əkbər gələr, lay-lay balam lay-lay

Məhv olaydı bu qovmi-əbabili
Yolda vurublar üzünə çox sili

Olub anamtək ziba üzün nili
Dilləri ahın dələr, lay-lay balam lay-lay
Qəm yemə Əkbər gələr, lay-lay balam lay-lay

Keçdi xoş günlərin ey gülü yasim
Ağuşa alardı səni Abbasim
Atardı Əkbər, tutardı hey Qasim
Dilləri ahın dələr, lay-lay balam lay-lay
Qəm yemə Əkbər gələr, lay-lay balam lay-lay

## Həzrət Zeynəbin (s.ə) həzrət Rüqəyyənin (s.ə) şəhadətində növhəsi

Bəlayə ağuş açanım lay-lay
Behiştə ruhu uçanım lay-lay
Ayaqyalın yolda gecə yarı
Tikanlar üstə qaçanım lay-lay
Ey şirin zabanım – qurban sənə canım

Xərabədə ac ölənim lay-lay
Üzü öləndə gülənim lay-lay
Yaralı qəlbin ata hicrində
Cəfa xədəngi bölənim lay-lay
Ey şirin zabanım – qurban sənə canım

Fəğana qəmdən gələnim lay-lay
Əcəl sireşkin silənim lay-lay
Xərabə küncündə balalardan
Gözün yumub dincələnim lay-lay
Ey şirin zabanım – qurban sənə canım

Ölüncə qara geyənim lay-lay
Həmişə qüssə yeyənim lay-lay
Hamı yatandan sonra axşamlar
Hüseynə nohə deyənim lay-lay
Ey şirin zabanım – qurban sənə canım

Rəsən biləngin kəsənim lay-lay
Bibilərindən küsənim lay-lay
Görən zaman Zəcri, hərasından
Yara dodağı əsənim lay-lay
Ey şirin zabanım – qurban sənə canım

Cəfayi-Zəcrə dözənim lay-lay
Sitarə misli süzənim lay-lay
Atasının qanlı başın yolda
Cidalər üstə gəzənim lay-lay
Ey şirin zabanım – qurban sənə canım

Qərarını dərd alanım lay-lay
Rübabı dərdə salanım lay-lay
Susuz ölən Əsğərə hər axşam
Yuxuda lay-lay çalanım lay-lay
Ey şirin zabanım – qurban sənə canım

## Həzrət Zeynəbin (s.ə) həzrət Rüqəyyəyə (s.ə) oxşama deməsi

Gəlmə belə nəvayə – ey dilrüba Rüqəyyə
Qəlbində ahü-vayə – əmin fəda Rüqəyyə
Anam Zəhranı salır yadə ahü-zarın
Xərabədə tar olub gözəl ruzigarın

Ürəkdə gizlin məlalın vardı
Adamsızların əzizim Allahı vardı
Qəzalım Rüqəyyə
Maralım Rüqəyyə

Əkbər gələr səfərdən – dedim qızım darıxma
Yollara yanə-yanə – əllər ürəkdə baxma
Bibin qurban eyləmə əfğan döz fərağa
Fədayəm yarpaq kimi əsən dil-dodağa
Ayaq yara, qolların yara, dil də yara
Gələr alar tazədən sənə güşvarə
Qəzalım Rüqəyyə
Maralım Rüqəyyə

Tökmə sireşki gözdən – qəmdən solan cəmalə
Yer-göy gəlir fəğanə – sən eyləyəndə nalə
Zəmin ağlar, asımanlarda kövkəb ağlar
Rübab ağlar, qara gün əmmən Zeynəb ağlar
Anam Zəhra da açar başdan məcər ağlar
Açar əmmamə, vurar sinə, Heydər ağlar
Qəzalım Rüqəyyə
Maralım Rüqəyyə

Lövhi-məşiyyətində – neynək yazın beləymiş
Ətşan ölən Hüseynim – ayəndəni biləymiş
Dedi Zeynəb can sənin bacı, can Rüqəyyəm
Fəraqımda qoyma etsin əfğan Rüqəyyəm
Anama bənzər balamı sən gözdən atma
Rüqəyyəm ta yatmayınca səy elə yatma
Qəzalım Rüqəyyə
Maralım Rüqəyyə

Kelk qəza bibintək – başın bəlalı yazdı
Yaman günün həmişə - qəm çəkmə, ömrü azdı
Təhəmmül eylə əzizim suzü-qüdazə
Əgər qismət olsa getsək bir də Hicazə
Balam canı fikrinə burdan çoxlu qallam
Sənə tazə məcər allam, pirahən allam
Qəzalım Rüqəyyə
Maralım Rüqəyyə

## Şamın xərabəsində həzrət Rüqəyyənin (s.ə) əhvalatı

Ey vəfalı Əkbərim – ey mənim balü-pərim
Guşeyi-viranədə – gözləyir yol gözlərim
Ləşkəri-qəm başım üstə san verir
Qara məcərli Rüqəyyən can verir

Xahəri-biyarınam – teşneyi-didarınam
Gəl əlacım səndədi – hardasan bimarınam
Gülşənimdə əndəlibimsən mənim
Nüsxəmi gəl yaz təbibimsən mənim
Ləşkəri-qəm başım üstə san verir
Qara məcərli Rüqəyyən can verir

Gözlərim qan ağlayır – möhnətim dil dağlayır
Qanə qəltan gözləri – bikəs əmməm bağlayır
Gəl mühəyya ol əzizim matəmə
Ver təsəlla qəlbi yarə əmməmə
Ləşkəri-qəm başım üstə san verir
Qara məcərli Rüqəyyən can verir

Qəlbi-zarım yarədi – yarə yox səd parədi
Taziyana yerləri – indi də var qarədi
Tər axır rüxsari-zərdimdən mənim
Ağlayır viranə dərdimdən mənim
Ləşkəri-qəm başım üstə san verir
Qara məcərli Rüqəyyən can verir

Ver xəbər Abbasıma – həm əmoğlum Qasimə
Ellərim hər yerdə var – dəvət elə yasıma
Yəsribin cəryanı təkrar olmasın
Laəqəl yasım mənim xar olmasın
Ləşkəri-qəm başım üstə san verir
Qara məcərli Rüqəyyən can verir

Toprağa üz qoymuşam – can libasın soymuşam
And ola öz canına – zindəgidən doymuşam
Bax doyunca surəti məbhutumə
Əl yetir qardaş özün tabutuma
Ləşkəri-qəm başım üstə san verir
Qara məcərli Rüqəyyən can verir

# Həzrət Rüqəyyənin (s.ə) əhvalatı

**Növhə**

Ey mənim aşuftə pərim Rüqəyyə Rüqəyyə
Bülbülü-şuridə sərim Rüqəyyə Rüqəyyə

Əmməm ola gözlərinin fədası fədası
Canıma gəlsin gözünün qadası qadası
Toxdayacaq ayağının yarası yarası

Ağlama yandı cigərim Rüqəyyə Rüqəyyə

Şamə kimin ağlama hey səhərdən səhərdən
Salmayıb heç kimsə səni nəzərdən nəzərdən
Qəm yemə Əkbər gələcək səfərdən səfərdən
Görsənər axər qəmərim Rüqəyyə Rüqəyyə

Baxma o ağlar göz ilən Rübabə Rübabə
Qəlbini döndərmə onun kəbabə kəbabə
Ruhunu azar eləyir xərabə xərabə
Vardı qəmindən xəbərim Rüqəyyə Rüqəyyə

Çoxdu gilayən bilirəm fələkdən fələkdən
Qəmçi dəyibdir sənə çox biləkdən biləkdən
Eyləmə əfğan gözəlim ürəkdən ürəkdən
Qumriyi-bibalü-pərim Rüqəyyə Rüqəyyə

Sən kimi düşməz qəfəsə pərəndə pərəndə
Köhnədi camən bilirəm bədəndə bədəndə
Pirəhən allam sən üçün vətəndə vətəndə
Yəsribə düşsə güzərim Rüqəyyə Rüqəyyə

Gəlmə bu əndazə qızım nəvayə nəvayə
Döz mühənə, dərdə, qəmə, bəlayə bəlayə
Eylə təvəkkül gözəlim Xudayə Xudayə
Allah olar dadigərim Rüqəyyə Rüqəyyə

## Kərbəlanın fəziləti və Ərbəin əhvalatına işarə

Kərbəla yəni hərimi-hərəmi-paki-Hüseyn
Məcmə və meykədeyi-ləşkəri-bibaki-Hüseyn

Mədfəni-saqi və sərdari-qəzəbnaki-Hüseyn
Kərbəla zümreyi-məstanə təcəlligəhdı
Vadi və sahəti-mərdani-fəna fillahdı

Kərbəla yəni şəfaxaneyi-əhbabi-Hüseyn
Orda başsız yatışıblar hamı əshabi-Hüseyn
Bəzənib qan ilə səccadə və mehrabi-Hüseyn
Kərbəla kongereyi-nehzəti-Aşuradı
Bərtərin mərsiyəxanı oranın Zəhradı

Kərbəla Kəbeyi-amalidi Alullahın
Ucadı şənü-cəlalı o ziyarətgahın
Kərbəlayə nəzəri-xassəsi var Allahın
Gərdü-xakin oranın kim başına tac eləyir
Elə bil göylərə Taha kimi merac eləyir

Kərbəla yəni həman zivəri-taqi-mələkut
Rəşk edər torpağına səhnü-rəvaqi-mələkut
İşığı orda alar şəmü-çirağı-mələkut
Kərbəla rövşən edər mehri-fələk peymanı
Kərbəla olmasa zülmət bürüyər dünyanı

Günbəzi-Kərbübəla günbəzi-ərşin tacıdı
Kərbəla olmasa ərşin balı hətta acıdı
Kərbəla cürəsinin əhli-səma möhtacıdı
Teşnədi ərş özü qanlı hərəmin padaşına
Gündə min yol dolanar Kərbübəlanın başına

Kərbəlanın o pərişan rəvaqı altında
Bir cavan vardı Hüseynin ayağı altında
Caridir kovsər o ətşan dodağı altında
Şanlı Yusuf ki, məsti-qədəhi-Leyladı

Eşqinin qəmli xəridarı xanım Zəhradı

Yadigari bu sözü lovhi-dilü-canə yazın
Kərbəla Yusufinin, taci-Süleymana yazın
Ya deyin Yusifə, ya sərdəri-Kənanə yazın
Qəbrinin torpağı iclali-Süleymanə dəyər
Başının bir tükü min Yusufi Kənanə dəyər

Kərbəla günbəzi zərrini-Bəni Haşimdi
Uca güldəstələri Əkbər ilən Qasimdi
Günbəz altında xudi-Ruhul-Əmin xadimdi
Kərbəla maxələqin sineyi-sədparəsidi
Əsğərin həşr olunca ora gəhvarəsidi

O beheşt ki, hamı görməyinin müştağıdı
Kərbəlanın deyə billəm balaca bir bağıdı
Oranın pərçəmi Əsğər ağamın qundağıdı
Pərçəm əsdikcə behişt əhli Hüseyn vay deyəcək
Əldə su camı hamı Əsğərə lay-lay deyəcək

Kərbəla vadiyi-qəmdi şərəf ayinəsidi
Xilqətin noqteyi-bərtərdəki gəncinəsidi
Oranın gənci Hüseynin yaralı sinəsidi
Ora bir yerdiki saysan sana gəlməz mühəni
Orda Zəhranın ayaqlandı, pozuldu çəməni

Hamımız gözləyirik ta gələ Məhdi ağamız
Gələcək gər eləsək hövsələ Məhdi ağamız
Alacaq bir qara pərçəm ələ Məhdi ağamız
Neynəva faciəsindən ağa dadə gələcək
Kərbəlayə baş açıq payi-piyada gələcək

Düşəcək əmməsi Zeynəb kimi dəryayi-qəmə
Bilmirəm Əlqəmə əvvəl gedəcək, ya hərəmə
Vuracaq busə zərih üstə o qarə ələmə
Anası Fatimətək rəxti-müsibət geyəcək
Cəddinin qətligəhində özü nohə deyəcək

Təllin üstə ayağın qoysa deyər can əmmə
Neylədi əllərinə xəncəri-üryan əmmə
Kəsilən əllərə Məhdi özü qurban əmmə
Əlinin qanı bu çöldə hara axdı yaralı
Gözlərin nəşi Hüseynə necə baxdı yaralı

Əli qoynunda gəzər orda yanan xeymələri
Ruzi-qarət ayaq altda qalan xeymələri
Dolanar qəmli Rüqəyyə dolanan xeymələri
Sinə vurduqca deyər qəmlərə həmdəm lay-lay
Ətəyi odda yanan xırdaca əmməm lay-lay

Qaçaqaçda kimə əl hacətə açdın yaralı
Atların dizlərinə harda dolaşdın yaralı
Pabürəhnə tikan üstə necə qaçdın yaralı
Titrəyən teşnə dodaqlarına canım qurban
Yarılan xırda ayaqlarına canım qurban

Əmməcan qüssəli xeymən de görüm hardaydı
Əkbərim, ləşkər edən vəxtə hucum hardaydı
Başına qəmçi dəyən vəxtə əmim hardaydı
Buteyi-xarə harda sıxıldın yaralı
Üzünün üstə nə əndazə yıxldın yaralı

Şamidən bir gün ora dərdü-müsibət hacısı
Yaralı başda qara, cismidə qəmçi acısı
Ərbəin saxlamğa gəldi Hüseynin bacısı
Qara torpağa üzün qoydu dedi can qardaş
Zeynəbin gəldi oyan, harda yatıbsan qardaş

Bilirəm burdadı indi ləçəyi qarə anam
Sən düşən məqtələ haşa ayaq üstündə gələm
Üzü üstündə süründü o xanım yeddi qədəm
Bu həmin yerdi dedi qana büründün yaralı
Xeymələr səmtinə məqtəldə süründün yaralı

Oldu bərpa o çuxur yerdə əza əncüməni
Sərdi qəbr üstünə oxlar dağıdan pirəhəni
Yoxdu fərşilə çirağım dedi əfv eylə məni
Xəbər alma necə pirəhənin aldım qardaş
Alınca bunu mən Şam içrə qocaldım qardaş

Köynək altında nihan eylədi yarə biləyin
Göyərən surətinin üstünə saldı ləçəyin
Yaxasın açdı Hüseyn qəbrinə qoydu ürəyin
Deməди yarə ürək müstəhəqi-müalicədi
Dedi qardaş de görüm yarəli sinən necədi

Yarəli sinənə bu yarəli sinəm qurban
Sinən üstündəki, qurbanə Səkinəm qurban
Qan coşan məqtəlinə Məkkə, Mədinəm qurban
Demirəm Zeynəbinə tazə nəfəs ver yaralı
Mənə yox, qara ləçək qızlara səs ver yaralı

Qəbrini görməyinə qəlbi uçanlardı bunlar
Can alan qəmçilərə şəhpər açanlardı bunlar

Əlləri başda biyabanə qaçanlardı bunlar
Nitqə gəl qəmli əsiranı sevindir yaralı
Əkbərin eşqinə Leylanı da dindir yaralı

Gərdi-porsuzi-qəmü-dərdə batanlardı bunlar
Günüz əşkin mələşib qanə qatanlardı bunlar
Gecələr ac quru yerlərdə yatanlardı bunlar
Dilşikəstə hərəm ahulərinin könlünü al
Yəsribə qafiləmi başla azan ver yola sal

Eləyir qəlbi Rübabın mühənü-dərdi kəbab
Hamıdan dalda qalıb əldəki bir kaseyi-ab
Teşnələb Əsğərinə su gətirib qəmli Rübab
Dildə eşqin közünü sən də alışdır yaralı
Zeynəbin qəmli Rübabın da danışdır yaralı

## Ərbəin əhvalatı

Hüseyn məzarının üstə gəlib vəfalı bacın
Yaralı cisminə qurban ola yaralı bacın
Bəlalı başına qurban başı bəlalı bacın
Cəfa ilən dağılıbdır cəlalı Zeynəbinin
Qutarmayandı ürəkdə məlalı Zeynəbinin

Fəğan edib qəmi-hicrində sinə dağlamışam
Hayanda fürsət olub qəmlərində ağlamışam
Doyunca ağlamağı qəbrin üstə saxlamışam
Bu gün, bu çöldə mənim naləmə daş ağlayacaq
Nəva edib açacaq qüdsiyan baş ağlayacaq

Fəğanü-nalə səsim yer-göyə təkan verəcək
Əlaqəsin sənə Zeynəb bu gün nişan verəcək

O qədri ağlayacaq qəbrin üstə can verəcək
Belə bir ölməyə çox arzu çəkər Zeynəb
Anam Bətulə qəsəm ölsə dincələr Zeynəb

Gözümdə cilvələnir xatirati-Aşura
Nə noyi səbr eyləyim mən baş açmayım aya
Bu yer o yerdi ki, açmışdı baş anam Zəhra
"Deyirdi ləblərin pəndinə anam qurban
Ürəyinin qırılan bəndinə anam qurban"

Bu yer səni sitəm əhli yerə yıxan yerdi
Ürəyinin qanı topraqlara axan yerdi
Yaralı sinənə Şimri-dəğa çıxan yerdi
Bu yer Rübabı qara günlərə qoyan yerdi
Ədu anam toxuyan köynəyi soyan yerdi

Bu yer Rüqəyyə balan nisfi-şəb gələn yerdi
Rəşidə qamətini Zeynəbin bükən yerdi
Hərayə qardaşı Abbası səsləyən yerdi
Bu yer o yerdi ki, Hüseyn qanına büründün sən
Yadımdadır ki, hərəm səmtinə süründün sən

Vəfa ölüncə azalmaz bu canfişanda Hüseyn
Qüsur edibdi bacın sən denən hayanda Hüseyn
Odur ki, neçə qədəm qəbrinə qalanda Hüseyn
Üzümün üstə düşüb torpağa büründüm mən
Bir az o sən sürünən yerdə də süründüm mən

Doyunca qoy hələ mən ağlayım fəğan eləyim
Bu dağ-daşı gətirim şurə növhəxan eləyim
Başım bəlasını bir-bir sonra bəyan eləyim
Deyim ki, Zeynəbini dindirən kimdi Hüseyn

Bacını naqələrə mindirən kimdi Hüseyn

Gedəndə Kufəyə yollar qəmin əyar elədin
Dəvələr üstə hərəm əhlini səvar elədim
Baxıb sağa-sola göz yaşını nisar elədim
Üzümü Əlqəmə tutdum o moqeyi-həssas
Dedim hayanda qalıbsan adamsızam Abbas

Hayanda qalmısan ay Zeynəbin həvadarı
İraq gözündən ey əhli-hərəm pərəstarı
Bu qara gün bacının Şimr olub celudarı
Dedim ki, kaseyi-səbrin calandır ay qardaş
Gözünü Zeynəbə sarı dolandır ay qardaş

Hüseyn nə çəkdi deyim Kufənin yolunda bacın
O dərdi çəkmədi heç Kərbəla çölündə bacın
Nişanəsin gətirbdir sənə qolunda bacın
Bu bəzmi-xəlvət ola heç kim olmaya ey kaş
Verəm nişan sənə bu qəmçilər yerin qardaş

Bu qollarımı əgər fürsət olsa mən açaram
Bu xəstə cismidə etmə xəyal yoxdu yaram
O yaralı bədənindən bədəndə çoxdu yaram
Sənin yenə başının üstə ağlayıbdı anam
Yaraların bilirəm indi bağlayıbdı anam

Mənim gülüm kimi heç gülsütan gülü solmaz
Mənim yaram kimi aləmdə heç yara olmaz
Mənim ürəkdə varım dil yarası bağlanmaz
Mənim ürəkdəki yaram öləndə bağlanacaq
Cavan anam bala vay səslənəndə bağlanacaq

## Ərbəin növhəsi

Ey diyari-dilneşinim Kərbəla
Mərqədi-yari-müinim Kərbəla
Qibləgahi-eşq olubsan Zeynəbə
Dəfn olub səndə Hüseynim Kərbəla
Kərbəla, can Kərbəla, can Kərbəla
Mərqədi-paki-şəhidan Kərbəla

Dağlayam qəbr üstə sinə gəlmişəm
Bi Rüqəyyə, ba Səkinə gəlmişəm
Kaş yazılsın nameyi-əmalıma
Kərbəlayə, Ərbəinə gəlmişəm
Ey bəlalı sərzəminim Kərbəla
Məcməyi-əhli-yəqinim Kərbəla
Kərbəla, can Kərbəla, can Kərbəla
Mərqədi-paki-şəhidan Kərbəla

Ölmədim gəldim ziyarətgahına
Baş qoyam ziba ibadətgahına
Dərdi-hicran Zeynəbi bimar edib
Gəlmişəm qanlı təbabətgahına
Ey diyari-biqərinim Kərbəla
Vey məhəlli şurü-şinim Kərbəla
Kərbəla, can Kərbəla, can Kərbəla
Mərqədi-paki-şəhidan Kərbəla

Qəm libasın qamətindən soymadım
Firqətində ağlamqdan doymadım
Vermədi düşmənlərim fürsət mənə
Yarımı bari məzarə qoymadım
Qaldı üryan şahi-dinim Kərbəla
Koşteyi-dini-mübinim Kərbəla

Kərbəla, can Kərbəla, can Kərbəla
Mərqədi-paki-şəhidan Kərbəla

Çox bəla tiri dəyib ehsasıma
Ağlayırdım Əkbər ilən Qasimə
Dəfn olub harda uca boy qardaşım
Bargah olmuş hara Abbasıma
Hardadı ziba cəbinim Kərbəla
Zadeyi-Ümmül-Bəninim Kərbəla
Kərbəla, can Kərbəla, can Kərbəla
Mərqədi-paki-şəhidan Kərbəla

Xiştini hər xakü-xiştə verməram
Versələr minlər firiştə verməram
Kaş ölüb sinəndə Zeynəb dəfn ola
Qanlı torpağın behiştə verməram
Ey mənim xüldü-bərinim Kərbəla
Vey mənim həblül-mətinim Kərbəla
Kərbəla, can Kərbəla, can Kərbəla
Mərqədi-paki-şəhidan Kərbəla

Səndə yorğun sərsipahım dəfn olub
Rəhbəri aləm pənahım dəfn olub
Sərzəminində axıb ulduzlarım
Səndə xorşid ilə mahim dəfn olub
Ey pənahi-axərinim Kərbəla
Mərqədi-nuri-du eynim Kərbəla
Kərbəla, can Kərbəla, can Kərbəla
Mərqədi-paki-şəhidan Kərbəla

# Əhli-Beytin (ə) Mədinəyə gəlməsi

Matəm tutubdu şəhri-Mədinə fəzasını
Gərdü-qubari-qəm bürüyübdür həvasını
Şəhri-Nəbi geyibdi əzanın libasını
Güya ki, şəhr müntəziri-inficardır
Şəhr əhli qəmli bir xəbərə intizardır

Ahuların gedir göyə yerdən fəğan səsi
Şurə gətirdi doqquz fələki əlaman səsi
Nagəh ucaldı ərşə Bəşirin azan səsi
Səslir Mədinə əhli sizə tazə can gəlir
Şəhri gecəylə tərk eləyən karivan gəlir

Əfsus ola bu qafilənin yoxdu sərvəri
Simürğünüzün sınıbdı cəfa ilə şəhpəri
Agəh edin bu mətləbə şəhr içrə elləri
Gəlsin kim istəyir görə Zəhra əzizəsin
Cərəyanə baxəbər edin Əkbər mərizəsin

Vaqif olubdu yeksərə şəhr əhli mətləbə
Bir iddə düşdülər yola didari-Zeynəbə
Vursunlar busə məqdəmi-mərziyyə mənsəbə
Bir iddə yetişdilər Süğra hüzuruna
Şəmin yığışdı fərz elə pərvanə nuruna

Süğra gələn qonaqlarına etdi ehtiram
Əfv eyləyin buyurdu yoxum qüdrəti-qiyam
Süğranın öpdülər üzünü verdilər salam
Ərz etdilər xanım deyəsən ellərin gəlir
Dur rəxti-xabı cəm elə tez Əkbərin gəlir

Süğraya güya bu xəbər verdi tazə can
Birdən ürəklənib dedi başivənü-fəğan
Süğra fəda gələn yoluna olsa əmmə can
Tiri-nəva ilən cigərim bölmərəm bibi
Bir yolda görsəm Əkbəri day ölmərəm bibi

Tutdu sonra üzün o zənani-Mədinəyə
Səpdiz su hicr odunda yanan dağlı sinəmə
Bavər bu bağrıqan sözünü etmədiz niyə
Gördüz dedim qəzali mələk mənzərim gələr
Qoymaz gözümü yolda Əli Əkbərim gələr

Etdi o natəvan bala səyi-nəhayətin
Durdu ayağa saf elədi xəstə qamətin
Əllər ürəkdə tutdu səmavatə surətin
Ey ruhü-canı peykəri-bicana qaytaran
Ey Yusufi cəlalilə Kənana qaytaran

Bir bəndeyi-əlilə və dilxununam sənin
Tənha nə bəndə, aşiqi-məftununam sənin
Qaytardın Əkbəri mənə məmnununam sənin
Bildim ki, dərgəhindən əli boş qayıtmaram
Gər verməsən şəfa da mən şikvə etmərəm

Vardır yeri bu qüssədə gər yansan ey ürək
Bilmirdi Kərbəladə yıxıbdır evin fələk
Bilmirdi başına salacaqlar qara ləçək
Tutmuşdu bir təbəssümü ziba dodağını
Cəm etdi rəxtixabı, süpürdü otağını

Eylirdi öz-özüylə o məzlumə qoftoqu
Nəqşə çəkirdi əvvəl ola kim ilə rubəru

Səhnü-rəvaqi-mənzilə səpdi bir az da su
Şayəd dedi qonağımız oldu söz olmasın
Əsğər iməkləyib qaçacaq qoy toz olmasın

Toz eylər əziyyət o xoş mənzər Əsğərə
Başdan-ayağa cismi gülə bənzər Əsğərə
Amadə eylədi sonra bir bəstər Əsğərə
Şayəd deyirdi indi evə çatdı qardaşım
Yorğundu bəlkə çatacaq evə yatdı qardaşım

Allam o dilsitanımı ağuşə can kimi
Hey iylərəm qucağımda güli-ərğəvan kimi
Gül nazını özüm çəkərəm bağban kimi
Nazın çəkib onun bilərəm mən nazını
Nəzr etmişəm gərək öpəm əvvəl boğazını

Şayəd qucağıma mənim Əsğər çətin gələ
Adət edib Rüqəyyə qucağında dincələ
Süğra adında var bacısı bilməyir hələ
Süğrasının ona deyən olmaz mərizliyin
Gər gəlsə eylərəm ölüncə kənizliyin

Amma bir az gilayə varım Zeynəb əmməmə
Zəhra nişanı xoşdil-şirinləb əmməmə
Ərz eylərəm xüsusi neçə mətləb əmməmə
Bilməm bibim niyə dil alamı yarmadı
Qoydu məni boş evdə özüylən aparmadı

Bir ayrı cilvə də görərəm mən Mədinəmi
Bəstər Rüqəyyəmə elərəm xəstə sinəmi
Allam dizimin üstünə nazlı Səkinəmi
Ərz eylərəm ki, xahəri-bimarızam bacı

Aylar olar ki, həsrəti-didarızam bacı

Əkbər demirdi müntəzirdi mələr bacım
Hicranə heç demirdi necə tab edər bacım
Qaldı tək evdə bir gedincək ölər bacım
Daim dua edərdim heç ev başsız olmasın
Ey kaş cahanda heç bacı qardaşsız olmasın

Bilmirdi pənceyi-əcəlin babi-meylim
Axər demirdi tək bu boş evlərdə neylim
Qəlbim bətər sınıbdı hamızdan gileyliyəm
Pirahəni-vəfanı niyə soydu Əkbərim
Məndən nə illətə belə tez doydu Əkbərim

Güya eşitdi quşi-fələk qoftoqusini
Nəqşi bər ab etdi tamam arizusunu
Boş gördü şəhdi-nabilə dolmuş səbusunu
Kim baxdı gördü, ağladı səyü-təlaşına
Şəhr əhli saldılar xanımın qarə başına

Tez çıxdı səhnə gördü tutulmuş qəmər gəlir
Əynində qarə qafileyi-dərbedər gəlir
Əkbər anası Leylanı gördü mələr gəlir
Bəzi xanım salıb üzünə qara bir niqab
Əllər ürək başında oğul vay deyir Rübab

Gördü alıbdı bir xanımın dövrəsin zənan
Bari bəla edibdi rəsa qamətin kəman
Gəldi qabağə səslədi banalə və fəğan
Ağlar gözüm gəzir o rəsa mətələb əmməmi
Bari nişan verin mənə siz Zeynəb əmməmi

Qolların açdı nagəh o qəddi kəman xanım
Süğranı basdı bağrına ol bağrıqan xanım
Gəldi qərəz bəyanə o şiva bəyan xanım
Məntək salıb bəlayə səni dərdü-qəm bala
Axtarma Zeynəb əmməni, Zeynəb mənəm bala

Məndən qızım soruşmagilən əllərin hanı
Abbas əmin, ya ki, Əli Əkbərin hanı
Qəmli Rübabə sinə gülü Əsğərin hanı
Qəm püşkü mənim adıma çıxdı ay bala
Dəsti-fələk bətər evimi yıxdı ay bala

## Mədinənin fəziləti və Ümmül-Bəninin (s.ə) məqamı

Şəhri-Yəsrib, şəhri-nur və cilvəgahi-şuri-eşq
Mərkəzi-nəşri-şəhadətnamə və mənşuri-eşq
Cami-eşqi ordan aldı saqiyi-aşuri-eşq
Kuçeyi-təngində başlandı qiyami-Kərbəla
Dər həqiqət orda odlandı xiyami-Kərbəla

Kərbəlatək Yəsribin də imtiyazı vijədi
Nayi-qəmnakində ahəngi-hicazı vijədi
Qan coşan səhra kimi suzü-qüdazı vijədi
Neynəvatək Yəsribin də şuri-Aşurası var
Çünkü bu möhnətli şəhrin Zeynəbi Kübrası var

Gənci-üqbatək nihandır toprağında dörd imam
Sadiqi şiva bəyan və Baqiri ziba kəlam
İkinci gənci-vilayət Müctəbayi-zülkəram
Sinəsində sineyi-Sina kimi fəryadı var
Şəhri-Bəthanın Yezidi xar edən Səccadı var

Fəxr edər Bətha, Əli Əsğərin yoldaşına
Gəldi Şamatə təvəssül eylədi göz yaşına
İmperatorun o qız təxtin çevirdi başına
Yəsribin hər bir məkanda sipəhsaları var
Şamidə bir sinni az qeyrətli pərçəmdarı var

Yəsribin vardır xülasə çox bəhalı tuşəsi
Xaki-Məşhəddə yatıbdır qəlbinin bir guşəsi
Pay çatıb İrana ziba güllərin bir xuşəsi
Əhli-dərdə bargahi-pakı daruxanədi
Milləti-İran Bətulun şəminə pərvanədi

Yəsribin var bir Hüseyni aləmə qovğa salar
Cibril orda kəfənsiz aşiqə lay-lay çalar
Sərbedar eşqinə İsa özü heyran qalıb
Çünkü Taha şəhrinin mövludi-istisnası var
Qundağı ərşə uşaqlıqdan gedən İsası var

Bir Bəqi var orda dünya eşqinə həsrət çəkər
Toprağın hər gün mələklər öpməyə minnət çəkər
Tək nə yer-göy, həsrətin hətta onun cənnət çəkər
Cənnətin harda bu qədri aşiqi-şeydası var
Cənnətin hurası olsa, Yəsribin Zəhrası var

Zəhradan sonra gəldi o şəhrə vəfalı bir gəlin
Başına döndü Hüseynin, Zeynəbin öpdü əlin
Dörd dilavər doğdu, oldu şöhrəti Ümmül-Bənin
Kərbəlada keçdi başdan qəhrəman oğlanları
Mərg bər Ali-Üməyyə yazdı əthər qanları

Eşqinə xatir inayət eylədi Allah ona
Dörd oğuldan bir nişan qaldı çirağı-rah ona
Oldu bir ayrı Əbəlfəz xırda Abdullah ona
Dəm bedəm alnın öpərdi, səslənərdi can bala
Gözlərim olsun keşidə qəddinə qurban bala

Var yeri hər gün dolansa başına Ümmül-Bənin
Surətində nəqşeyi-ziba çəkib nəqşafərin
Qaşların altda çəkib nəqqaş, Əbəlfəz gözlərin
Nərgisi-məstin salır Abbası yada ax bala
Sən mənə Səqqa vərindən bir doyunca bax bala

İmtahandan çıxdı əvvəl gün o ülya mərtəbə
Ləblərin eşqilə qoydu cayi-payi-Zeynəbə
Dər əməl teyy eylədi sədsalə rahı yekşəbə
Beyti-Zəhrayə özün çün bildi ol banu kəniz
Ovcə seyr etdi kəmalı aləmə oldu əziz

Etdi fərmayiş "Müəzzin" mən də getdim bəhrinə
Bir nəfər zair deyir gəldi Mədinə şəhrinə
Daxil oldu teşnəyi-məna müsibət bəhrinə
Busə vurdu ordaki əhli-yəqinin qəbrinə
Etina heç etmədi Ümmül-Bəninin qəbrinə

Bir doyunca ağladı alami-Ali-Heydərə
Əşki gözlərdə yoruldu qoydu başın bəstərə
Yatdı amma gördü röyada əcibə mənzərə
Ruhunun uçdu behişti-cavidanə tairi
Gördü röyadə olubdur Kərbəlanın zairi

Busə vurdu mərqədi-paki-zəbihi-əzəmə
Fatimə sinə vuran məqtəldə etdi zəmzəmə

Pabürəhnə, baş açıq gəldi kənari-Əlqəmə
İstədi etsin ziyarət mərqədi-sərləşkəri
Oldular mane vürudundan hərəm xadimləri

Mən filan şəxsəm dedi uzaq bir yoldan gəlmişəm
Eyləyib dəvət məni şahi-şəhidan gəlmişəm
Siz məgər kimsiz? Ağam Abbasa mehman gəlmişəm
Əşkimi gəldim qatam burda Rüqəyyə əşkinə
Bir doyunca ağlayam qana boyanmış məşkinə

Busə gəldim mərqədi-mahi-mubinə vurmağa
Gəlmişəm baş sərsipahi-biqərinə vurmağa
Alnı üstündə düşən məqtəldə sinə vurmaqa
Gəlmişəm qanı axan yerdə ağam, ey vay deyəm
Xırdaca qəbrin alam ağuşuma, lay-lay deyəm

Qəmli xadimlər dedi əşkin nəva elanıdı
Pabürəhnə gəlməyin qofatının bürhanıdı
Burda biz heçkarayıq, Abbasın öz fərmanıdı
Yol buyurdu gəlsə mehman Hicazə verməyin
Ağlayıb yalvarsa hətta icazə verməyin

Dərgəhindən sabiqə yox qaytara bir kimsəni
Ehtiram eylər Əbəlfəz gəlsə hətta düşməni
Neyləyibsən gör ağa pabusuna qoymur səni
Qəm yemə qəlb eşqinə kim vursa əfsus eyləməz
Heç kimi Ümmül-Bəninin oğlu məyus eləməz

Xəstə zair getdi haldan qoydu alnın torpağa
Torpağı öpdü fəğana gəldi, səsləndi ağa
And verirəm mən səni qana boyanmış qundağa
And verirəm xeymədən qarət olan gəhvarəyə

Kuçeyi-bariki-Yəsribdə sınan guşvarəyə

And verirəm mən səni məzlum Hüseynin canına
Təşt içində xeyzəran ilən sınan dəndanına
And verirəm Qasimin başdan axan al qanına
And verirəm teşnə qızların qaçan yollarına
Zeynəbin yollar boyu qəmçi dəyən qollarına

And verirəm xeyməlḙrdən qozanan əfğanlara
Neynəvanın sinəsində sineyi-suzanlara
Mərqədi-şeşguşədə ətşan yatan oğlanlara
Eylə fərmayiş hayanda iştibahım var mənim
Qoymadın pabusə aya nə günahım var mənim

Gəldi bir səs nagəhan, tökmə belə qan yaşını
Mən kimi çox sürtmə bu daş-toprağa göz-qaşını
Əllərin salimdi təkyə eylə qoza başını
Ruhuma lətmə vurubsan ay Mədinə zairi
Qəlbimi çox sındırıbsan ay Mədinə zairi

Mərifət əhli olan heç yerdə sındırmaz birin
Hamının Yəsribdə öpdün sən pozulmuş mərqədin
Neyləmişdi bəs sənə bikəs anam Ümmül-Bənin
Şəhri-Yəsribdə ədəb rəsmin riayət etmədin
Dilşikəsətə aşiqin qəbrin ziyarət etmədin

Qoy deyim kimdir o qəbrin sahibi-ərzəndəsi
Qüssəli atəşfişandır sineyi-suzəndəsi
Kərbəlada oğlu oldu Əsğərin şərməndəsi
Harda görsəydi Rübabın çöhrədə göz yaşını
Xəlq içində xiclətindən qozamazdı başını

Neylərin ahəngi səs qoşdu nəvalı qəlbinə
Qəhrəmanlartək yaraşdı qəm medalı qəlbinə
Dörd oğul dağın fələk çəkdi yaralı qəlbinə
Ömrünün soldu gülsütanı, xəzana oxşadı
Qamətin bari-bəla əydi kəmana oxşadı

Zindəgidən doydu amma ahü-vadən doymadı
Ellərin istəklisi qara libasın soymadı
Bir günə qaldı, sözün heç kim hesaba qoymadı
Tirə iqbal oldu bəd gözləri bəxtin göyçəyi
Guşəgir oldu evində Yəsribin ağbirçəyi

## Qəməri Bəni-Haşimin (ə) oğlu Abdullah (ə) ata qəmində

**Növhə**

Qəlbim darıxdı – göz yola baxdı
Hey ulduz axdı – göz yaşım axdı
Olmadı – bir xəbər – Abbas atamdan
Var dildə – qəmli bir – ehsas atamdan

Gəldi birbəbir – gedən müsafir
Hicrində qəlbim – qan oldu axir
Yubandı, çox mənim, pənahım Allah
Ey ürək dərdimdən, agahım Allah
Olmadı – bir xəbər – Abbas atamdan
Var dildə – qəmli bir – ehsas atamdan

Öpdüm dodağın – çəkdim fərağın
Nəzr etdim öpəm – gəlsə ayağın
Gözlərəm yolunu ta var nəfəsim

Olmadı – bir xəbər – Abbas atamdan
Var dildə – qəmli bir – ehsas atamdan

Əhli-Mədinə dağlayır sinə
Ağlayır anam Ümmül-Bəninə
İllət var anamın bu göz yaşında
Can bala səslənir hər söz başında
Olmadı – bir xəbər – Abbas atamdan
Var dildə – qəmli bir – ehsas atamdan

Göylər dolanda güllər solanda
Qəmli oturram axşam olanda
Göydə ulduz ağlar mən ağlayanda
Ay sinəsin dağlar mən ağlayanda
Olmadı – bir xəbər – Abbas atamdan
Var dildə – qəmli bir – ehsas atamdan

## Ya Musa ibn Cəfər (ə)

Qalmışam zindan bucağında qəribü-bikömək
Atəşi-zülmü-cəfadən şöləvər olmuş ürək
Dağ-daşa etsin əsər dildən çıxan ahım gərək
Ahi-peydərpey yarəli qəlbimi dağlar mənim
Halıma nohə deyər gül, ağlayar bağlar mənim

Səcdəm ilən çünkü zindan məbədə təbdil olub
Taziyanəylən odur məndən gözəl təclil olub
Dudi-ahimlən səmadə əbrilər təşkil olub
Cami-səbri-asiman bu zülmü-tüğyandan daşır
Halıma illət budur göydə buludlar ağlaşır

On bir ildi görmürəm gərçi səni ey asiman
Agəhəm didarıma sən də olubsan bağrıqan
Eyləyirsən qəmli Məsuməm kimi sən də fəğan
Çox darıxma röyət eylərsən rüxi-məbhutumu
Həml edəndə dörd nəfər qəbrə tərəf tabutumu

Mən kimi heç kimsə zindanda pərişan qalmayıb
Xırdalıb təndə sümüklər cismidə can qalmayıb
Rəglərimdə bəski aclıq çəkmişəm qan qalmayıb
Dizlərimdə yoxdu taqət bir qədəm yol getməyə
Nə təvanım ahü-vayə var, nə fəryad etməyə

Mövsümi-payizidə bərgi-xəzanə bənzirəm
Ya yanıb xamuş olan atəşfişana bənzirəm
Bir yaralı qumriyi-biaşiyana bənzirəm
Ney kimi daim sızıldır cismi-məcruhum mənim
Az qalır uçsun qəfəsdən tayiri-ruhum mənim

Pabepa gəldim əzəldən qismətü-təqdir ilən
Sübhümü şam etmişəm təsbih ilən, təkbir ilən
Olmuşam mənus boynumda olan zəncir ilən
Boynumun zənciri şahiddir nə möhnət çəkmişəm
Zeynəb əmməm tək dəyib qəmçi məşəqqət çəkmişəm

Gərçi taqətdən düşübdür peykərü-canım mənim
Az qalır rəglərdə gərdişdən düşə qanım mənim
Yarim ilə vardı dildə ayrı peymanım mənim
Görməyib görməz məzillət gərdin əthər damənim
Düşmənə hərgiz əyilməz yaralanmış gərdənim

Mən muradi-Ali-Tahayəm Hüseyn övladıyam
Qol-qanadım bağlı da olsa yenə azadəyam

Ömrüm olsa, həbsdə min il qalam amadəyam
Boynumun zənciri yoldaşdır mənə əl dəymərəm
Ta nəfəs var düşmənə əl qozayıb baş əymərəm

Mən Əli ol kuhi-səbrin səbri dərya oğluyam
Cövhəri-cani-Hüseynəm şahi-Bətha oğluyam
Nuri-çəşmi-Sadiqəm, Siddiqə Zəhra oğluyam
Yaralanmış qəlbimi təhqir oxuylan yarmaram
İzzət ilə ölləm amma düşmənə yalvarmaram

Qoy çürütsün canımı zindan əyilsin qamətim
Qəmçi altında başım sınsın çoxalsın möhnətim
Sınsa başım eybi yoxdur sınmasın şəxsiyyətim
Qoy ürəklər halıma heç yanmasın, dağlanmasın
Qanı axsın başımın əmməm kimi bağlanmasın

Qoy uzansın ömür alamım şəbi-yəlda kimi
Qamətim qəmdən bükülsün öz anam Zəhra kimi
Əhli-əyalımdan uzaqda can verim Səqqa kimi
Qəmli Məsuməm xanım Ümmül-Bənintək vay desin
Qazsın bir qəbr Yəsribdə ona lay-lay desin

## Həzrət Əbəlfəzin (ə) imam Rzanın (ə) hərəmində möcüzəsi

Cilveyi-ruxsarına qurban Riza
Şövkəti-dərbarına qurban Riza
Noqteyi-pəgarına qurban Riza
Mətləi-ənvarına qurban Riza
Məxzəni-əsrarına qurban Riza
Aşiqi-əhrarına qurban Riza
Qüssəli zəvvarına qurban Riza
Fovci əzadarına qurban Riza

Qəbrin olub mətləi-divani-ərş
Məcməi-sükkani-pərişani-ərş
Məbdəi-dəryayi-xuruşani-ərş
Mənşəyi-xorşidi-füruzani-ərş
Mərkəzi-müstəhkəmi-ərkani-ərş
Məhbəti-Cibrili-nəvaxani-ərş
Əhli-səma teşnədi padaşına
Gündə mələklər dolanar başına

Bargahına olsa kimin dəvəti
Qəbrini şot eyləməyə qisməti
Qoysa dəri-rəhmətinə surəti
Öpsə əgər mərqədi-hürriyyəti
Ərşə çatar zairinin izzəti
Yadına salmaz əbədən cənnəti
Cənnətül-əladı rəvaqın Riza
Naz eləyər ərşə qonağın Riza

Bir belə pabusuna mən gəlmişəm
Daldalanıb sayənə dincəlmişəm
Eşqin oxuylan sinəmi dəlmişəm
İzzətim artıb nə ki, əskilmişəm
Hey gözümün yaşı axıb silmişəm
Tazə bu sirri hələ mən bilmişəm
Qəbrü-rəvaqın nəyə bənzər Riza
Bargəhin Kəbəyə bənzər Riza

Günbəzin olmuş fələkin qübbəsi
Ərşi-müəllayə çatıb rütbəsi
Yerdə olub ərşi-Xuda şöbəsi
Həncəreyi-Ali-Əli hərbəsi

Düşmənə hər yerdə dəyib zərbəsi
Qəbrin olubdur füqəra Kəbəsi
Hansı diyarın belə bir şahı var
Hansı şəhin bir belə dərgahı var

Qəlb evi səndən sarı taracıdı
Kim qapını öpsə əgər, hacıdı
Gərdi-rəhin başda şərəf tacıdı
Bargəhin pilleyi-meracıdı
Kəbə kimi salikə minhacıdı
Alnını kim qoysa qədəmgahına
Tez yetişər məhzəri-Allahına

Məhzəri-dərd əhlinə haziq təbib
Sərdərinə ayeyi-Rəbbul-Həbib
Həkk olunubdur bu şüari-məhib
"Nəsru minəllah və fəthun qərib"
Düzdü ağam şəhri-Nəbidən gəlib
Kaş demiyəydi ona heç kim qərib
Hansı qəribin belə imkanı var
Hişmətü-iclalı-Süleymanı var

Hansı qəribin bu qədər yarı var
Yari-sənaxanü-vəfadarı var
Can bekəfi-üşşaqi-fədakarı var
Bir belə başdan keçən ənsarı var
Kəbə kimi milyonu zəvvarı var
Sevimli, hörmətli əzadarı var
Bənzəri bir şəmi-şəbistanədi
Milləti-İran ona pərvanədi

Hər şəbi cümə belə ünvan olar
Bargəhin kuyu-şəhidan olar
Teşnə ölənlər sənə mehman olar
Xassə qonağın şəhi-ətşan olar
Rövzə deyən Zeynəbi-nalan olar
Orda Əbəlfəz də nigəhban olar
Şanlı nigəhbanına qurban Riza
Yarəli mehmanına qurban Riza

Hər şəbi-cümə ürək əfğandadı
Yetimiş iki gül bu gülüstandadı
Ərbabımız məhdi-dəlirandadı
Qanlı bədənlər hamı İrandadı
Dəşti-bəla möhnəti-hicrandadı
Kərbübəla çünkü Xorasandadı
Xaki-dərin qiblənəmadır Riza
Bəs, hərəmin Kərbübəladır Riza

Ey eləyən xaki-dərin arizu
Əşk ilə ver qəlb evinə şosteşu
Vardı xəbərlərdə ki, bir zeştxu
Mərdi-dənisirətü-biabiru
Daxil olardı hərəmə bivüzu
Düz o zıreh ilə durub rubəru
Etməz idi şəmsi-həyadan həya
Gündə deyərdi ağama nasəza

Bir günü gəldi hərəmi-əthərə
Başladı düşnamı gülü-Heydərə
Oxşadı nagəh o hərəm məhşərə
Əsdi ələm dəydi hamı bir-birə

Çatdı o məlun dəni keyfərə
Ağzının üstündə yıxıldı yerə
Qopdu hərəmdən göyə bir va Hüseyn
Göydə mələklər dedilər ya Hüseyn

Bargəhin xadimi-baizzəti
Hifz ola çünkü hərəmin hörməti
Atdı çölə laşeyi-bədheybəti
Yumdu gözün ta azala möhnəti
Aləmi-röyada görüb həzrəti
Qoydu Riza məqdminə surəti
Xaka bələşdirdi dodaqlarını
Öpdü o sültanın ayaqlarını

Ərz edib ey zülkərəm badəyə
Ey hərəmi hadı olan qibləyə
İndiyədək səbr eləmişdin niyə
Qoy dedi ərbab cavabın deyə
Rəhm edənəm həm sizə həm özgəyə
Qoymaram heç düşməni də inciyə
Mən o nigünbəxti yenə vurmaram
And ola cani-Həsənə vurmaram

Qafil olub xainü-xənnas o gün
Etmədi əslən xətər ehsas o gün
Saxlamış idım anama yas o gün
Gəlmiş idi yasa gülü-yas o gün
Çün qonaq idi mənə Abbas o gün
Dözmədi dərdə şərəfun-nas o gün
Sahibi-cud, kərəm, fəzl əmim
Vurdu o məlunu Əbəlfəzl əmim

Qurban olum qeyrətnə Əbəlfəz
Sayeyi-əmniyyətinə Əbəlfəz
Gövhəri-şəxsiyyətinə Əbəlfəz
Dəsti əbər-qüdrətinə Əbəlfəz
Qüdrətinə, sölətinə Əbəlfəz
Qəlbi qədər cürətinə Əbəlfəz
Eşq oduna qəlbi-muzab eylədin
Kərbübəladə necə tab eylədin

Qövmi-dəni zülm eləyən vəxtidə
Xeyməyə yürüş gətirən vəxtidə
Çöllərə qızlar tökülən vəxtidə
Zeynəbinə qəmçi dəyən vəxtidə
Şölədən ətfalı çəkən vəxtidə
Səslədi gəl dadə əxa Əbəlfəz
Təkdi bacın ərsədə ya Əbəlfəz

Ay əli əllərdən uca hardasan
Ey qəməri-Ali-Əba hardasan
Zeyğəmi-səhrayi-bəla hardasan
Xeymələrim yandı əxa hardasan
Qəlbi yaralı bacına hardasan
Qəmçi vurur Şimri-dəğa hardasan
Yol-yol olubdur bədənim Əbəlfəz
Yoxdu himayət edənim Əbəlfəz

Halımı gəl dudü-dumandan soruş
Bari-qəmi qəddi kəmandan soruş
Heç demirəm Şimr, Sinandan soruş
At qabağında qolanandan soruş
Çöllərə əl başda qaçandan soruş
Daməni odlarda yanandan soruş

Getməyə vardı hayanım Əbəlfəz
Xeymədə çoxdu yananım Əbəlfəz

Sal yada bu qəmlərin avarəsin
Zeynəbinin kəsdi qoşun çarəsin
Qızlarımın soydular güşvarəsin
Əsğərimin aldılar gəhvarasən
Söndür alovdan başımın qarəsən
Yandırır odlar əlimin yarəsən
Hardasan ay el dayağım Əbəlfəz
Yandı mənim əl-əyağım Əbəlfəz

Düşmənin oxşur ürəyi daşlara
Rəhm eləyən yoxdur bu qan yaşlara
Qəmçidi şiddətlə dəyir başlara
Qan yaxılıb odda yanan saçlara
Bəzi başın qanı süzüb qaşlara
Bacı deyər dərdini qardaşlara
Hardasan ay arxam elim Əbəlfəz
Dadə yetiş sındı belim Əbəlfəzl

Xeymeyi-şahanələrim yandı gəl
Xeymədə fərzanəlarim yandı gəl
Sevimli dürdanələrim yandı gəl
Şölədə reyhanələrim yandı gəl
Qüssəli pərvanələrim yandı gəl
Yarələnən şanələrim yandı gəl
Burda kimim vardı mənim Əbəlfəz
Yoxdu hərayə gələnim Əbəlfəz

Bəndi-dili-Ümmü-Bənin hardasan
Tairi-fərxündə cəbin hardasan

Yandı yəsar ilə yəmin hardasan
Gör nə vurur qövmi ləin hardasan
Qasimin namizədin hardasan
Öldü qara günlü gəlin hardasan
Yox onu əllərdən alan Əbəlfəz
Xanımlığı oldu talan Əbəlfəz

## Həzrət Əli ibn Musa ər-Rzanın (ə) mədhi

Sən pənahi-bikəsansan – ey Rizacan, ey Rizacan
Şahi-şahani cahansan – ey Rizacan, ey Rizacan

Dərgəhindən dəsti-xali düz gələn sail qayıtmaz
Bəhri-eşqi-bikəranə tez olar vasil qayıtmaz
Almamış hacət qapından heç şikəstədil qayıtmaz
Sən imami-mehribansan ey Rizacan, ey Rizacan

Eşqi-pakında ürəklər məşəli-suzanə bənzər
Çöhreyi-Əhməd misalın nəyyiri-tabanə bənzər
Bargahi-kəmnəzirin cənnətü-rizvanə bənzər
Əhli-eşqə mizbansan ey Rizacan, ey Rizacan

Bilmədi qədrin cahanda əhli-zülm, əhli-kinə
Qaldı həsrət gül camalın görməyə şəhri-Mədinə
İndi bu xaki-Xorasan fəxr edir xüldi-bərinə
Maliki-mülkü cinansan ey Rizacan, ey Rizacan

Hər tərəfdən xakbusunə milləti-cahan gələllər
Peyrəvani-şahi-mərdan didəsi giryan gələllər
Dərdi-bidərmanə çoxlar almağa dərman gələllər
Məlcəyi-müsliminsən ey Rizacan, ey Rizacan

Nökərinlən şanlı şahlar şənində həmpayə olmaz
Qonşuluq kim sənlən etsə heç kimə həmsayə olmaz
Sayeyi-baizzətintək başlar üstə sayə olmaz
Sayibani-kəhkəşansan ey Rizacan, ey Rizacan

Aşiqi-cami-meyintək ayrı mey mədhuş edənməz
Sağərindən dadsa hər kim ayrı camı nuş edənməz
Hər nə qədri əssə tufan şəmini xamuş edənməz
Sən həmişə cavidansan ey Rizacan, ey Rizacan

Mündəricat

Ya Məhdi (əc) ............................................................3
Salavat ............................................................6
Peyğəmbərin (s) vəfatı və İmam Hüseynin (ə) şəhadətinə işarə ............................................................8
Mövla Əlinin (ə) mədhi ............................................................10
Allahı göstərən güzgüsən Əli (ə)............................................................15
Mövla Əlinin (ə) mədhi və Kufə əhvalatına işarə ............18
Qitə ............................................................22
Hicabı qorumağın keyfiyyəti və həzrət Zəhranın (s.ə) xütbəsinə işarə ............................................................22
Həzrət Zəhranın (s.ə) razü-niyazı............................................................30
Salam olsun sənə ey Fatmeyi-Zəhra (s.ə)........................38
Həzrət Zəhranı (s.ə) dəfn edən zaman Əlinin (ə) qüssəli halı ............................................................46
Zeynəbi-Kübranın (s.ə) həzrət Zəhra (s.ə) şəhadətində naləsi ............................................................49
Mövla Əlinin (ə) həzrət Zəhraya (s.ə) xitabı ...................50
Həzrət Zeynəb (s.ə) ana ayrılığında ...............................51
İmam Həsən Müctəbanın (ə) mədhi və həzrət Zəhra (s.ə) qəminə işarə ............................................................53
İmam Həsənin (ə) həzrət Zeynəbə (s.ə) xitabı .................62
İmam Həsən Müctəbanın (ə) bacısı Zeynəb (s.ə) ilə dərdləşməsi ............................................................64
Həzrət Süğranın (s.ə) qüssəli əhvalı ................................65
Qitə ............................................................67
Həzrət Süğra (s.ə) qardaşı Əli Əkbərin (ə) yolunu gözləyir ............................................................67
İmam Hüseynin (ə) Kərbəlaya daxil olması ....................69
Həzrət Əli Əkbərin (ə) mədhi və şücaəti ........................73

İmam Hüseynin (ə) Əli Əkbərin (ə) cənazəsinin yanında növhəsi....................................................................84
Leylanın (s.ə) Əli Əkbərə (ə) növhəsi ..............................86
Həzrət Əli Əkbərin (ə) əhvalatı.......................................87
Həzrət Qasimin (ə) mədhi və şücaəti ...............................88
Həzrət Qasimin (ə) əmisini köməyə çağırması.................93
İmam Hüseyn (ə) Qasimin (ə) cənazəsinin kənarında......95
Həzrət Qasim ibn Həsənin (ə) əhvalatı.............................97
Həzrət Əbəlfəzin (ə) şücaəti və amannamə əhvalatına işarə ................................................................................98
Həzrət Əbəlfəzin (ə) əhvalati və ədəbə riayət etmək .....106
Həzrət Abbasın (ə) şücaəti.............................................112
Bəni-Haşimin nurlu ayı həzrət Əbəlfəzin (ə) əhvalatı....121
Bayatı..............................................................................124
Həzrət Əbəlfəzin (ə) Seyyidüş-şühədanı (ə) çağırması..124
İmam Hüseynin (ə) həzrət Əbəlfəzə (ə) xitabı...............125
Həzrət Əbəlfəzin (ə) düşmən qoşunu qarşısında rəcəz oxuması........................................................................127
Həzrət Əbəlfəzin (ə) Əba Əbdullah Hüseyndən (ə) kömək istəməsi .........................................................................129
Sültan Səncərin ov əhvalatı və Əli Əsğərin (ə) əhvalatına işarə ..............................................................................130
İmam Hüseynin (ə) Əli Əsğər ilə (ə) meydanda söhbəti 138
Həzrət Rübabın (s.ə) Əli Əsğərə (ə) növhəsi.................139
Rübabın (s.ə) Əli Əsğərə (ə) lay-lay deməsi..................140
Həzərt Rübab (s.ə) Əli Əsğər (ə) qəmində ....................142
Ya şəhid Hüseyn (ə) .......................................................143
İmam Hüseynin (ə) mədhi və həzrətə əzadarlığın keyfiyyəti ......................................................................145
İmam Hüseynin (ə) xütbəsinə işarə................................149
İmam Hüseynin (ə) Allah ilə razü-niyazı ......................156

Həzrət Zeynəbin (s.ə) əhvalatı və qətligah hadisəsinə işarə ........................................................................................164
Dubeyt ...........................................................................168
Zeynəbi-Kübranın (s.ə) qətligahda növhəsi ..................168
Qətligahda həzrət Zeynəbin (s.ə) həzrət Əbəlfəzdən (ə) kömək istəməsi..........................................................169
Həzrət Zeynəb (s.ə) imam Hüseynin (ə) qətligahında....172
Qətilagah əhvalatı..........................................................173
Qarət əhvalatı və şami-qəribana işarə ..........................175
Xeymələrin qarət olunması və həzrət Zeynəbin (s.ə) həzrət Əbəlfəzə (ə) xitabı.........................................................181
Şami-qəribanda həzrət Zeynəbin (ə) növhəsi ................182
Kərbəladan çıxış və həzrət Zeynəbin (s.ə) Kərbəla ilə dərdləşməsi ...................................................................183
Ya Zeynəbi-Kübra (ə)....................................................186
Həzrət Zeynəbin (s.ə) Kufə şəhrində şəhaməti və Şam yoluna işarə ..................................................................190
Yezidin məclisi və Şamın xərabəsinin əhvalatına işarə .195
Həzrət Zeynəbin (s.ə) şəhadətsayağı vəfat əhvalatı .......201
Həzrət Zeynəbin (s.ə) ölüm halında Hüseynə (ə) xitabı.203
Həzrət Rüqəyyənin (s.ə) matəm məclisi və Kufədə Rüqəyyənin (s.ə) Zeynəb (s.ə) ilə söhbəti .....................205
Həzrət Rüqəyyənin (s.ə) əhvalatı .................................209
Həzrət Rüqəyyənin (s.ə) Yezidin qızına kəskin cavabı..214
Həzrət Rüqəyyənin (s.ə) əhvalatı .................................219
Həzrət Zeynəbin (s.ə) həzrət Rüqəyyənin (s.ə) şəhadətində növhəsi...........................................................................221
Həzrət Zeynəbin (s.ə) həzrət Rüqəyyəyə (s.ə) oxşama deməsi...........................................................................222
Şamın xərabəsində həzrət Rüqəyyənin (s.ə) əhvalatı.....224
Həzrət Rüqəyyənin (s.ə) əhvalatı .................................225
Kərbəlanın fəziləti və Ərbəin əhvalatına işarə..............226

Ərbəin əhvalatı ............................................................ 231
Ərbəin növhəsi ............................................................ 234
Əhli-Beytin (ə) Mədineyi-münəvvərəyə gəlməsi .......... 236
Mədinənin fəziləti və Ümmül-Bəninin (s.ə) məqamı..... 240
Qəməri Bəni-Haşimin (ə) oğlu Abdullah (ə) ata qəmində ............................................................ 245
Ya Musa ibn Cəfər (ə) .................................................. 246
Həzrət Əbəlfəzin (ə) imam Rzanın (ə) həramində möcüzəsi ............................................................ 248
Həzrət Əli ibn Musa ər-Rizanın (ə) mədhi .................... 255